**RƏSUL RZA**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

I CİLD

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2005

Tərtib edəni: **Anar**

Redaktoru: **Arif Əmrahoğlu**

Ön sözün müəllifi: **Şamil Salmanov**

**894.3611-dc 21**
**AZE**
**Rəsul Rza. Seçilmiş əsərləri**. Beş cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2005, 304 səh.

XX əsr Azərbaycan poeziyasının əzəmətini, gücünü, sənətkarlığını özündə toplayan ən qüdrətli şairlərimiz sırasında Rəsul Rzanın adı xüsusi yer tutur. Milli şeri məzmun və forma, biçim, dil baxımından təzə obrazlar, ifadələr, deyim tərzi, heç kəsin ona qədər işləmədiyi qafiyələr və neolügizmlərlə zənginləşdirmiş novator şair Azərbaycanda sərbəst şerin yaradıcılarından biri və ən böyük nümayəndəsidir. Azərbaycan tarixi və taleyinin bir çox mühüm və ağrılı problemlərinin əks olunduğu Rasul Rza poeziyası milli mahiyyətli olduğu üçün eyni zamanda beynəlmiləl, bəşəri poeziyadır.

"Seçilmiş əsərləri"nin bu cildində görkəmli şairin müxtəlif illərdə qələmə aldığı şeirlər toplanmışdır. Cilddə "Mən torpağam", "Vətən", "Anamın kitabı", "Etiraf", "And", "Dünyanın dərdi" və b. şeirlər silsiləsi təqdim olunur. Sözün daxili imkanlarının bütünlüklə açıldığı bu şeirlərin poetik düşüncələr kimi hərəkətverici qüvvəsini, mayasını fəlsəfi fikir təşkil edir.

**ISBN 9952-416-66-X**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ƏSRİN NOVATOR POEZİYASI

Artıq başa çatmış XX yüzillikdə milli poeziyamız böyük, mürəkkəb, çox-cəhətli bir təşəkkül və inkişaf dovrü keçirmişdir. Poeziya yalnız öz milli dəyərləri və təcrübəsi əsasında yox, əsrin poeziyasının muhüm yaradıcılıq istiqamət və məktəblərinin də ən yaxşı ənənələri və meylləri ilə əlaqədə, üzvü təmasda yaranmış, yeni axtarışları yolu ilə irəliləmişdir. Bu da təsadüfi deyildir, bunun hər şeydən əvvəl poeziyaya, onun spesifikası və vəzifəsinə, xalqın milli mənəvi tərəqqisindəki yoluna yeni münasibətin, müasir ədəbi baxışın bilavasitə təsiri ilə bağlı bir məsələ olduğunu da demək lazımdır.

Hələ əsrin əvvəlində milli poeziyamızda böyük Sabirin əzəmətli obrazı ilə rastlaşırıq. Sabir əsrin ən böyük və mürəkkəb bir yaradıcılıq vəzifəsini - yeni poeziya necə olmalıdır? - vəzifəsini ilk gerçəkləşdirən şair oldu. Məlumdur ki, XX əsr poeziyası - yeni əsrin poeziyası neca olmalıdır? - sualı ilə başlamışdır. Düzdür, əsrin real ədəbi prosesində orta əsr poetik üslubları və məktəbləri də mövcud idi, yaşayırdı və fəaliyyət göstərirdi. Lakin bu poeziya nə qədər qədim köklərə və dəyərlərə malik olsa da, yeni əsrin bədii tələblərini müəyyən məqamda ödəmirdi; yeni poeziya necə olmalıdır? - narahatçılığı da bu ehtiyacdan doğurdu. Sabir poeziyanın bu böyük problemini dərindən dərk edən ilk şair oldu və bütün yaradıcılığını da bu problemin həllinə yönəltdi. Sabirin poeziyadakı yeniliyini, cəsarətli novatorluğunun başlıca prinsipi -"Dindirir əsr bizi" prinsipi idi və bu prinsipi o, öz yaradıcılığının əsas ruhuna, təməl konsepsiyasına çevirə, bununla da bütün əsrin poeziyasını istiqamətləndirə bildi.

Poeziyada yeni, ikinci bir mərhələ isə əsrin 20-ci illərindən sonra başlandı ki, bu mərhələdə poeziyada, əsrin yeni poetik dəyərlərinin axtarışı və kəşfı daha da gücləndi və genişləndi, üslub, yaradıcılıq xarakteri və tərzi etibarilə rəngarəng və çoxcəhətli bir miqyas, şəkil aldı. Bu mərhələ düz əsrin sonuna qədər davam etmişdir; milli poeziyanı yeni əsrə - XXI əsrə gətirib çıxarmışdır və məhz bu səbəbdən biz bu mərhələnin fəal, ciddi sənət yolu keçmiş şairlərinin yaradıcılığına böyük əhəmiyyət verməli, əsrin poeziyasının inkişafındakı mövqelərini yüksək qiymətləndirməliyik. Belə şairlərdən biri, şübhəsiz, Rəsul Rzadır. O, poeziyaya yeni sənət və yaradıcılıq axtarışlarının təzəcə başladığı və qızğın, mürəkkəb, kəskin bir şəkil aldığı vaxtda gəlmişdir, yarım əsrdən çox bir müddət ərzində yazıb yaratmış, poeziyada axtarışlar və eksperimentlər apararaq yeni tipli, tamamilə müasir, epik, novator poeziyasını yaratmış və bununla bir növ yüzilliyin poeziyasını başa çatdırmışdır. Məhz buna görə də R.Rza poeziyasının 20-ci illərdən sonrakı milli poeziyada xüsusi yeri və mövqeyi vardır; S.Rüstəm, S.Vurğun, M.Müşfiq və başqa bu nəslə mənsub şairlərlə bir sırada R.Rza əsrin yeni mərhələsinin klassik şairlərindən biridir.

* * *

"Poeziya zəhmət və ilhamdır" avtobioqrafik qeydlərində R.Rza öz tərcümeyi-halına keçərkən belə qeyd etmişdir: "Deyilənə görə, mən 1910-cu ildə mayın 19-da anadan olmuşam. Deyilənə görə deyirəm, çünki bu tarix düzgün olmaya bilər. Anadan olduğum ili və günü babam əlyazması Quranın səhifələrindən birində qeyd edibmiş. Babamı dəfn

edən zaman (mənim onda üç-dörd yaşım olardı) Quran yoxa çıxıb". Ağır, fərəhsiz uşaqlıq və gənclik illəri keçirmiş atası Mirzə İbrahim kənd mirzəsi, eyni zamanda öz dövrünə görə qabaqcıl görüşlər sahibi, Azərbaycanda öz qızını dünyəvi məktəbə qoymuş ilk valideynlərdən olmuşdur.

Şair öz tərcümeyi-halında daha sonra yazır ki, evimizə qəzet və jurnallar gələrdi, "Molla Nəsrəddin", rus dilində çıxan "Niva", "Probujdeniye" nəşrlərini alırdıq". Bütün bunların, heç şübhəsiz, gələcəyin böyük şairinin mənəvi tərbiyəsində mühüm rolu olmuşdur. R.Rza uşaqlıqdan ədəbi söhbətlərin getdiyi bir ailədə tərbiyə almışdır. Üstəlik, şairin anasının şairlik təbi varmış. Anası Məryəm oxumaq bilirmiş, ancaq yazmağı bacarmayıbmış. Buna görə də şeirlərini əzbər deyərmiş və yadında saxlayarmış. Şair hələ uşaqlıqdan Füzulinin, Natəvanın, Sabirin şeirlərini anasının dilindən eşitdiyini yazır. Uzun illər keçəndən sonra R.Rza yazmışdır: "İndi yaddaşımın səhifələrini varaqladıqca mən bir daha inanıram ki, mənim könlümə şerə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hörmət hissi tərbiyə etmişdir". İllər keçəcək, şair onun qəlbində şerin ilk qığılcımını yandırmış doğma Məryəm ananı belə xatırlayacaqdır:

Min-min ana içində
Anamı tanıyaram:
Gözlərimi bağlasalar belə
Tanıyaram,
Ayaq basdığı torpağın qoxusundan,
qəlbimə dolub boşalan
onu itirmək
qorxusundan.

Altı yaşı olarkən məktəbə getmiş və beləliklə də, şairin özünün dediyi kimi, ağır təhsil və iş illəri başlamışdır. On dörd yaşında ikən oxumaqla yanaşı həm də şəhər kitabxanasında işləmişdir. 1925-ci ildə isə Gəncə Sənaye və Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, ancaq təhsili yarımçıq qoyub bir neçə aydan sonra evə, anasının yanına qayıtmışdır. Nəhayət, 1930-cu ildə şair Bakıya köçür; o vaxt boyük bacıları şəhərdə yaşayırdılar.

Bakıda isə şair məktəb yoldaşı şair Abdulla Faruqdan başqa heç kimi tanımırdı. Ancaq çox çəkmir o, şair A.Faruq vasitəsi ilə ədəbi aləmdə yaxşı tanınan M.Müşfiq, S.Rüstəm, M.Hüseyn, S.Vurğun, M.Rəfili, Ə.Nazim, M.İbrahimov və başqaları ilə yaxından tanış olur, onlarla bir cəbhədə yeni ədabiyyatın yaradıcılıq və təşkilati vəzifələrinin həyata keçirilməsində bilavasitə yaxından iştirak edir. R.Rza tərcüməçi vəzifəsinə işə düzəlir. O illərdə "Gənc işçi" ədəbiyyata yenicə gələn şairlərin, yazıçıların toplaşdığı, görüşdükləri əsas yer idi. R.Rza burada bir çox yaşıdları ilə, o cümlədən şair M.Müşfiqlə tanış otmuşdur.

Yazıçı dostu S.Rəhmana həsr etdiyi "Xatirələr düzümü" poemasında da (1971) R.Rza "Gənc işçi" qəzetinin redaksiyasının, oradakı dostları xatırlayaraq arxada qalmış illər haqqında, itirilmiş dostlar haqqında dərin bir kədər və nisgil hissi ilə yazırdı:

İndi çörək dükanıdır
o ilk tanışlığımız,
ilk həyat məktəbimiz,
ilk mübarizə meydanımız
sevincimiz,
həyəcanımız
olan yer. ...
İndi sən yox,
Müşfiq yox,
Mikayıl yox,
Faruq yox,
Mehdi yoxdu.
Tək necə qayıdım o günlərə
Necə keçim o yolu?..

Bakıda əvvəllər başladığı bədii yaradıcılıq fəaliyyətini daha böyük və ciddi bir inadla, sənət ehtirası ilə davam etdirir. 1927-ci ildə Tiflisdə Gürcüstan Proletar Yazıçılar Assosiasiyasının türk seksiyasının "Qığılcım" almanaxında ilk şeri - "Bu gün" şeri dərc olunmuşdur. Həmin illərdə "Yeni fikir" qəzetində də şeirləri və hekayələri çıxmışdır. "Gənc işçi" redaksiyasında çalışdığı vaxtda isə bu qəzetin səhifələrində "Avropanın ölüm çağı", "Arş", "Bir avqusta", "Qara yelin xəbəri" və s. şeirləri dərc olunur. Yaradıcılıqla yanaşı R.Rza təhsilini də davam etdirir. Təhsil aldığı məktəblər, institutlar sırasında şair Tiflisdəki Zaqafqaziya Kommunist Universitetini, Azərbaycan Tibb İnstitutunun hazırlıq kursunu, Azərbaycan Tibb institutunu, Azərbaycan Dövlət

Elmi Tədqiqat İnstitutunu, Moskva Millətlər İnstitutunu, Ümumittifaq Kino Akademiyasını və s. elm və təhsil ocaqlarını qeyd etmişdir.

R.Rza ilk şeirləri ilə mətbuatda çıxış etməyə başlayanda yeni, inqilabi bir ədəbi proses təzəcə formalaşırdı; bir tərəfdə təcrübəli yazıçılar, digər tərəfdə isə yeni yazıçılar nəsli fəaliyyət göstərirdi və o da qeyd olunmalıdır ki, yeni ədəbiyyat uğrunda mübarizə, bu ədəbiyyatın ideya-bədii prinsiplərini müdafiə və qızğın təbliğ etmək - bu prosesin çox mühüm bir tərəfi idi. R.Rza da ilk şeirləri ilə bu ədəbi mübarizəyə qoşulan şair kimi diqqəti cəlb edirdi. Onun elə ilk şeirlərində istedadlı bir şairin yaradıcılıq özünəməxsusluğu duyulurdu. Dərc olunan ilk şeri "Bu gün"də bunu hiss elmək mümkündür.

Bu şeirdə şair bu gündən təsirləndiyini bildirirdi, bu günün şairi olduğunu elan edirdi və çox səciyyəvidir ki, elə ilk yaradıcılıq dövrünün yetkin bir çağında yazdığı "Bolşevik yazı" "Bu gün" şerində anlayışı onun poetik prinsipinin əsas tələbi və meyarı olaraq tərəfindən bəyan edilirdi:

Mənim şerim bu günün,
bu gündü mənim şerim,
bu günsüz yarın olmaz,
bu gün yoxsa
yarınlar da qurulmaz.

Başqa sözlə, ilk şeirdən etibarən R.Rza yaradıcılığında müasir poeziyanın real, ciddi, istiqamətverici təsirini görmək mümkündür. Ümumiyyətlə, 20-ci illərin əvvəllərində poeziyada yeni axtarışlar güclü şəkildə özünü hiss etdirməyə başlayır. İlk illərdə bu daha çox yeni mövzularda, daha çox inqilabın tərənnümünə, onun ideyalarına həsr olunmuş şeirlərdə özünü göstərirdi. 1926-cı ildə çap olunan "Qızıl gənc qələmlər" məcmuəsini təşkil edən şeirlər inqilab, qızıl əsgər, yeni cəmiyyət quruculları mövzusunda yazılmış nəzm əsərlərindən ibarət idi. Bu topludakı şeirlərdə hələ yeni forma, fərdi üslub axtarışları nəzərə çarpmırdı. Məlumdur ki, R.Rzanın "Bolşevik yazı" şeri 1931-ci ildə"İnqilab və mədəniyyət" jurnalının 3-4 sayında çıxmış və dərhal da diqqəti cəlb etmişdir. Belə ki, tənqidçi M.Hüseyn elə jurnalın həmin sayında dərc olunmuş "Yaradıcılıq ixtilaflarımız" məqaləsi üçün R.Rzanın bu şerinin məşhur misralarını epiqraf seçirdi:

Mübarizə bu gün də var.
yarın da.
Mən də onun ən ön sıralarında.

Məhz bu misraların siyasi və yaradıcılıq əhvali-ruhiyyəsi işığında müasir ədəbiyyatın, ədəbi prosesin mənzərəsini cızaraq tənqidçi R.Rzanın "Tribuna

şeri yaratmaq kimi doğru yol tutmuş şair" kimi təqdim edirdi. Həqiqətən də "Bolşevik yazı"da R.Rzanın üslubu əsas etibarilə siyasi lirika mahiyyəti daşıyırdı; şair müasirliyi bu günü mübarizə kimi qavrayır və özünü, öz fərdi aləmini bu mübarizədən ayrı təsəvvür etmirdi. Məhz bu janr-üslub xüsusiyyətinə görə "Bolşevik yazı" şeri həyat və sənətdə yenilik uğrunda mübarizədə şairin mövqeyini əks etdirən proqram xarakterli bir şeir idi. Şeir "bir səs"in şairə müraciati ilə başlanır və bu səs, hər şeydən əvvəl zamanın, həyatın səsidir:

Bir səs deyir:
Rza durma,
Rza yaz,
Yaza yaz!

R.Rza bu şerində yeni tipli lirikanın yaradıcılıq qayəsini və prinsiplərini qoruyub həll etməyə çalışırdı və buna nail olurdu. Təsadüfi deyil ki, sonrakı bir çox çıxışlarında şair "Bolşevik yazı" şerini "öz yaradıcılıq kredosu" adlandırmış, onu özünün "ədəbi manifest xarakteri" daşıyan şeri hesab etmişdir. Sonradan tənqidçi M.Arif doğru olaraq belə hesab etmişdir ki, məhz "Bolşevik yazı" şerilə R.Rza öz dəsti-xətti, öz poetik xüsusiyyətləri olan bir şair kimi etiraf olunmuşdur.

Beləliklə, aydın nəzərə çarpırdı ki, şair poeziyada, sənətdə axtarışı -yenilik uğrunda mübarizə kimi qəbul və dərk edir. Məhz buna görə də bu şeir şairin yaradıcılığının heç bir mərhələsində öz aktuallığını və yaradıcılıq konseptuallığnıı itirməmişdir. Onun "Çapey" (1931), "Qanadlar" (1934) şeir kitabları müəllifini artıq yetkin bir şair kimi təqdim edirdi, Xüsusilə bu baxımdan "Qanadlar" kitabı daha çox diqqətə layiqdir.

R.Rza yalnız "Almaniya" poemasında yox, beynəlxalq miqyasda, düünyanın digər regionlarınnda baş verən hadisələrdən təsirlənərək qələmə aldığı "Çapey", "Cəlladları durdur", habelə "Çinar" kitabındakı (1938) "Madrid", "Həbəşistan" və s. şeirlərində eyni dərəcədə lirik idi; hadisaləri sakit, ardıcıl epik planda yox, lirik planda təqdim edir və buda həmin əsərlərin janr-üslub xarakterini müəyyənləşdirirdi. Beləliklə, adları çəkilən hər iki kitab R.Rzanın bir şair kimi yüksəldiyini, yaradıcılıq yetkinliyini, müasir poeziyanın çox mühüm bir istiqamətini və əsas meyllərini əsərlərində təmsil edə bildiyini göstərir və bununla da o, yalnız öz yaradıcılığı miqyasında yox, əsrin 20-ci ilindən sonrakı poeziyanın mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirirdi. R.Rzanın Mayakovskiyə həsr etdiyi şerində Mayakovskinin obrazı bu şeirdə yeni dövr, yeni zaman şairinin obrazı olaraq yüksəlirdi. Müəllif bir yaradıcılıq gecəsini təsvir edir və bu fonda özünün Mayakovskiyə ehtiramını, qızğın və səmimi məhəbbətini ifadə edirdi.

Müasir poeziyanın novatorluq yolu və prinsiplərinin müdafiəsində şairin mövqeyi kifayət qədər barışmaz və prinsipial bir xarakter daşıyırdı. R.Rzanın bütün sonrakı poeziyasından, daba mürəkkəb və çətin yaradıcılıq vəzifələrinin həllinə yönəlmiş sənətindənn çıxış edərək onun görüşlərində bu mövqeyin dəyişməz olduğunu, lakin bununla belə həm də mərhələdən-mərhələyə inkişaf edib, daha da dərinləşdiyini və büllurlaşdığını təsdiq etməliyik. R.Rza bütün sonrakı yaradıcılığı ilə, eləcə də 30-cu illərdəki şeirləri ilə, məsələn, "Çinar" kitabındakı ən yaxşı şeirləri ilə poeziyasının dərin

milli və ümumbəşəri köklərlə, mənbələrlə bağlı olduğunu, onun poeziya çinarının köklərinin dərinliklərə də gedib çıxdığını sübut edirdi. "Çinar" kitabı da məhz bu şeirlə açılmışdır, kim bilir, bəlkə elə şairin bu hissinin ifadəsidir?! Niyə onu heç nə yıxa bilmir, qar, çovğun ona təsir edə bilmir? Bütün zərbələrə qarşı Xan Çinar məğrur və əyilməzdir? Şair bu barədə düşünür və birdən Xan Çinar özü dilə gəlir, həqiqətini ifadə edir:

Bu torpaqda dərindən kök salaraq
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürümüş sağ-solumu.
Belə məğrur dayanmağa bağlıyam,
Mən kökümlə bu torpağa bağlıyam.

Çinarın bu cavabı çox mənalı və rəmzidir. Əslində bu cavabla R.Rza öz poeziyasının dərin mətləblərinə, öz yaradıcılıq prinsiplərinin əbədi dəyərlərə güvəndiyini bildirirdi. Bunun həqiqətən belə olduğunu yəqin etmək üçün R.Rzanın başqa bir şerinə - elə həmin illərdə qələmə aldığı "Firdovsi" şerinə də müraciət etmək kifayətdir. 1934-cü ildə yazılmış şeir R.Rzanın hansı poeziya uğrunda mübarizə apardığını təsəvvür və dərk etmək üçün çox mühüm və əhəmiyyətli bir əsərdir. Məhz bu şeir deməyə əsas verir ki, R.Rzanın poeziya görüşləri yalnız "Bolşevik yazı"da ifadə olunan görüşlərdən ibarət deyildir; bu gorüşlər haqqında tam, əhatəli təsəvvür üçün şairin "Firdovsiyə" tipli şeri və habelə sonradan Nizami, Füzuli, Sabir və b. şairlər haqqında görüşləri də mütləq nəzərə alınmalıdır. Firdovsiyə həsr etdiyi şeirdə isə R.Rza bu şairin simasında zaman və poeziya problemini qoyur, həqiqi poeziyanın bütün zamanlara məxsus olması fikrini əsaslandırırdı.

R.Rza 30-cu illər lirikasında dünyada, ətrafda, yeni cəmiyyətdə baş verən ən mühüm hadisələrə cavab verməyə, həyatın yüksəliş, dəyişmə prosesini əks etdirməyə çalışır. "Çapey", "Cəlladları durdur", "Həbəşistan", "Qüvvət nəğməsi" kimi şeirlər bu cəhətdən R.Rzanın yaradıcılıq uğurlarındandır. Onun siyasi lirikası güclü publisist pafosu ilə yanaşı həm də şairin fikri-hissi aləmi ilə zəngin idi. Lakin R.Rzanın poeziyasında lirikanın bu tipi ilə yanaşı

başqa bir forması - şairin daxili, mənəvi hisslərini ifadə edən tipi də vardı və bu cür şeirlər də onun lirikasının çox güclü bir meylini təşkil edirdi. "Qanadlar", "Kəhər", "Qürur nəğməsi", "İlqar" və s. şairin belə şeirlərindəndi. Belə şeirlər üçün şairin həyata, dünyaya fəal, nikbin, coşqun, romantik hisslərinin ifadəsi səciyyəvi idi. Şairin lirik "Mən"inin bu şeirlərdəki aləmi fərdi, şəxsi olduğu qədər də ümumi, coşqun, romantik hisslərin daşıyıcısı idi. Şair sevgilisinə müraciət edir və bu müraciətdə bitib-tükənməz iztirab və ümidsizlik yox, feal, nikbin bir romantik ruh asasdır.

Lirik qəhrəmanın hisslərindəki bu genişlik "Qanadlar" şerində daha konkret və müfəssəl ifadəsini tapırdı. Lirik hisslərin müfəssəl, əhatəli təsviri cəhətdən bu şeri daha çox lirik poema hesab etmək olar. Burada lirik qəhrəman hissləri uşaqlıq röyalarından yeni, yetkin insanın düşüncələri səviyyəsinə yüksəlirdi. Lirik qəhrəmanın dramatik mənəvi təkamülü bu şerin əsas süjetidir.

Bir körpəydim,
gülən,
şən,
Bir körpəydim
onda mən.
Röyalarda görərdim
qıvrıncaq mələkləri.
Sonsuz ala göylərdən
Məni çağırardılar.
Bəzən qanadlarında uçar,
uçar,
uçardıra.
Min bir qapı açardım
üfüqsüz mövqelikdə.

Bu, lirik qəhrəmanın uşaqlıq röyaları və xəyallarıdır, onun zəngin fəzalarda, geniş göylərdə dolaşan romantikasıdır. Lakin R.Rzanın elə ilk şeirlərindən etibarən poetik "mən"ini mürəkkəb hisslər mühitində açmaq, onun bu hisslərinin, düşüncələrinin dramatizmini və inkişafını göstərmək lirikasının əsas, təyinedici bir xüsusiyyəti idi. Uşaqlıq ötür, ömrün elə bir məqamı gəlib çıxır ki, sonsuz ala göylərdə mələklərin qanadlarında uçan dünənki uşaq yeni həyat həqiqəti ilə, sərt bir varlıqla üzləşir.

R.Rzanın lirik "mən"i bu müdhiş aləmdə məhv olmur; onun sərhədlərini qırıb yeni bir aləmə - fəaliyyət, iş, mübarizə aləminə yol açır. Beləliklə, şairin

qəhrəmanı yüksəliş qanadlarında, poeziya qanadlarında yenə uçuşunu davam edir, - bir vaxt "o xəyal əsiri" olan dünənki uşaq yurdunun baharı ilə ulduzlara doğru yol axtarır və bu yolu tapır.

R.Rzanın bu şeri öz daxili mənası, ruhu, ideyası etibarilə yeni, sovet poeziyasının ümumi tendensiyaları ilə yaxın idi. Lakin R.Rzanın şeri həmin ideyanı özünəməxsus, lirik qəhrəmanın daxili, mənəvi axtarışları formasında verirdi ki, bu da onun lirikasını siyasi-ritorik şeirdən kəskin surətdə fərqləndirirdi. Bu şerin poetikası da yeni idi, xalq şeri ünsürləri, obraz və metaforaları onun poetikasında çox aydın və qabarıq nəzərə çarpırdı. Şerin ritmi də, vəzni də onun poetikasının özünəməxsusluqlarından idi. R.Rzanın sərbəst şerində milli şerin vəzn sisteminin ünsürləri çox fəal və aydın nəzərə çarpırdı. Hiss olunurdu ki, onun sərbəst şeir axtarışlarında hecanın daxili, yeni imkanlarını axtarıb tapmaq əsas xətti təşkil edir.

Beləliklə, R.Rza artıq yaradıcılığının birinci mərhələsində, yəni 1927-1940-cı illərdə müasir poeziyanın diqqəti cəlb edən simalarından idi; Öz şeirləri ilə o, əsrin yeni dövr poeziyasının banilərindən biri olaraq diqqəti cəlb edirdi. Belə ki, həm 30-cu illərin əvvəllərində tənqidçi M.Hüseyn, S.Vurğun və S.Rüstəmlə bir sırada R.Rzadan da müasir, yeni şerin görkəmli simalarından biri kimi bəhs edirdi. Tənqidçi M.Arif isə belə hesab edirdi ki, milli formanı inkişaf etdirmək meyli yeni məzmunun ifadəsi R.Rza yaradıcılığının müsbət bir xüsusiyyətidir.

İyirmi-otuzuncu illərdən sonra R.Rza yaradıcılığının yeni bir mərhələsi 1941-1945-ci illər müharibəsi dövründə başlanır. Bu dövr də əvvəlki mərhələ kimi həm ideya-siyasi cəhətdən, həm də ədəbi inkişaf baxımından, bütövlükdə ədəbiyyatımızın, o cümlədən onun ayrı-ayrı görkəmli nümayəndələrinin ədəbi yaradıcılıq fəaliyyətinin çox mühüm bir dövrüdür. Xalqın mübarizəsində daha fəal iştirak etmək, bütün yaradıcılıq qüvvələrini və imkanlarını vətəni, torpağı müdafiə vəzifəsi üçün səfərbərliyə almaq - dövrün başlıca tələbi idi və bu, hər bir yazıçının qarşısına yeni, miqyaslı vəzifələr qoyurdu. S.Vurğun, S.Rüstəm və b. ilə bir sırada R.Rza da müharibə dövrü ədəbiyyatının bu vəzifəsini öz yaradıcılığının əsas pafosuna çevirdi, bütün poeziyasını vətəni, torpağı müdafiə mövzusuna həsr etdi. And onun poeziyasının aparıcı motivi, daxili bir qüvvəsi idi və təsadüfi deyil ki, bu mövzuda ilk şeri "And" adlanırdı. Bu and yalnız şairin yox, bütün xalqın, vətənin, torpağın səsi idi və bəlkə buna görə də bəzən R.Rzanın şerində vətən, torpaq özü danışırdı; öz qəhrəmanlıq tarixini bəyan edirdi.

1941-ci ilin axırlarında şair bir qrup siyasi işçilərlə hərbi müxbir kimi Krıma gedir, Azərbaycan diviziyasında hərbi müxbir vəzifəsində çalışır, cəbhə qəzeti "Döyüşən Krım"da işləməyə başlayır. O, müxbir kimi tez-tez ön cəbhə xəttinə gedir, müharibəni bilavasitə müşahidə edir, cəbhə həyatının

çətinliklərini mənən yaşayırdı ki, bütün bunlar da onun şeirlərində öz təkrarsız ifadəsini tapırdı. Onun burada yazdığı ilk əsər məşhur "Bəxtiyar" şeri idi. Bu, sadəcə əsgəri, onun qəhrəmanlığını vəsf eden şeir deyildi, əsgərin xalq, vətən, torpaq, insan qarşısında qəhrəmanlığı haqqında əbədiyyət nəğməsi idi. Qəhrəmanlıq ölümsüzdür - bu nəğmənin əsas, daxili motivi idi.

Kaman çalan kimdir o - Bəxtiyar?
Küləkdi ya simdi o - Bəxtiyar?

Şerin poetik ahənginin və ritminin özü bir kaman səsini xatırladır; qeyri-bərabər döyüşdə həlak olan qəhrəmanın obrazı bu həzin, kövrək, bununla bərabər həm də qəhrəmanlıq ahəngilə qavranılırdı. Başqa sözlə, şerin ritmi lirik qəhrəmanı son dərəcə emosional romantik bir obraz səviyyəsinə yüksəldirdi. Biz burada şerin vəzni ilə əlaqədar bir təfərrüata da diqqəti cəlb etmək istərdik. Bu da şerin heca vəzninin demək olar ki, təcrübədə çox az, nadir hallarda müraciət olunan bölgüsü ilə - 10 həcmli bölgü ilə yazılmasıdır. Burada hər misrada vəzn 4-3-3 bölgüsünə müvafiqdir. Həm vəznin bu bölgüsü, həm də təqtinin forması etibarilə R.Rzanın bu şeri novatorluq nümunəsi hesab olunmalıdır.

R.Rza müharibə dövründə böyük bir yaradıcılıq ehtirası ilə yazıb-yaratmışdır. Bu illərdə onun "Vətən" (1942), "Ölməz qəhrəmanlar" (1942), "İntiqam... intiqam" (1943), "Leytenant Bayramın gündəliyi" (1943), "Qəzəb və məhəbbət" (1943), müharibədən azacıq sonra "Vəfa" kitabları (1946) çapdan çıxmışdır.

Faşizmə qəzəb, müharibənin humanizm və yüksək insani dəyərlər mövqeyindən ittiham olunması - R.Rzanın müharibə dövrü lirikasının başlıca ideya xətti və pafosu belə müəyyən edilə bilər. Çox səciyyəvidir ki, şeirlərinin birini R.Rza "İntiqam" adlandırırdı. Şair oxucusunda intiqam hissi aşılayırdı. Şair şeirdə müharibənin tükürpərdici mənzərəsini cızır, onun insanı dəhşətə gətirən obrazını yaradırdı.

R.Rzanın müharibə dövr lirikası həm da kövrək, həzin, dəruni insan hisslərinin təkrarsız ifadəsidir. Müharibə insanların bir-birindən ayrılmasıdır, müharibə həsrət və iztirabdır. Müharibə mövzusuna toxunarkən R.Rza lirikasında insanın bu hisslərinə geniş yer verirdi. Lakin bundan onun lirikası qətiyyən bədbinlik qazanmırdı. Əksinə, bu lirikada insan öz mənəvi gözəlliyi, ucalığı ilə müharibəni inkar edirdi. R.Rzanın bu səpkili şeirləri sırasında "Sevgilim", "Ayrılıq" və s. şeirlərini, xüsusilə da ayrıca olaraq "Vəfa" (1944) əsərini qeyd edə bilərik. "Vəfa" şeri qadınını cəbhədə olan sevdiyi insana müraciəti şəklində yazılmışdır.

Qadın gərgin hisslərlə, nigaran düşüncələrlə çırpınır, yaşayır, cəbhədəki sevgilinin xəyalı ilə danışır. Lakin bütün bunlar nəticə olaraq bir böyük, işıqlı hissin - qadının əsgərə "nəyin bahasına olursa olsun səni gözləyəcəyəm" fikrinin dərin, səmimi, emosional ifadəsinə xidmət edir.

Gözləyirəm səni mən, gözləyirəm hər anda,
Axşamın kölgəsində, üfüqlər qızaranda,
Sarı yarpaq düşəndə, isti külək əsəndə
gözləyirəm səni mən, gəlsən də, gəlməsən də.

Belə yüksək, uca, ülvi insan məhəbbəti yalnız bu şerin yox, ümumən, bu dövr R.Rza lirikasının əsas motivi və məziyyətləridir. R.Rzanın müharibə dövrü yaradıcılığı yalnız poeziya ilə məhdudlaşmır. O bu dövrdə ən müxtəlif ədəbi janrlarda yazıb-yaradırdı. Məsələn, həmin illərdə Rəsul bir çox publisist nəsr əsərlərinin, deyək ki, "Qəzəb və məhəbbət" kimi dərin vətəndaşlıq, qələbəyə inam hissi ilə yazılmış bir nəsr kitabının müəllifidir. Nəhayət, müharibə illəri dramaturgiyasının ən yaxşı əsərlərindən biri olan "Vəfa" dramı da R.Rza qələmindən çıxmışdır. Vaxtilə bu pyes milli dram teatrının səhnəsində (1943) tamaşaya qoyulmuş və tənqiddə yüksək qiymətləndirilmişdir. Müharibənin ilk çağlarında, qələbəyə çağırış, qalibiyyətə inam hissinin tərənnümü ədəbiyyatın, xüsusilə poeziyanın qiymətli bir ideya xüsusiyyəti olsa da, söz sənəti təkcə bununla kifayətlənə bilməzdi, müharibə şəraitində o, insanlararası münasibətləri də, insanların ən dərin ülvi hissləri va problemlərini də əks etdirməli idi. R.Rzanın "Vəfa" dramı bütövlükdə ədəbiyyatın bu daxili yaradıcılıq qüvvəsini və tendensiyasını əks etdirən ilk əsərlərdən biri idi və buna görə də o, müharibə dövrü ədəbiyyatının böyük bədii uğuru hesab edilməyə tamamilə layiq bir əsərdir. Şair dramda müharibə dövrü adamlarının daxili, mənəvi problemlərini Bahadır, Vəfa kimi insanların hiss-həyəcanlarında, onların arasındakı məhəbbət və etibar hissi vasitəsi ilə göstərə bilir və ümumiləşdirirdi.

Vəfa, etibar kimi böyük bəşəri hisslər, ümumiyyətlə, R.Rzanın bu dövr yaradıcılığının əsas mövzusu idi. Təsadüfi deyil ki, pyesində canlı, yeni insan münasibətləri vasitəsi ilə, qəhrəmanların obrazlarında təcəssüm etdirdiyi ideyanı - vəfa ideyasını R.Rza yalnız çoxlu lirik şeirlərində, daha dolğun və bitkin poetik formada isə "Vəfa" şerində ifadə etmişdir ki, bu şeir də şairin bütün müharibə poeziyamızın parlaq əsərlərindən biri hesab oluna bilər.

Müharibə mövzusu XX əsr Azərbaycan ədəbiyyatında müharibədən sonra da davam edən, uzunmüddətli bir mövzu olur: bir vaxt o, ədəbiyyat uçün müasir mövzu idi; sonrakı mərhələlərdə isə dərin, ümumbəşəri bir tarixi, milli-mənəvi yaddaş mövzusuna çevrildi ki, bu cəhətdən də R.Rza

poeziyası önəmlidir. Hətta 70-ci illərdə şair bu mövzuya bir daha qayıtmış, xalqımızın tarixi taleyi ilə əlaqədar bəzi mühüm problemləri poeziyasının dərin daxili qatlarında, obrazlı düşüncələr strukturunda hiss etdirmiş və ən nəhayət, həmin mövzuda böyük bir poema - "Min dörd yüz on səkkiz" poemasını (1976) yaratmışdır.

Müharibədon sonra R.Rzanın yaradıcılığında yeni bir mərhələ başlanır: poeziyasında zamanın böyük, epik mövzularına toxunmaq meyli daha da qüvvətlənir və inkişaf edir. 40-cı illərin axırlarında onun "Seçilmiş əsərlər"i (1949) nəşr olunur. Bu kitab R.Rzanın iyirmi ildən çox bir dovrü əhatə edən yaradıcılığını, bu yaradıcılığın əsas istiqamət və meyllərini əks etdirmək baxımından çox diqqətəlayiq idi. Habelə bu dövrdə "Günəşin sorağında" (1952), "Könül səsləri" (1954) kitabları da çapdan çıxır ki, bu kitablara R.Rzanın əvvəlki illərə aid şeir və poemaları ilə yanaşı yeni şeirləri də daxil idi.

Rəsul Rzanın müharibədən sonra ən böyük yaradıcılıq uğurunu, heç şübhəsiz, onun məşhur "Lenin" poeması ləşkil etdiyini etiraf etmək lazımdır. Bu poema dərhal ümumittifaq miqyasında böyük əks-səda doğurdu, onun haqqında çoxlu məqalələr yazıldı və şairin böyük yaradıcılıq müvəffəqiyyəti olaraq qiymətləndirilirdi. S.Vurğun sovet yazıçılarının II ümumittifaq qurultayında "Sovet poeziyası haqqında" məşhur məruzəsində bu poemanı rəhbər haqqında yazılmış əhəmiyyətli bir əsər adlandırırdı. Poema elə həmin ildə SSRİ-nin Dövlət mükalatına layiq görüldü. Bizcə, R.Rzanın "Lenin" poemasını yalnız öz müəllifinin yaradıcılığında yox, ümumən bu dövr ədəbiyyatımızda, bütün sovet ədəbi prosesindo ən görkəmli poemalardan biri kimi meydana çıxdığını və qarşılandığını, yüksək dəyərləndirildiyini nəzərə almaq lazımdır. Çox səciyyəvidir ki, R.Rzanın da poeması V.V.Mayakovskinin poemasından sonra həmin mövzuda ən parlaq və möhtəşəm əsər sayılırdı; elə ilk nəşrindəcə o, ədabi tənqiddə va ictimai fikirdə belə bir poema kimi qarşılandı və etiraf etməliyik ki, poema indinin özündə də bədii dəyərini və mənasını qoruyub saxlayır. Biz eyni zamanda onu da qeyd etməliyik ki, R.Rza üçün, onun poeziyada novatorluq axtarışları üçün bu poemanın dəyəri danılmazdır.

Həqiqətən də R.Rza poemanın movzusuna, orada təsvir olunan insanın, tarixi şəxsiyyətin həyatına və obrazına çox ciddi yanaşmış, poemanı yüksək yaradıcılıq ehtirası ilə yazmışdır. Burada bir cəhəti - mövzunun şairin yaradıcılığında uzun müddətli tarixini də qeyd etmək lazımdır. Hələ ilk şeirlərinin birini o, Leninə, onun vəfatına həsr etmişdi ki, həmin şeir "Qanadlar", "Çinar" kitablarına da daxildir.

Bu poemadan sonra da R.Rza poeziyada axtarışlarını uğurla davam etdirdi, Onun "Günəşin sorağında" (1952), "Günün səsləri" (1955-1956), rus dilində isə "Seçilmiş əsərləri" (1959) nəşr oldu. Hiss olunurdu ki, daimi yenilik duyğusu, həyata və poeziyaya yeni baxış R.Rza sənətinin təməl prinsipidir.

Yaradıcılığının əvvəlki mərhələlərində olduğu kimi 60-cı illər mərhələsində də R.Rza poeziyasının novatorluğa olan daxili meyli yeni keyfiyyətdə daha da inkişaf edib zənginləşmiş bir səviyyədə meydana çıxırdı. Dünyanı lirik qavramanın genişliyi və miqyaslılığı, şairin lirik "mən"inin poeziyada əsas, aparıcı qəhrəman səviyyəsində çıxış etməsi, poetik mətndə şairin fərdi, şəxsi "mən"i ilə xarici aləmin vəhdət təşkil etməsi bu poeziyada novatorluğun əsas cəhəti idi. Şairlər şeirlərində hər şeydən - onları əhatə edən dünyadan öz mənəvi-fikri aləmlərinin üzvü bir hadisəsi və predmeti kimi söz açırdılar. Bütün bunlar poeziyada fikri, fəlsəfi baxışı əhəmiyyətli dərəcədə gücləndirirdi.

Əsrin ortalarından sonrakı mərhələdə poeziyanın bu meylini öz yaradıcılığında əks etdirən şairlər barədə düşünəndə isə biz, heç şübhəsiz, ilk növbədə R.Rzanın adını qeyd etməliyik. Məhz R.Rza birinci olaraq cəmiyyətin həyatında, düşüncəsində, əhvali-ruhiyyəsində başlanan yeniləşməni əks etdirməyə başladı. Şair bir çox poetik nümunələrində, məsələn, "Yaz gəlir", "Bir anlıq səadət", "Həyat", "Qədim əlyazması", "Divar daşı", "Novruzgülü", "Nərgiz" və s. bu kimi şeirlərində adi, sadə, ilk baxışda mühüm olmayan həyat təzahürlərindən, predmet və hadisələrdən yazırdı, lakin o, bu kiçik, adi təfərrüat vasitəsi ilə yeni bir fikir, əhvali-ruhiyyə ifadə edirdi. Məsələn, "Yaz gəlir" şerini götürək. Şair təsvir edirdi ki, pəncərəni açdım; gördüm ki, bayırda günəş gülür. Lirik qəhrəman qışın nə tez sovuşub getdiyini düşünür. İndi artıq yazdır və otağa yazın ilıq, sərin havası dolur.

R.Rza bu şeri 1954-cü ildə yazmışdır. Çoxlarına o vaxt bu yazın tamam başqa bir yaz olduğu məlum deyildi. R.Rzanın şerində isə o, insanın və cəmiyyətin həyatında yeni mərhələnin başlanğıcı idi. İlk çağlarda o, həqiqət olsa da, ancaq bu yaz daha çox əfsanəyə bənzəyirdi; bir xəyal idi, ancaq həqiqətdən nişan, soraq verirdi. R.Rza bununla da Stalinin ölümündən sonra cəmiyyətdə bir ilıq yaz havasının duyulduğuna işarə edirdi.

"Novruzgülü", "Nərgiz" şeirləri də çox mənalı idi. Hələ qışın ayağı tamam çəkilib getməyib, ancaq novruzgülü açılıbdır; hər yerə səpələnibdir. Bəlkə sabah birdən, gözlənilmədən şaxta oldu. Olsun, nə qəm - deyə şair düşünür və oxucusunu da düşündürür. Novruzgülü obrazı şeirdə yalnız bu səviyyədə qalmırdı. Şair obraza daha dərindən yanaşır; onu böyük fikri-hissi ümumiləşdirmə səviyyəsinə qaldırırdı:

Şaxta məhv etsə də onu
zalım bir hökmdar yanına gəlmiş,
xoş xəbərli elçi kimi
bu ölüm məhzun etməsə də heç kimi
novruzgülü
nə gileylənər, nə küsər

yetər ki, o
çöllərə, çəmənlərə
bahardan verdi xəbər.
Novruzgülü
nə gileylənər, nə küsər.

"Nərgiz" şerində təsvir olunan lövhə də öz mənası, fəlsəfi baxışı etibarilə yeni və müasir təsir bağışlayırdı. Şair Göyçayda qonaq evində olarkən bir səhər görür ki, həyətin asfaltı bir neçə yerdən qabar-qabar qalxıbdır. Əvvəlcə o, bu fakta əhəmiyyət vermir, düşünür ki, bunda nə var ki? Asfaltdır, bir neçə yerdən qabar-qabar qalxa da bilər. Ancaq bir neçə gündən sonra bu qabar-qabar olmuş asfaltın altından bir nərgiz topası qalxır. O, şairi heyrətləndirir. Şair bu faktda - zərif, kövrək nərgiz topasının asfaltı yarıb qalxması faktında həyatın böyük, canlı qüvvəsini görür. Bax, bu fakt şeirdə dərin bir fəlsəfi fikrin ifadəsi üçün əsas olur ki, biz bunu da R.Rzanın poetikasının yeni bir xüsusiyyəti kimi etiraf etməliyik.

R.Rza poeziyasının yeni meyllərini onun bu dövrdə nəşr olunan kitabları - "Pəncərəmə düşən işıq" (1962), "Duyğular... düşüncələr" (1964), "Dözüm" (1965) kitabları ən xarakter tərəfləri və cizgiləri ilə əks etdirirdi. Çox maraqlıdır ki, lirikasının bu ümumi xüsusiyyətləri onun kitablarının adlarında da ifadə olunur. Məsələn, rus dilində nəşr olunan kitablarından biri "Vesna vo mne" (1962) adlanırdı. Moskvada nəşr olunan başqa bir kitabı isə "Mən insanam" adını daşıyırdı ki, bunlar R.Rza poeziyasında zahiri əlamətlər deyildi, bütövlükdə onun poeziyasının daxili, mənəvi pafosunu, fəlsəfi genişliyini əks edirdi.

Deməliyəm ki, bu cəhətdən R.Rza poeziyası yalnız milli ədəbi hadisə deyil, həm də ümumittifaq ədəbi məkanının, müasir dünya şerinin hadisəsi idi. Sonrakı on illikdə çıxan kitablarında, məsələn, "Vaxt var ikən" (1970), "Hava haqqında" (1972), "Üzü küləyə" (1978) kilablarında da R.Rza nəinki 60-cı illər poeziyasının meyllərini davam etdirir, həm də bunları əhəmiyyətli miqrasiyada inkşaf etdirir və dərinləşdirirdi ki, bu da yeni mərhələdə durğunluğun, özünütəkrarın R.Rza poeziyasına büsbütün yad olduğunu göstərir. Axtarış və yenilik ilk növbədə isə təzə fikir, hiss, dünyaya baxışın yeniliyi bu poeziyada şeirdən-şerə dərinləşirdi. Lakin bu axtarış və yenilik R.Rza poeziyasında onun yaradıcılığının əvvəlki mərhələlərini, poetik özəlliklərinin inkarı kimi də başa düşülməməlidir. Əksinə, öz əsas poetik konsepsiyası və prinsipləri etibarilə R.Rza 30-50-cı illər yaradıcılığının ən aparıcı, spesifik xüsusiyyətlərini də qoruyub saxlamış olurdu. Məsələn, belə bir fakta bu cəhətdən diqqəti cəlb etmək olardı. 1970-ci ildə çapdan çıxmış "Vaxt var ikən" kitabını şair 60-70-ci illərdə yazdığı şeirlərdən tərtib etmişdi. Ancaq

kitabın müəyyən bölmələrini o, əvvəlki illərdə - 30-40-cı illərdə yazdığı şeirlərlə başlayırdı. Belə ki, kitabın "Mən işığam, qaranlığın qənimi" adlanan ilk bölümündəki birinci şeir 1935-ci ildə qələmə alınmış "Çinar" idi.

Kitabın "Yazıq sənə Rəsul Rza" bölməsinə şairin 1933-1934-cü illərə aid "İlk səfər" və "Adsız şeir" lirik mətnləri daxildir və belə tərtib kitabda zahiri forma daşınırdı. Bu, daha çox R.Rza lirikasındakı yeniliyin, lirizmin hər şeydən əvvəl həm də onun öz yaradıcılığında mənbə və başlanğıcı olduğunu göstərməyə xidmət edirdi. R.Rza lirik "Mən"in milli hissini və yaddaşını, fikri-emosional tərzini hifz etdiyi kimi, həm də bu keyfiyyətləri dərinləşdirir və bunun nəticəsində yenilik hissi daha da zənginləşirdi.

Beləliklə, R.Rza poeziyada dövrün şəxsiyyətə pərəstiş şeirlərində şərtlənən xüsusiyyətlərindən imtina etdiyi kimi, eyni zamanda yaradıcılığının ən sağlam meyllərini də qoruyub saxlayır, yeni bir məzmunda şeirlərində ifadə edirdi. Milli köklə, milli poetik dəyərlərlə mənəvi bağlılıq da bu anlayışın çox mühüm bir tərəfi idi və buna görə R.Rza 60-70-ci illərdə "Çinar" şerini də öz yaradıcılıq, sənət pafosunu ifadə edən şeirlər sırasına daxil edirdi. 1990-cı ildə nəşr olmuş kitabının üstündəki "Çinar ömrü" sözləri R.Rzanın bütün poeziyasının obrazı kimi oxucu fikrinə daxil olurdu.

Bununla belə onu da görməmək olmaz ki, 60-cı illərdən etibarən R.Rza lirikasında intellektual başlanğıc qüvvətlənir, narahat, qlobal miqyaslı fikir bu poeziyanın əsas novatorluq keyfiyyətinə çevrilir. R.Rza şerindəki yenilik, novatorluq yalnız vəzn, qafiyə, poetika ünsürlərində yox, şairin dünyaya poetik-fəlsəfi baxışında, insanı fəlsəfi anlamda, fəlsəfi-mənəvi dərkdə əsas aparıcı bir keyfiyyətdə meydana çıxır. Şairin bütün poeziyasında onun poetik "mən"i - əsrin böyük hərflə yazılan insanının obrazı səviyyəsinə yüksəlir. Şair şeirdən-şerə bu obrazı daha da dərinləşdirir, onun parlaq və möhtəşəm təcəssümü üçün inadla yeni boyalar, yeni tarixi-ümumbəşəri təfərrüatlar axtarır və ən əsası odur ki, bunları tapır. Pikasso deyərmiş ki, mən axtarıram, mən kəşf edirəm. R.Rzanın da poeziyası yalnız axtarış poeziyası deyildi, kəşf poeziyası idi, daha doğrusu, bu - poeziyada əsl insanın obrazını kəşf etmək səyi və pafosu demək idi.

Məlumdur ki, 60-cı illərdə bir çox şeirlərinə görə, daha çox isə məşhur "Rənglər" silsiləsinə görə, R.Rza tənqiddə ittiham edilirdi. R.Rza isə bir çox şeirləri ilə, daha əsaslı şəkildə isə "İnsan şəkli" şeri ilə bu tənqidə cavab vermişdi. Əlbəttə, biz bu şerin R.Rza lirikasında əhəmiyyəti və yerini yalnız bu amil ilə izah etmirik. Bu şerin əhəmiyyəti, dəyəri daha çox R.Rza lirikasının yeni mərhələsinin mahiyyət və meyllərini, onun insan haqqında fəlsəfi-poetik konsepsiyasını ifadə etməsindədir.

Mənə bir sərgi salonu verin!
Nə geniş olsun dünya qədər,

nə elə hündür olsun ki,
ətəyində qala uzun kölgələr.
Mənə bir sərgi salonu verin!
Orda bir insan şəkli asacağam,
adi bir insan.
Nə elə kiçik ki, məhəl qoyan olmaya
Ne elə böyük ki, baxanda qorxasan.

Görundüyu kimi, şairin poeziyada müraciət etdiyi insan - özünün də dediyi kimi, adi insandır. Lakin bu adi insan obrazında şair böyük, həqiqi insanı göstərmiş olurdu. Səciyyəvidir ki, şairin tesvir etdiyi bu adi insan bütün zamanların - keçmişin, indinin və gələcəyin insanıdır və baxmayaraq ki, bu insanın əzəməti, parlaq və yuksək obrazı bütün dövrlərn insan iztirablarının təcəssümüdür, o, qətiyyən pessimist əhvali-ruhiyyə ifadə etmirdi. Bu insan qlobal, fəlsəfi nikbinliyi özündə daşıyırdı. Məhz bu keyfiyyətinə görə bu insan ideal insandır, yaxud şairin insan idealıdır. Buna görə də o, istəyir ki, həmin insan bütün zamanlardan görünsün. Sərgı salonunu da şair bu məqsədlə istəyir. Bu sərgi salonunda şairin, şəklini asmaq istədiyi insan bütün zamanlardan görünməlidir:

Bir insan şəkli asacağam
Bir yanında Nəsimi -
dabanından soyulandan sonra,
bir yanında
məşəl kimi yanmış Azəri qızı -
tunc heykəli qoyulandan sonra.
Bir yanında Cordano Brunonun külü,
Bir yanında Məmmədhəsən kişi -
ömrü, günü yollara tökülü...

Adları sadalananlar şairin rəsm etdiyi insan şəklinin ayrı-ayrı təfərrüatları olsa da, bütövlükdə bu təfərrüatlar insanın keçdiyi faciə yollarını əks etdirir. R.Rza poeziyasındakı İnsan şəkli - insanlığın bütün zamanlarda, bütün qitələrdə müsibətlərə məruz qalan, bu faciələrdən keçən bütün zamanların insanıdır. Bununla da R.Rza poeziyasının poetik-fəlsəfi insan konsepsiyasını, poeziyasındakı insanın mücərrəd, sxolastik insan olmadığını bəyan etmiş olurdu.

Onu da mütləq qeyd etməliyik ki, "İnsan şəkli" şeri də R.Rzanın proqram xarakterli şeridir. Belə ki, şeirdə onun bütün 60-70-ci illər poeziyasının ideya, fəlsəfi axtarışları, insan taleyinə baxışları ümumiləşdirilmişdir və buna görə də həmin şeri onun son dövr yaradıcılığında qətiyyən təsadüfi saymaq

olmaz. R.Rzanın bir şair kimi böyüklüyü ondadır ki, bu konsepsiyanı ən müxtəlif əsərlərində yüksək poetik məharətlə ifadə edə bilmişdir. Belə əsərlər sırasında isə ilk növbədə "Qızıl gül olmayaydı", "Bir gün də insan ömrüdür", "Ömür keçdi, gün keçdi", "Yer oğlu", "Xalq həkimi", "Son gecə", "Min dörd yüz on səkkiz", "Füzuli" və s. poemalarını qeyd etməliyik. Poema ümumiyyətlə R.Rza poeziyasının əsas janrlarındandır. Onun 30-40-cı illərə aid, dünyanın siyasi hadisələrinə həsr olunmuş bir sıra poemaları məlumdur. Şübhəsiz ki, 60-cı illərə qədər şairin bu janrda yaratdığı ən mükəmməl əsəri "Lenin" poemasıdır. Lakin R.Rzanın 60-cı illərdə , sonrakı onillikdə yazdığı poemaları şairin yeni yaradıcılıq xüsusiyyətləri, yeni meylləri baxımından da onun bütövlükdə poeziyasının əsas axarındadır. O, bu tipli əsərlərində böyük insan surətləri və öz əsrinin çətinliklərini, iztirablarını yaşamış, ancaq öz insani ləyaqətini, öz insan şəklini itirməmiş qəhrəmanlara müraciət etmişdir. Bu mənada biz, ilk növbədə "Qızıl gül olmayaydı" poemasını qeyd etməliyik. Poema yalnız milli ədəbiyyatımızda yox, o vaxtkı bütün sovet adəbiyyatında repressiya mövzusunda yazılan ilk əsərlərdən biri idi. Poemada R.Rza şair dostu Mikayıl Müşfiqin həbs olunması faktı vasitəsilə əsrin dəhşətli 37-ci il hadisələrini, repressiyanın antihumanist mahiyyəti açıb göstərir, repressiyanı insana qarşı çevrilmiş siyasi bir akt kimi mənalandırırdı.

R.Rzanın yeni poemalarının ümumi bir mövzu xüsusiyyətini qeyd elməliyik. Bu, poema jannrının bu mərhələdə şairin yaradıcılığına əsas etibarilə yaddaş mövzusuna həsr olunmuş bir janr olaraq meydana çıxmasıdır. O dəhşətli və faciəvi hadisədən illər keçmişdir. Günlərin birində şairin qapısı döyülür, şair qapını açır və qarşısında bir qadın - üzünə illərin iztirab və əzabları çökmüş qadın dayanır. Bu, Müşfiqin qadını Dilbərdir və bu görüşlə yaddaşda bütöv bir ömür, yaradıcılıq ehtirası və iztirabları ilə dolu ömrün illəri canlanır.

Poemada o məşum illərdə itirilmiş dost və insan haqqında xatirələr, insan itkisindən doğan kədər və iztirab süjetin əsas məğzini və motivini təşkil edirdi ki, bu xüsusiyyətinə görə də daha çox lirik poema təsiri bağışlayırdı. Lakin buradakı lirika öz bəşəri-tarixi mündəricəsinə görə miqyaslı, əhatəli lirika idi Poemada Müşfiqin obrazı və taleyi ilə yanaşı şairin, yəni müəllifin lirik "mən"i də süjetdə əsas yer tuturdu; biz bütöv bir dövrün faciələri və ədalətsizlikləri haqqında poemadakı lirik qəhrəmanın sarsıntı və əzablarını da duyur, hiss edir və bundan həyəcanlanırıq.

R.Rza lirikasının əsas pafosu da, poetik fəlsəfəsi inamda idi, insana belə müraciətin gücündə və işığında idi. Belə ideya xüsusiyyətini şairin bitirə bilmədiyi "Füzuli", yaxud Nəsiminin ölüm qabağı gecəsinin təsvirindən ibarət "Son gecə" poemalarında da görə bilərik. Bu əsərlərdə eşq, bu eşqin iztirabı, insanın öz əqidəsi uğrunda ölümə getməsi kimi böyük, ümumbəşəri mövzular qoyulub həll edilir, fəlsəfi cəhətdən mənalandırılırdı ki, bunlar da bu əsərlərin

yüksək bədiiliyini təmin edən əsas cəhətdir. Qəm və mərdlik, iztirab və dözüm - R.Rzanın bülövlükdə poeziyasında insan obrazının əsas daxili, ənənəvi keyfiyyəti olaraq meydana çıxırdı.

Fərdiliklə bərabər R.Rza "mən"ində zamanın səsi, problemləri və sualları, dünyanın həyəcanları cəmləşmişdir və məhz bu keyfiyyətinə görə bu "mən"in içində bütün dünya öz əks-sədasını tapırdı. Hətta şair sükut və tənhalıq içində də dünyadan ayrı deyildi; dünya bütün həyəcan va ümidləri ilə şairin fikir və həyəcanlar aləmindədir. R.Rzanın bu illərə aid bir şeri bu baxımından çox xarakterikdir. Şeir "Dünyanın dərdi" adlanır:

Döşəmədən tavana qədər
sükut var otağımda olsun ki,
belə sükut içində
bir gün
bizimlə vidalaşmadan
gedəcək, dostumuz ürək.

Bəzən isə belə tənha məqamlarda şairin içində müxtəlif hisslərin mübarizəsi gedir, şübhə, kədər, ümid bir yerdə bu iç aləmdə üz-üzə gəlir və şairin "mən"i onların arasında dramatik söhbətin mərkəzinə çevrilir. Ömrün belə təkrarsız anından şairin "Dördümüzün söhbəti" kimi klassik bir şeri yaranır.

Ümid yağışın, küləyin kəsəcəyini deyir; yenə da günəş doğacaq, dünya işıqlı və gözəl olacaq. Ancaq bu dəm Şübhə baş qaldırır və soruşur: bu, nə vaxt olacaq. Əksinə yağış qara, külək çovğuna, tufana dönə bilər, gecə nəhayətsiz uzana bilər. Onun səsini kədərli monoloq əvəz edir; kədər bu ağır və həyəcanlı vəziyyətdən, bu küləkli gecədən heç bir çıxış yolu görmür. O, şübhə kimi demir ki, külək tufana çevrilə bilər; o, psixoloji konflikti daha da kəskinləşdirir.

Demək olar ki, R.Rzadan yazan bütün tənqidçilər onun poeziyasında fikri başlanğıcın güclü və aparıcı olmasını göstərmişlər. Tənqidçi M.Arif hələ 60-cı illərdə yazırdı: "Əgər bizdən Rəsul Rzanın son kitabındakı (söhbət şairin "Vesna vo mne" kitabından gedir - Ş.S.) şeirlərin məziyyəti nədir? - deyə sual etsələr, biz tərəddüd etmədən "tikir, fikir və yenə də fikirdir" - deyə cavab verə bilərik. Poetik rənglər, səslər, sözlər, ahənglər, təsirli bədii xəyallar və məcazlar, təzə bənzətmələr, tutarlı aforizmlər, hakimanə kəlamlar vasitəsilə ifadə olunan fikir", O da çox əlamətdardır ki, fikir poeziyası məhz R.Rzanın 60-cı illər poeziyası, poeziyadakı axtarışları sayəsində şerimizdə aparıcı təmayüllərdən birinə çevrildi.

R.Rzanın 60-cı illər fəlsəfi lirikası bir silsilə təsir bağışlayırdı; bu şeirlər şairin kitablarında bir-biri ilə bağlı, əlaqədar olduğu kimi, həm də bir vəhdət

təşkil edirdi. Belə silsilələrə R.Rzanın bu dövr poeziyasında bir çox nümunələri göstərmək olar ki, bunların da arasında, heç şübhəsiz, şairin məşhur "Rənglər" silsiləsinin ayrıca yeri vardır. Silsilə ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında (№.11) dərc olmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi və bu həcmdə şairin "Duyğular... düşüncələr" kitabına (S964) daxil edilmişdir. Silsilə dərhal ədəbi tənqiddə kəskin tənqidlə qarşılandı. Lakin şair bu tənqidlərdən geri çəkilmədi; bir daha silsiləyə qayıtdı; onun "Qırmızının ümid çaları", "Firuzəyi", "Qırmızının inam çaları", "Mavinin təsəlli çaları", "Sürməyi", "Saman sarısı" poetik mətnlərini yazdı və bu yeni şeirlər "Dözüm" kitabına (1965) daxil edildi. Beləliklə, bütövlükdə silsilə 33 şeirdən ibarətdir. "Rənglər" həm forması, janrı, poetik strukturu etibarilə, həm də lirik mündəricəsi cəhətdən yeni, son dərəcə novator silsilə idi. R.Rza bu silsilədə də yeni vasitə ilə - dünyanı, insanı dərk etmək isləyir və bu dərki poeziyada rəng vasitəsilə mənalandırırdı. Şair adi rəngdə yalnız rəng görmür, yalnız rəng axtarmırdı, o, rəngdə insan həyatının, insan aləminin çalarlarını arayır və onu rənglə ifadə edirdi. Şairin silsilədə axtarıb tapdığı, kəşfinə nail ola bildiyi poetik metod belə idi. Silsilə "Uvertüra" adlı xüsusi və müstəqil bir şeirlə başlanırdı:

Ağ, qara, sarı, yaşıl, qırmızı;
Hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
Biri dərdimizi, biri arzumuzu.
Hərəsində bir məna arayıb,
bir səbəb görən var,
Kim bilir, kim sınamış.

Başqa sözlə, şair rənglərin insan hissləri, insan əhvali-ruhiyyəsi, insanın yaddaşı ilə bağlı olduğunu demək istəyir və yalnız fırça vasitəsi ilə yox, söz vasitəsi ilə rəngin insanda oyatdığı təəssüratı, fikri, hissi ifadə etmək olar və mümkündür - həqiqətini poetik metodunu bəyan etmiş olurdu. Silsilədə dünyanı poetik görüm rənglər vasitəsi ilə öz həllini tapmışdır:

Rənglər xatirələr oyadır,
Duyğular oyadır
Gördüyümüzdən artıq görmək istəməsək
Hər rəng adicə bir boyadır.

Bütövlükdə bu parçada, xüsusilə son iki misrada silsilənin poetic konsepsiyası ifadə olunmuşdur: hər rəngdə şair göründüyündən daha artıq, daha dərin bir keyfiyyət görmək istəmiş və silsilə şairin bu səyindən, hər rəngə

daha dərin nüfuzundan yaranmışdır. Əks təqdirdə həqiqətən hər rəng adi bir boyadır. Rəng şairin qəlbində təzə duyğular oyadır, yaddaşı canlandırır və beləliklə, hər rəng sadəcə adi boya deyil; onların sevinc, kədər, ümid, inam, təsəlli, məhəbbət, nifrət çalarları vardır. Məhz rənglərə belə baxış və yanaşma nəticəsində, məsələn, həkimin dilindən "sizdə xərçəng yoxdur" sözlərini eşidən insanın üzündə yaranan işıq mətndə ağ rəngin doğurduğu assosiasiyadır, yaxud gümüşü rəng vasitəsi ilə şairin təsəvvüründə dumanlarda oyanan səhər və Şeyx Şamilin qəbzəsi yazılı xəncəri canlanır. Deməli, şairin fikrində rənglərin oyatdığı assosiasiyalar, obrazlar qətiyyən mücərrəd, dumanlı deyildir, bunlar dünyanın real cizgiləridir, obrazlarıdır; bunların mənbəyi insan yaddaşıdır, musiqidir, rəsm sənətidir, insanın rənglərlə bağlı yaddaşı və inamlarıdır; ümid həsrət və idealıdır. Silsilədə rənglərin poetik dərki və duyumu ilə təcəssüm etdirilən dünya - insan dünyasıdır; insanın məhəbbət və inam, mübarizə və özünüdərk dünyasıdır.

Biz bir cəhəti də mütləq qeyd etməliyik. Rəng ümumiyyətlə R.Rza poetikasında təsadüf olunan ünsürlərdəndir. Onun poeziyasında, məsələn, "Göy at", "Ağ fil", "Ağ yasəmən" və s. obrazlara təsadüf etmək olar. Yaxud belə bir beytini xatırlamaq da yerinə düşər:

Qara matəm rəngidir, - deyirlər, - yox, yalandır,
Qaldır kirpiklərini gözlərinlə inandır.

Silsilədə isa bu rənglə yaddaşda canlanan obrazlar daha zəngin və əhatəlidir. Burada, məsələn, bu rənglə:

Həsrətli gözlər,
Pərişan saçlar
Titrək dodaqlar -

obrazları ilə yanaşı dünyanın sərt reallıqlarını əks etdirən obrazlar da vardır:

Dili ali məclislərdən qovulan
qolları buxovlu olan
qəbilələr, xalqlar.

"Rənglər" silsiləsinin əsas xüsusiyyəti - fikir lirikası olmasıdır. Lakin bu fikir emosional-hissi fikirdir; şairin bütün duyğıı və həyəcanları ilə ifadə olunan fikirdir. Məsələn, sarı rəngə həsr olunan şeri götürək. Silsilədə bu rənglə ; bağlı iki şeir vardır. Bunlar "San" və "Saman sarısı" şeirləridir. İkinci şerin adı N.Hikmətin bir şerinin adıdır və bu rəngə bağlı şerin mətnində N.Hikmət obrazı, onun ağrılı məhəbbəti və həsrəti əsas motivdir.

Beləliklə, "Rənglər" silsiləsində şair ona proloq kimi yazdığı hissədə bəyan etdiyi əsas yaradıcılıq konsepsiyasını bütün dərinliyi və önəmi ilə gerçəkləşdirirdi. Silsiləni oxuyarkən hiss edirsən ki, həqiqətən də hər rəng adi boya deyildir; rənglərdə hissi və fikri, məhəbbəti və qəzəbi, iztirabı və sevinci, ümidi və inamı ifadə etmək imkanı vardır; rənglə tarixi və sənət aləmini ifadə və dərk etmək mümkündür.

"Rənglər"də R.Rzanın yaradıcılıq prinsiplərinin, silsilənin poetikasını izah edərək rus şairi N.Selvinski yazmışdır: "Bu və ya başqa rəngə şairin yanaşmasının bütün subyektivizmi ilə birlikdə hər bir şeir tamamilə fərqli səslənir, heç bir şeir digərinə qətiyyən bənzəmir. Şeirləri birləşdirən rəsmden fəlsəfəyə doğru hərəkətdir".

Bununla belə qeyd etməliyik ki, silsilə çap olunduğu ilk vaxtlarda onun bu məziyyətlərini, prinsipial poetik yeniliyini tənqid görə və qiymətləndirə bilmədi. Ancaq o da faktdır ki, silsilə haqqında tənqiddəki ifrat meyl uzun sürmədi; silsilə tərcümə olıındu və o, respublika hüdudlarından kənarda dərhal yüksək qiymətini aldı. Məsələn, belə 1964-cü ildə "Komsomolskaya pravda" qəzeti silsilədən bəzi nümunələrin tərcüməsini oxuculara təqdim edərək yazırdı: "Şərqin qədim poetik ənənəsi – dünyəvi nə varsa, hər şeydə dərin məna görmək, insanın əhatəsində yaşadığı sadə dünyəvi əşyaların gözəlliyini tərənnüm etmək ənənəsi bu şeirlərin əsasını təşkil edir. Misradan-misraya keçdikcə şairin assosiasiya dairəsi də getdikcə mürəkkəbləşir. Bu mürakkəblik Rəsul Rzanın təsvir etdiyi dünyanın çoxcəhətliliyindən irəli gəlir və təbiətin çələngi kimi, bütün silsilənin leytmotivi kimi bu şeirlərdə insanın obrazı - "yuxulu bir körpənin təbəssümü" ("Ağ işıq"). "bizə ilkin əlifba öyrədən müəllimin zaman arxasında qalmış surəti" ("Gümüş"), "Şikəst bir övlad anasının bənizi" ("San"), "poladlaşan dəmir" ("Al-qırmızı") obrazı yüksəlir". "Rənglər" N.Hikmət, İ.Taufer, E.Mejelaytis və b. şairlərin də yüksək qiymətini qazandı. Tənqidçi Y.Lukin yazırdı: "Azərbaycan sənətkarının ən səciyyəvi, özünəməxsus əsərlərindən biri "Rənglər" silsiləsidir. Burada həm dərin fəlsəfi düşüncələr, həm də şeir forması sayəsində novator şair axtarışları öz əksini tapmışdır". Bütün bu fikir və mülahizələr bir həqiqəti - şairin "Rənglər" silsiləsində də poeziyada öz novator axtarışlarının uğurla davam və inkişaf etdirdiyini, axtarışlarında kəşfə gəlib çıxdığını təsdiq edirdi.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, R.Rza poeziyası - bütövlükdə, zamanın, müasirliyin fəlsəfi-poetik dərkidir; bu, müasirliyin hiss və həyəcanları, ümid və düşüncələri ilə, iztirab və təfəkkürü ilə aşılanmış bir sənətdir; bir poeziya simfoniyasıdır. O, öz dövrünün, öz əsrinin - XX əsrin qayğı və problemləri ilə aşılanmış poeziyadır, əsrin insanını narahat edən, düşündürən, kədərləndirən və mübarizəyə qaldıran poeziyadır; bu, əsrin fəlsəfi-poetik dərki olan poeziyadır və buna görə R.Rzanın poeziyadakı novatorluğu əsrin sənət novatorluğudur. Bu şair şəxsiyyətini Rəsul bütün yaradıcılığında,

nəsrində, dramaturgiyasında, sənət görüşlərində qoruyub saxlamışdır. Buna görə R.Rzanın ədəbi-bədii irsi milli ədəbiyyatımızın XX əsrdəki inkişafının böyük hadisəsi olmaqla bərabər, həm də onuıı çox mühüm bir mərhələsidir; ela bir mərhələsi ki, ədəbiyyatımızın:. poeziyamızın yeni era va əsrdəki davamıdır, ənənəsidir.

R.Rza gələcəklə yaşayırdı; onun şair "mən"i zamanın gələcəyindən ayrı deyildi. O, poeziyasında gələcəyə pəncərə açır, bu pəncərədən insan dünyasının gələcəyini seyr edir və belə deyirdi:

Pəncərəmi açdım sabaha,
gördüm insanlar keçib gedir;
illər üstündən,
aylar üstündən
sərhəd dirsklərindən körpülər salınıb,
dənizlər üstündən,
çaylar üstündən...
Çağırdım: - Ey qardaşlar!
- Qardaş, - deyə səsləndi
min bir ağız,
danışdıq, danışdıq,
danışdıq
tərcüməsiz,
dilmancsız.
İnan bu sabaha,
Oğlum, qızım,
Bacım, qardaşım - İnsan!
Yaşamaq olarmı
İnanmasan!..

***Şamil Salmanov***

# Şeirlər

## ÇİNAR

Gecə keçmiş, ulduzlar ağ, göy qara!
Söykənmişəm qocaman bir çinara.
Bir yanımda ömür kimi axır su,
Qaçmış bu gün təbiətin yuxusu.
Budaqlarda sərin yelin xoş səsi.
Yarpaqların həzin-həzin nəğməsi.
Ürəyim bir qanadlanmış quş kimi
Hey çırpınır, təsəllisiz, əsəbi.
Hündür çinar budaq atmış, qol atmış,
Öz ömründə çox əsrlər qocaltmış.
Görkəmində qarlı dağlar vüqarı.
Başı bütun ağaclardan yuxarı.
Tufan qopar, yağış yağar, qar tökər;
od qamçılı ildırımlar göy sökər.
Bəzən çayda daşlar daşı qovalar.
Seldə gedər göy çəmənlər ovalar.
Yarğan yarar siməsini dağların.
Sular oyav binəsini dağların.
Karvan çəkər göydə qara buludlar.
Çovğun gələr, şaxta kəsər, buz donar.
Xan çinarım əyməz məğrur başını.
Kimsə bilməz xan çinarın yaşını.
Gecə qara, durdum düşündüm bir az,
Dedim nədən ulu çinar yıxılmaz?
Birdən çinar dilə gəldi dedi: - Bax!.
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam.
Mən kökümlə bu torpağa bağlıyam.

*Yalta, 1935*

**MƏN TORPAĞAM**

Mən torpağam, məni atəş yandırmaz;
tərkibimdə kömürüm var,
külüm var.
Mən baharam çəmən-çəmən
Çiçəyim var, gülüm var.
Mən küləyəm, əsməsəm,
kim bilər ki, mən varam.
Mən buludam, səhraları susuz görüb,
ağlaram.
Mən ürəyəm, döyünməsəm
ölərəm.
Mən insanam,
sadə insan əlinin
yaratdığı nemətlərlə öyünməsəm,
ölərəm.
Mən işığam - qaranlığın qənimi.
Mən insanam,
daşıyıraın qəlbimda
dünyaların sevincini, qəmini.
Maraq dolu gözəm mən,
baxmaya bilmərəm.
Qarlı dağdan süzülən çayam mən,
axmaya bilmərəm.
Mən insanam,
vətənim var, elim var.
Ən böyük həqiqəti,
azadlığı, məhəbbəti, nifrəti-
söyləməyə qadir olan
dilim var.
Mən bir qranitəm ki,
hər parçamda duyulur
bərkliyim,
döyüşdə möhkəmliyim,
ülfətdə kövrəkliyim.

Mən insanam, ülfətsiz -
Ölərəm.
Məhəbbətsiz, nifrətsiz -
Ölərəm.
Mən bulağam,
tapşırıqla axmıram.
Mən həyatam,
Həmişə yoldayam;
nəfəsdəyəm, arzudayam,
baxışdayam, ürəkdəyəm, qoldayam.
Mən torpağam, nemətimi, varımı
zəhmət sevən insanlarla bölərəm.
Mən ürəyəm, doyünməsəm
ölərəm.

*1963*

**TORPAQ**

Torpaq bomboz;
elə bil ki, üzünə
dəmrov düşüb.
Bir yanda çadar-çadar,
bir yanda doxsan yaşlı qoca üzü kimi
bürüşüb.
Bir yanda anasını görmüş uşaq kimi
sevincli, çiçəkli,
bir yanda susuz.
Bir yanda sudan bezar,
Bir yanda qumu qaynar.
Bir yanda örtüyü qar.
Torpaq həm çörək verir bizə,
Həm su.
Həm sən mənzilimizə yer verir,
Nəsil-nəsil qəlbimizdə yaşayır
onu itirmək qorxusu.

*1965*

**SORUŞ**

Od nə çəkdi,
        küldən soruş!
Baş nə çəkdi,
        dildən soruş!
İşə susuz barmaqların
        kədərini insan bilir.
Nəğmələrin həsrətini
        bir qırılmış teldən soruş!
Ömrün çətin yollarında
        daşa ləpir salsa ayaq,
gün nə çəkdi,
        ildən soruş!
Zülmətliyin möhnətini
        kor söyləsin!
Bəm xalların fəryadını
        zildən soruş!

Mən kölgəsiz bağ görmədim,
El dərdi tək dağ görmədim.
Gözlərimi yumub açdım,
Neçə dostu sağ görmədim.

Nələr çəkdi çaylaq daşı,
        seldən soruş!
Yollar uzun, mənzil uzaq.
Sərt daşlara dözmür ayaq.
Dözsün gərək.
Dözsün gərək.
Kim zirvəyə qalxar, deyin,
yollar boyu hər pilləni,
birgünləri, yüzilləri
qəlbimizlə,
beynimizlə,
ömrümüzlə
doldurmasaq.

Mən yolçuyam,
Mən yoldayam.
Od nə çəkdi,
küldən soruş!
Hansı şerim,
hansı sözüm
yaşayacaq məndən sonra?
Mən bilmirəm,
eldən soruş!

*Bakı, yanvar, 1964*

**DARISQALLIQ**

Uzun illər sıxdı məni:
gah çəkmələrim
-bəzən uzunu, bəzən eni ilə.
Gah ötüb keçən ilə təəssüfüm.
Gah ümidim, yeni ilə.
Gah dünyanın dərdi, qəmi sıxdı məni,
gah corablarımın boğazı,
Gah alçaq buludların qalın pərdəsi;
Gah bir nadan qələmindən
tökülən yazı.
Gah avtomat qələmin bahalığı.
Gah sözün ucuzluğu.
Gah köynəyimin yaxalığı.
Qırıb çıxmaq istədim
"olar", "olmaz" çərçivəsindən.
Dedilər: - Yox, yox!
Dəbləro, qaydalara gir!
Vərdişləri, adətləri gözlə!
Sığallı dillə yaz!
Sıxdılar məni, maddələrlə, sözlərlə...
İş otağım
on iki metr yarım.

Altısında
mən,
yazı masam,
həsrətim, ümidim.
Sabir,
Heminquey,
Tavandan süzülən damcıların izi.
Bricid Bordonun
bığsız, pişik üzü.
Falk, Mikayil,
Tağı,
Bəhlulun nəvəsi.
İlk sırada olmaq
və qalmaq həvəsi.
Altı mətr belə.
Altı yarım:
kitablar, kitablar, kitablarım.
Pəncərələr sıxdı məni
uzunsov dörd bucaqda göstərib
küçənin evlrlə sərhədləşmiş yarğanını.
Maşınlar sıxdı məni
markalarına münasib.
Sıxdı məni vaqonların
güzgülü kupeləri və
yol hesabatını yoxlayan mühasib.
Məsafələr metrlərlə,
İşıq kilovatlarla doldurulub.
Nəğmələr oktava içinda.
Xəstələrin hərarəti
dərəcələr içində.
İri meyvələr dənələrə,
üzüm - göz yaşı gilələrə dolub.
Şəhərimin yaşıllığı
ölçülüb, biçilib
salınıb rəqəmlarə.
Dağlar darıxıb göyə qalxıb,
dərələr çöküb yerə.

Darıxır insan
hüdudlar, ölçülər içində.
Yayda uzun gündüzlər,
qışda uzun gecələr içində.
Deyirəm:
öləndə, atın
ən dərin dəryaya məni;
qaldırırıb buludlardan yuxarı!
Son yolum uzunu,
son mənzilim geniş olsun barı.
Yox, yox.
Ən dərin dəryalar da
sahillərin çənbəri içindədir.
Görünür,
darısqallıq kənarda deyil;
hər meyvənin tumunda,
hər canlının hüceyrəsində,
hər binanın daşında, kərpicindədir.
Görünür,
yolumuz budur.
Zərurəti dərk etməyincə
gedirik, gedəcəyik,
darısqallıqdan keçə-keçə...

1967

**DİNMƏDİK**

Yağış yağdı
Bir gün ara vermədi,
Yağdı gecə-gündüz.
Sən dinmədin,
Mən dinmədim.
Göllәndi çöl, dərə, düz.
Dörd bir yan yağış oldu
Yazın oğlan çağında
Qış oldu.

Sən dinmədin,
Mən dinmədim.
Bir gün gəldi
Göy qupquru qurudu,
Bir damcı da düşmədi.
Gün şaxıdı,
Çöllər yandı,
Sən dinmədin,
Mən dinmədim.
Külək əsdi
Budaqlardan yarpaqları
Qırdı, tökdü –
Yenə susduq.
Sən dinmədin,
Mən dinmədim.
Yanğın oldu,
Tüstüsü də görünmədi.
Son də susdun,
Mən də susdum.
Düşündük ki,
Təbiətin şıltağıdır.

Hey haray çək,
Çığır-bağır!
Bu dinməzlik adət oldu
özümüzü inandırdıq.
Qismət dedik günümüzə.
"Neyləyək biz
əlac yoxdur,
olmalılar olacaqdır.
Dünya qədim bir ocaqdır.
Həm közü var,
həm külü var.
Həm tikanı,
həm gülü var".
Bir dostumuz görünmədi,
Niyə? Niyə?

Sən bilmədin,
Mən bilmədim.
Soruşma ki, kim bildi, kim!
Bəlkə bilsən,
Bəlkə bilsəm,
Neyləyərdik?
Qəm yükümüz azalardı
Bilsə idik?
Demirəm ki,
Nigaranlıq yox olardı
Qəm yükümüz az olardı,
Bəlkə çoxdan çox olardı.
Bəlkə də verib əl-ələ
Quraqlığa göz yaşından
Nəm verərdik,
Yağışları durdurardıq,
Yanğınları söndürərdik,
Küləkləri sındırardıq
Çilik-çilik.
Bəlkə nəvə, nəticələr
Dünyamızın bəd gücünə
bir gün olar
qalib gələr.

*1977-1980*

**BİR APRELDƏN SONRA**

Dünən bir aprel idi
Man deyildi yalanlar.
Nə böyük dərddir yenə
yer üzündə illərlə
tükənməyən, bitməyən
qıpqırmızı, ağ, qara
neçə rəngli yalan var.

*2 aprel 1973*

**İNSAN ŞƏKLİ**

Mənə bir sərgi salonu verin!
Nə geniş olsun dünya qədər,
nə elə hündür olsun ki,
ətəyində qala uzun kölgələr.
Mənə bir sərgi salonu verin!
Orda bir insan şəkli asacağam -
adi bir insan.
Nə elə kiçik ki, məhəl qoyan olmaya,
nə elə böyük ki, baxanda qorxasan.
Orda bir insan şəkli asacağam,
görünsün dünyanın hər yerindən;
zamanın keçmişindən,
dövranın indisindən,
əsrin gələcəyindən.
Bir insan şəkli asacağam;
bir yanında Nəsimi -
dabanından soyulandan sonra.
Bir yanında
məşəl təki yanmış Azəri qızı -
lunc heykəli qoyulandan sonra.
Bir yanda Cordano Brunonun külü.
Bir yanında Məmmədhəsən kişi -
ömrü, günü yollara tökülü.
Yuxarıda kosmopolit göy,
Aşağıda sərhədlə kilidlənmiş ölkələr
Bir yanda Ofivensim -
minlərlə insan, beli bükülü.
Bir yanda yolları insanla döşənmiş -
Köhnə Sibir,
Kalıma.
Bir yanda Xirosima - ölü.
Bir tərəfdə
Fərhad, Şirin,
Kərəm, Əsli,
Bir tərəfdə

İsrafil, Qafur
Qastello, Lorka -
prometeylər nəsli,
Bir insan şəkli asacağam;
qapaı dodaqlarında söz yanığı.
Ətrafında bayram təntənələri.
Baxışında sınaq günləri,
dözüm sənələri.
Şəklin müəllifi - Zaman.
Adı - insanlığın ömür yolu.

*1964*

**MƏNDƏ İXTİYAR OLSA**

Mən istəyirəm:
buludlar ağlasın
uşaqlar ağlamasın;
analı, ya anasız.
Mən istəyirəm:
güllər açılsın,
güllələr açılmasın,
amanlı, ya amansız.
Mən istəyirəm:
qapılar qapansın
soyuq olanda hava.
Gözlər qapanmasın,
sözlər qapanmasın.
Mən istəyirəm:
yanğınlar sönsün,
ümidlər sönməsin.
Meyvələr dəysin öz fəslində.
Ürəklərə söz dəyməsin.
Bəhərdən budaqlar əyilsin.
İnsan başını əyməsin,
xəcalətdən, ya gücsüzlükdən.

Axsın bulaqlar göz yaşı kimi,
torpağın üzərində.
Göz yaşı bulaq kimi axmasın
dünyanın heç bir yerində.
Hər şey insana baxsın.
İnsan olə baxmasın.
Gecələr ulduzlar oyaq olsun.
İnsanlar yatıb dincəlsin;
qüvvət toplasın sabahın xeyirli işlərinə.
Açsın gözlərini gələcəyin ümidli səhərinə.
Mən istəyirəm:
sevinc, səadət bol olsun.
Ürəkdən-ürəyə,
ölkədən-ölkəyə,
açıq yol olsun.

*1964*

# *Çağımdır mənim*

## DÜNYANIN İŞLƏRİ

Dünyanın
anlaşılmayan
çox işi var.
Yollarının
səbr,
inad,
inam istəyən
nə qədər
enişi var, yoxuşu var.
Din davası,
Millət davası,
torpaq davası,
rütbə, qazanc, otaq davası.
İki gözlü,
bir qan dağıdan - ürəkli,
başqa-başqa imkanlı,
başqa-başqa sahmanlı
insanların
qara, ağ davası.
İstək dustaqlığı.
İmkan dustaqlığı.
Yollar açığı.
Dərya-dərya imkanlardan verilən
nemət cirəsi,
pay qaşığı.
Mənim qayğım,
mənim gücüm,
mənim sınağımdır.
Mənim çağımdır!

**İNSANLAR**

Doyumsuz gözlər,
duyumsuz ürəklər.
Bağlı qollar,
ağır yüklü kürəklər.
Yüksəliş pillələri,
qazanış zirvələri.
Ağlıhn, zəkanın
neçə ölümsüz əsəri.
Mənim qayğım,
mənim gucüm,
mənim sınağımdır.
Mənim çağımdır.

**OLMUŞLAR, OLACAQLAR**

Fəzanın rahatsız
yeni sakinləri.
Yerdən aya yol.
Uşaq höcəti.
Böyük ehtirası.
Yaxın gələcəkdə
yerdən planetlər yoluna qalxacaq,
yer vətəndaşı adına layiq,
insanların fəza donanması.
Mənim qayğım,
mənim gücüm,
mənim sınağımdır.
...Mənim çağımdır.

**YANA-YANA**

Hələ qarşısında
dərin fikrə daldığımız,
möhkəm səngərinin,
hər qarışını,

neçə ömür bahasına aldığımız,
xərçəng,
şəkər,
infarkt,
poliomielit,
sərxoşluq,
nəşə düşkünlüyü,
fin bıçağı,
föhş ocağı.
Mənim qayğım,
mənim sınağımdır.
Mənim çağımdır.

**NİGARANLIQ**

Gələcək günün nigaranlığı:
İnsanlara bir doyumluq çörək,
bir içimlik su çatacaqmı?
Yer üzünün yığın-yığın insanı
köhnəliyin, mənəmliyin,
fanalığın, qəzəbin, kinin
daşını atacaqmı?
Hər gün vuruşda, yarışda,
otağında, xəstəxana yatağında
minlərlə məhv olan
neçə insanın
dünyamızdan qayıtmaz apardığı
kəşflər, ixtiralar!
Təkrarsız şeir misraları.
Bəstələr, rənglər.
Mərmər poemalar.
Məhsul artımı,
Bağların barı,
gul düyməçələri,
çinar çadırları;
hamısı mənim qayğım,

mənim ümidim,
mənim sınağımdır.
...Mənim çağımdır.
Mənim əsrimdir.
Gah sevinc, gah kədər gətirən
evim, məktəbim,
yazı masam,
mənim əsərimdir.

**GÜCÜMÜZ, GÜCSÜZLÜYÜMÜZ**

Min adamın işini
bir dəqiqədə görən,
şeir yazan,
divar hörən,
yolu işıq illəri qədər
aləmlərdən xəbər verən,
insan qəlbini
təmir edən, dəyişən maşınlar;
mığmığalardan yaxa qurtara bilməyən,
suların aynasından
çirkab ləkələrini
illərlə silməyən,
səhrada dənizlər, göllər yaradan,
gecələri nura qərq edən.
Hər damlası minbir nemət -
yağlı gödən,
sorduqca sorulan,
gah təngnəfəs olan,
gah qara nəfəs qalan,
yorulan buruqlar,
orda əmək çəkənlər,
insan sevincinə də,
insan yorğunluğuna da
yad olmayan,
yer üzünün övladı insan;
onun fərəhi, qayğısı,

nəğməsi, fəryadı,
mənim əsrim,
mənim çağımdır.
Mənim qüvvət, inam, qəzəb,
arzu, kədər, nigaranlıq
bulağımdır.

**DİNDİRİN MƏNİ**

Mən bu günün,
gələcək əsrlərin oğluyam.
Dünyanın neçə-neçə yerində
imkan çərçivəsində qalmış
əsirlərin dostuyam,
qardaşıyam,
oğluyam.
Keçmiş də,
bu gün də,
gələcək də
mənimdir.
Keçmiş- ibrət, öyrənc,
tutuşdurma, bələdçilik kitabımdır.
Bu günçün mən cavablıyam
gələcəyin sorğusuna!
Gələcək!..
Mən ümidlə, inamla
bağlıyam ona.
Dünya bütün varıyla, yoxuyla,
azıyla, çoxuyla,
dəhşətləri, sevincləri,
yanıq səhrası,
yaşıl bağıyla,
azadlığı, dustaqlığıyla,
evimdir, otağımdır mənim.
Dindirin məni!
Yükü çiynimdə,
qayğısı beynimdə,

ümidi gözümdə
həqiqəti sözümdə.
Bu gün -çağımdır mənim.
Ömür sınağımdır mənim.

*avqust, 1969*

**MƏNİM ARZUM**

Mən nə istəyirəm?
Ciyər dolusu hava!
Könül dolusu sevinc!
Bəzən də bir az kədər.
Elə ki,
könlüm də,
qəlbim də,
beynim də
sevincin qədrini bilsinlər.
Mən nə istəyirəm?
Yaxşı dost;
qəlbi açıq,
nə yaxşı günün dostu olsun,
nə ilqarda yarımçıq.
Düşmən necə olur olsun
ancaq düşmən olsun,
mərd-mərdanə,
üz-üzə vuruşan olsun.
Həzər,
dostluğu, düşmənliyi bilinməyən,
dodağı təbəssüm damğalı
insandan həzər!
Hər yerdə,
hər an həzər!
Mən nə istəyirəm?
Bahar uzansın il boyu
çəmən-çəmən,

oylaq-oylaq.
Gül gülü çağırsın,
Çiçək çiçəyi.
Çöllərə yanğın salsın
lale-
dağlar göyçəyi!
Ancaq
laləni, bənövşəni
bəzək üçün,
vəzn üçün
şerimizə soxmayaq!
Mən nə istəyirəm?
Gündüzlər aydın olsun,
gecələr qara olsun;
Ay doğana kimi.
Hər şey bol olsun -
yaqutdan tutmuş,
soğana kimi.
Şeir də bol olsun.
Ancaq,
təsbeh dənəsi kimi
bir-birinə bənzəyən
şeirlərdən
yaxa qurtarmağa
bir imkan
bir yol olsun.
Mən nə istəyirəm?
Çinar ağacları
qarğasız olsun.
Bu mümkün deyilsə əgər,
heç olmazsa,
şeir, sənət darğasız olsun.
Vallah, belə yaxşıdır,
sular axsın su kimi
təmtəraqsız.
Şerimiz zəngin olsun,
müxtəlif olsun

böyük insan arzusu kimi.
Bir günümüz keçməsin
hərəkətsiz, maraqsız.
Könüllər şad olsun.
Vətənimin günləri kimi.
Hər yerdə sevgi, ülfət təmiz olsun,
azad olsun;
baharın aydın səhəri kimi.

Mən nə istəyirəm?
Yaratmaqçın yaşayaq,
yaşamaqçın yaratmayaq.
Bir günümüzü belə,
bir anımızı belə
xırda, ucuz hisslərin
qurumuyla qaraltmayaq.
Yaxşı işimiz gündən-günə çox olsun.
Həyatda da, sənətdə də
könlümüz, gözümüz
tox olsun.
Mən nə istəyirəm?
Ciyər dolusu hava!
Könül dolusu sevinc!
Yaradıcı əməklə dolu ömür.
Şəfəqli həyat!
Mübarizəli, dinc!

Mən nə istəyirəm?
Böyük arzular səslənsin
hər hüceyrəmizdə.
Həyatın nəbzi vursun
Hər nəsrimizdə,
Hər şerimizdə!

*1955*

**AZADLIQ**

Qara bir gündə
yaralı bir ölkənin üstündə
dikəldi qüvvətdən sərxoş,
qan ləkəli, bayraq.
Günəşli bir gündə,
qəzəbli bir ölkənin üstündən
endirildi ölüm kölgəli bayraq.
Qollarını geniş-geniş açdı insan.
Qucaqlaşdı, günəş, hava, torpaq.

**NƏSİMİYƏ, FÜZULİYƏ, SABİRƏ
AÇIQ MƏKTUB**

(Onlara məhəbbət, bəzilərinə ibrət üçün)

Düşünürəm:
haqqım varmı
sizə
ustadım,
babam deyəm,
atam deyəm.
Yoxsa utanım,
susum;
yolunuza, işinizə
yadam deyə.
Qazanmışammı
övlad haqqını
zəhmətimlə,
məhəbbətim, nifrətimlə,
cəsarətimlə!
Sağ olun!
Sağ olun ki,
heç bir zaman
başqa xalqa xor baxmadınız.

Tarixə insan düşdü,
İnsan qaldı adınız.
Düşünürəm
Bəlkə yanınızda qəbahətim var.
Bəlkə bu babətdən
az-çox xəcalətim var.
Xalqın taleyində
ağır günlər az olmayıb.
Sağ olun!
Sağ olun ki,
neçə-neçə
sınaqdan keçə-kcçə
qəlbinizi, şerinizi
qəzəb-kin yuvası etmədiniz.
Bizə haqsızlıq eləyən
təklərə görə,
minlərə, milyonlara
düşmən gözüylə baxmaq
yoluyla getmədiniz.
Mən xalqımı sevirəm!
Bu sözün arxasında
ömrümün çətin illəri var,
ümidləri, arzuları, nisgilləri var...
Bu sözün özündə
məhəbbət var
yaxşı insanlara,
başqa xalqlara;
taleyinə yadlar
hökm eləyənlərə
daha çox.
Mən xalqımı sevirəm,
ancaq mənimkidir deyə yox.
Sevirəm, çünki
o azadlığa qurban verib
Babəkini.
O qardaşlıq gücüylə
yaradıb bugünkü Bakını.

O Leninə silahdaş verib
Nərimanını.

İnsanlığa bəxş eləyib
Sizi, Mirzə Cəlili,
İsrafili, Çingiz İldırımı,
Natəvanı, Xiyabanini.
Yalnız tanınmışları yox,
ona şöhrət gətirən
minbirini sevirəm.
Şöhrət gətirməyənlər
nifrət gətirməyibsə,
onlar da mənimkidir.
Başqa xalqlara
nə nifrətim,
nə pis niyyətim olmuşdur.
Kim nə deyir, desin
Karvan keçər...
zingildəyən Alabaşdır.
Özümüzün də pisini,
özgəsininkini də
bir insan qəzəbiylə
bir şair nifrətilə
nə eşidən qulağım,
nə görən gözüm olub,
Hər zaman ehtiyatımda
donük, namərd, nankoru
yandırıb külə döndərən
sözüm olub.
Sağ olun ki,
gələcək övladlara
kin deyil,
məhəbbəti vəsiyyət etdiniz.
Nə isa deyən kimi
"bir üzünə vurdular,
o birini çevir!"
yoluyla getdiniz.
Bizə mərdlik, ədalət

böyük insan qəlbini tapşırdınız.
Nə aciz olun dediniz,
nə qılıqsız.
Filantropluğu,
mütiliyi bizə irs qoymadınız.
Düşmənlə düşmən kimi,
dostla dost kimi!
Elə deyilmi,
Ata Sabir!
Dədə Füzuli!
Baba Nəsimi!
Siz bir bəhərli ağaca
daş atıb deyə,
əlinizə keçənin
dərisini soymadınız.
İnsan məhəbbətinin,
sədaqətin, mərdliyin
tərənnümündən doymadınız.
600 il məsafədən görür aləm
səni Hələb meydanında, -
qanına qəltan.
Hanı fitva verən,
hanı soyan,
Hanı boynuna kəndir atan,
böyük ustad!
Yaşadın könlü qubarlı,
dili gileyli.
Ucaldanda məhəbbətin
ölümsüz heykəlini,
demədin ki, yadelli,
bir ərəb qızıdır Leyli,
Məcnun - bir ərəb oğlu.
Dedin: şair
dərdlilərə həmdərd doğulur.
Qələminlə "Leyli və
Məcnun" da bir az azəriləşdisə;
bunun yamanlığı varmı bir kəsə!

İran, Türkiyə, Hindistan.
Yaxın, uzaq qonşular.
Ortada Azərbaycan.
Çəkilməz dərdləri,
göynəkləri, müsibətləri
sənə ağır gəlirdi.
İnsan - qardaş dəyəndə
gözünün qarşısına
mübarizə yolunda
canlarından keçənlər,
yoxsul, fağır gəlirdi.
Sağ olun!
Çox yaşayın,
əziz, böyük babalar!
Sözünüzdə nə qərəz,
nə başqa xalqa nifrət var.
Canlı ürək var.
Böyük amal,
Sərt həqiqət var...
Sağ olun, var olun!
Əziz, böyük babalar!
Sizə ustadım,
sizə babam deməyə,
sizə atam deməyə
haqqım var.

*1960*

**ARZU**

Xəritəyə baxdım.
Qanadlarım gərib,
dalğalı Xəzərə qonmaq istəyən,
nəhəng bir quş kimi görünür
Azərbaycan.
Bir şahindir
dimdiyi göy sularda.
Qanadları göylərdə.
Bu əzəmətli şəkli
yarada biləydim,
bir yeni əsərdə;
ahəngi dəniz dalğalı.
adı "Poeziya qartalı".

*9 iyul 972*
*iyul,1977*

**VƏTƏN**

Mən dərmişəm bənövşəni, nərgizini bahar çağı,
Mən görmüşəm sinəndəki laləzarı, buz bulağı
Mən gəzmişəm, dolaşmışam hər yerini qarış-qarış.
Mən çıxmışam dağlarına hələ sahər oyanmamış.
Dan yerinde topa bulud lalə kimi qızaranda;
çoban çəkib bayatını - "oğlan dağda, qız aranda",
Şirin-şirin axan səsə qulaq verib dərin-dərin
Mən keçmişəm çaylağından o moruqlu dərələrin,
cüyürlərin cığırını axtarmışam qayalarda,
"Oxqay" deyib oturanda, "oxqay" deyib qayalar da.

Qarlı dağlar üzərində gün salanda qızıl ləçək,
salamlayıb səhər məni min təzə gül, min bir çiçək.
O ətirli torpağını qoxlamışam dönə-dönə.
Ağlını valeh olub gedib, gözlərimin gördüyünə.
Ana vətən, indi bu gün çatılmışdır qaşın sənin.
Yanır qəzəb alovuyla torpaqların, daşın sənin.
Cavanların, qocaların silahlanmış başdan-başa.
Azadlığı qorumaqçın girmiş böyük bir savaşa.
Bir qalaya döndərmisən hər kəndini, şəhərini.
İgidlərin at belinə basıb gümüş yəhərini –
qında qalıb paslanmayan qılıncını almış ələ.
Doğma yurdun sevgisiylə, mərd xalqının qüdrətiylə
qorumaqçın sənin gözəl dağlarını, çöllərini,
ceyran gəzən düzlərini, zümrüd gözlü göllərini,
cəbhələrə qüvvət verən zavodunu, fabrikanı,
qorumaqçın sinəndəki çiçəklənən ömrü, canı,
taleyini öz yurdunun taleyinə bağlayaraq,
kişilərin, qadınların hazır durmuş əldə yaraq.
Düşmən qanlı qılıncını sıyırmışdır üstümüzə.
Basır-keçir zəmiləri öz qanında üz-üzə.
Qanlı düşmən güllələrin, bombaların harayında
ölüm taxtı qurmaq istər insan ömrü sarayında.
Ana vətən, indi bu gün çatılmışdır qaşın sənin.
Yanır böyük bir qəzəblə torpaqların, daşın sənin,
Sən tarixdə çox çıxmısan böylə ağır imtahandan.
Sonda zəfər bayrağını tapşırmışdır sənə zaman.
Torpaqlara sala bilməz düşmən məğrur cəlalını
örtə bilməz qara bulud günəşini, hilalını.
Al günəşdən, göy dağlardan, dənizlərdən rəng alaraq,
sənin azad göylərində öz bayrağın ucalacaq.
Dərəcəyəm bənövşəni, nərgizini bahar çağı.
Görəcəyəm sinəndəki laləzarı, buz bulağı.
Gəzəcəyəm könlü azad hər yerini qarış-qarış.
Çıxacağam dağlarına hələ səhər oyanmamış.
Dan yerində topa bulud lalə kimi qızaranda,
cavan çoban oxuyacaq, "oğlan dağda, qız aranda"...

Şirin-şirin axan səosə qulaq verib dərin-dərin
keçəcəyəm çaylağından o moruqlu dərələrin.
Tapacağam cüyürlərin cığırını qayalarda.
"Oxqay" deyib oturanda səs verəcək qayalar da.
Qarlı dağlar üzərinə gün salanda qızıl ləçək,
gözlərimi oxşayacaq min təzə gül, min bir çiçək.
Qan çilənmiş çöllərində güləcəkdir bir ilk bahar.
Çünki sənin bu döyüşdə xalq kimi bir qüdrətin var.

*1942*

**VƏTƏN DEDİM**

Xəfif yeldən titrəyən
yarpağına Vətən dedim.
Yanıq, quru,
göy kəklikli,
boz qumrulu
torpağına Vətən dedim.
Dağlarının köpük duman
duvağına Vətən dedim.
Tarixinin
yaxınına,
uzağına
Vətən dedim.
Bağlarının
yasəmənli budağına
Vətən dedim.
Gənclərinin
nəğmə-nəğmə dodağına
Vətən dedim.
Ürək kimi
gecə-gündüz hərəkətli
İş və hünər meydanına
Vətən dedim.
Bu gününə, dövranına
Vətən dedim.

Dalğalanan
al şəfəqli bayrağına,
tənha, ucqar bir daxmada
yanan nurlu çırağına
Vətən dedim.
Köhnə, yeni
qara qızıl yatağına,
ildən-ilə şöhrətlənən
ağ qızılın sorağına
Vətən dedim.
Büllur, sərin bulağına,
İnsan yurdu - ocağına,
tunc zəfərli keçmişinə,
gəlhagəlli bu çağına,
isti, əziz qucağına
Vətən dedim.
Mən Vətənin qoynundayam.
Vətən adlı bir torpağın
borcu hər an boynumdadır.
Qeyrətini çəkmişəm də,
çəkirəm də.
Torpağını əkmişəm də,
əkirəm də.
Yollarında - yüksəlişdə
puçur-puçur alın təri
tökmüşəm də,
tökürəm də.
Mən Vətənin qoynundayam,
Vətən mənim qoynumdadır.
Həm qeyrəti,
həm qayğısı,
həm şöhrəti -
böyük borcu
boynumdadır!
Boynumdadır!

*avqust 1980*

## BAKIM

Neçə şeir yazılıb anaların adına!
Anadan kim doyub, kim?
Şöhrətimin şəhəri,
Bakım!
Göy gözlü Xəzərimin
sahil yaraşığı!
Abşeron gecələrinin
sayrışan işığı!
Hirsli küləklərin cıdır düzü!
Yolumun gecəsi, gündüzü!
Yurdumun isti qucağı!
Babamın ocağı!
Balalarımın yuvası!
Baharlı qışı,
dəli-dolu yağışı,
dəymə-düşər havası
dillərdə dastan olan
Bakım!
Enli fəhlə kürəkli,
geniş insan ürəkli,
duzlu, çörəkli
Bakım!
Törə meynələri
yelin-yelin üzümlü.
Altı qızıl, üstü qızıl,
Hər sınağa,
hər möhnətə dözümlü
Bakım!

## MƏNİM KÜÇƏM

*Hüsü Hacıyev küçəsinə*
*ithaf edirəm*

Salam, köhnə tanış!
Asfalt örtüyünə,
yanı qranit köbəli ağaclarına,
geniş səkilərinə salam!

Salxım-salxım süd lampalı
dirəklərinə salam!

Nə var, nə yox?
Danış!
Sən məni
bazan çustumla,
cod parçadan kostyumla
gormüşdün.
O zaman mən
gənclik həvəsi ilə dolu başımı,
əzələlərimi kürəyimdə
diri balıq kimi tərpədən çiynimdə
həvəslə daşıyırdım.
Pulsuz-pənəsiz,
Vəzifəsiz və nəsiz
yaşayırdım.
İstəyəndə dururdum,
istəyəndə yatırdım.
Üç il dalbadal çəkib,
Öyrəşə bilmədiyim papiros kötüklərini
kələ-kötür
daşlarının üstünə atırdım.
Yay günləri
qara zənci qul kimi
yanımdan ayrılmayan kölgəmi
çəkib aparırdım
belədən belə.
Fit çala-çala,
oxuya-oxuya,
gülə-gülə.
Kənarları əyyaş dişləri kimi tökülmüş
səkilərində
sən tez-tez
yalın ayaqlarımdan
insan hərarətini duyurdun.

Duyurdun dərdimi, sevincimi
Mənim də,
Yüzlərlə mənim təkilərin də.

O zaman,
sinənin çala-çuxurunda
yığılmış qarpız qabığından,
meyvə artığından,
üzüm cecəyindən,
səs eşidib,
qara duman kimi qalxan
yayın qara milçəyindən
aman yox idi.
Sənin belə görkəmin
sındırırdı sevincimi, qürurumu.
Etinasız üstünə tüpürənlərdən
Sanki hayıf alıb
Gözümə doldurardın
tozu, qumu.

Hanı indi o görkəmin,
hanı o halın?
Yoxsa mən azmışam
yollarında xəyalın?
Hanı irili-xırdalı
tısbağa sürüsü kimi
sinənə düzülmüş
kələ-kötür daş-qənbər?
Hanı qış günündə belə
kölgəsi yol ortasına çatmayan
evlər?
Hanı dəngil-düngül tərə ağacların
Məcnun saçlı budaqları?
Hanı
cındırından cin ürkən
tiyanaltı uşaqların?

Sinən hamardır,
kölgədə suyu
qara ayna kimi parıldayan çaydır sanasan.
Hər iki yanın
daş evlərdir,
hərəsi bir saraydır sanasan.
Dik baxırsan papaq düşür,
yorularsan pəncərələrini sanasan.

İndi sən
Küçələr içində adlı-sanlı küçəsən.
Neçə qapı açmısan
neçə yeni köçə sən.
İndi ünvanına
yüzlərlə jurnal gəlir, qəzet gəlir
ölkənin hər yanından.
Minlərlə məktub gəlir
üstü çeşid-çeşid markalı.
Bəzən nişanı olur markalarda
Antarktidanın da, -
Sakit okeanın da...

Mən ömrümün neçə ilini
saat-saat,
gün-gün, ay-ay
daşlarının üstündə qoyub getmişəm.
Mənim köhnə dostum,
əziz küçəm.
Maşallah, necə böyümüsən!
Yekə xiyaban olmusan.
Elə bil ki,
yeni anadan olmusan.

Vitrinlərində
çiçəklər, köynəklər,
elektrik düymələr, ipəklər.

Üstündə salxım-salxım işıq.
Biz səninlə həmşəhərik,
gündaş, ildaş, vətəndaşıq.

İndi əziz qonaq gəlsə,
mən qürurla onu
sənin nur qoynuna apararam,
həm gündüz,
həm də axşam.
Dayanmışam səkidə
baxıb-baxıb sevinirəm.
İstəyirəm nadinc uşaq kimi
qaça-qaça
o səkidən-bu səkiyə keçəm.

Mənim köhnə dostum,
yaxşı küçəm, əziz küçəm!
Xatirələr qarışır sevincimə
ürəyimə bir söz gəlib,
qoy soruşum, gəl incimə:
O başda bir ağac vardı
mən hər səhər
qulpusınıq fincanımla
ona su tökərdim.
O da hər yaz
dörd-beş yerdən yarpaqlardı.
Mən, deyəsən, gəncliyimi
o ağacın kölgəsində
qoyub getdim.
Söylə, küçəm, söylə,
Onu görmədin ki?
Gəl bu sirri mənə aç:
Hanı ağac?
Hanı ağac?

Küçə dinmədi,
sükut etdi,
müdrik bir insan kimi.
Sanki eşitmədi

mənim umu-küsümü.

Birdən baxdım, qabaqdan
bir oğlan, iki qız gəlir,
dodaqlarında
gəncliyimin təbəssümü...

*Bakı, aprel, 1960*

## YENİ MƏNZİLDƏ

Daş qoyuldu daş üstə.
Hər gün qalxdı divar.
Pəncərələrdə şəfəqləndi aynalar.
Yeni mənzilə köçdü neçə ailə,
Pillələr isindi insan ayağıyla.
Balaca Xumar da köçdü yeni mənzilə
kiçik qardaşı Sərdar,
atası Muxtar,
anası Gülzarla;
üstü şəkilli dərs kitabı,
ala məstanı,
yeddi taxta tumanlı kuklası - Baharla.
Köçdülər, vidalaşıb,
illərlə sürən intizarla.
İlk dəfə
Küçəyə çıxmaq üçün
pillələri qalxmadılar,
endilər.
Qurumdan, hisdən qorxmadılar,
tərtəmiz geyindilər.
İlk dəfə
yol keçənlərin ayaq kölgəsi
əcaib heyvanlar kimi
oynamadı döşəmələrində.
İlk dəfə gördülər tramvayın üstünü,
aşağıda şütüyüb gedən
oyuncaq kimi maşınları,

uzaq zavodların
papiros borularını
və boruların üstündə
ağ yaylıq kimi
yellənən tüstünü.
İlk dəfə yol kənarındakı ağaclar
göründü onlara,
boz kətan üstünə düşmüş,
yaşıl ləkələr kimi.
Pəncərədən dənizi gördülər:
üstü pul-pul balıq.
İlk dəfə qapının zəngi çalındı
onlar üçün.
İlk dəfə dibçəkdə çiçək əkdilər
gündoğana çıxan qoşa balkonlar üçün.
Sevinc üç otaq dolusu.
İşıq yeddi pəncərə.
Xumarla Sərdar
pillələri saydılar
neçə kərə.
İndi, hər gün,
ataları işdən gələn vaxt,
balkondan
geniş asfalt döşəməli küçəyə baxırlar.
Ataları gecikəndə hərdən
"atamızı çağır!" deyə
sabun köpüyünü üfürüb,
irili-xırdalı
şarları havaya buraxırlar.
Ancaq balaca Xumarın
böyük bir qayğısı var:
Hər gün üç dəfə gedə bilmir
sinifdaşı Əsmərgilə.
Hələ Əsmərgil köçməyib
Yeni mənzilə.

*1961*

**KÜR-ARAZ**

Kürün suyu bulanıq süd kimi.
Arazın suyu qırmızı-sarı.
Axıb-axıb
burda qovuşur
doğma, qədim torpağın
ayrı düşmüş balaları.
Əvvəlcə elə bil
uzun illər həsrətlisi kimi
bir-birinə baxırlar.
Bir yatağa girsələr də,
ayrı-ayrı axırlar.
Sonra həsrətli qollar
bir-birinə dolaşır.
Qardaşlar qucaqlaşır.
İndi kim ayıra bilər onları!
İki güc birləşib qüdrət olub,
axın olub.
Uzaqlıq yaxın olub.
Ayrılıq vəhdət olub.
İkisi birləşib əzəmətlə axır
ala gözlü Xəzərə sarı.
İndi, kim ayıra bilər onları?!

*1961*

* * *

Təbrizin yolları oyum-oyumdur,
Yanıq dağdan qalxan duman olaydım!
Həsrət könüllərdə ümid olmasam,
Heç olmazsa zəif güman olaydım!

*1959*

## TƏBRİZİM MƏNİM

*Balaş Azəroğluna*

Laylası məhzun,
Nəğməsi məhzun.
Həsrəti ömründən uzun.
Karvandan üzülmüş ağ dəvəsi.
Gözlərində böyük ümidin uzaq töhfəsi
Neçə evinin küçə divarı kor.
Dodaqları quru,
bulaqları gur.
Arzularında qançır, qamçı.
Kədəri axın-axın,
sevinci damcı-damcı.
Bəzən günləri qanlı yuxu kimi,
bəzən həsrətli yuxuları gerçək olmuş.
Neçə dəfə sevincək olmuş.
Balaları sərgərdan.
Gəlinləri nigaran.
Qurtuluş yolları:
məhbəs, dar ağacı, gülləbaran.
Dan yeri qan boyalı.
Ümidindən, arzusundan dönməyən,
Ocağında – ürəyində odu sönməyən.
Səhəri uzun əsrlərin yolunda yubanan,
Qardaşına həsrət, bacısına həsrət,
bayatıları - qədim məhəbbət.
Qoynu gah aydın havalı,
gah çənli, dumanlı.
Qəlbi gümanlı.
Taleyi böhranlı.
Özü bababir, nənəbir
adət-ənənə bir -
doğma qardaşım.
Pasportda o yanlı.

Arzulayanda əlim çatmayan.
Ağrısı, göynəyi qəlbimdə
gecə-gündüz yatmayan.
Dağları dağlarıma bənzər,
bağları, bağlarıma.
Ana sözü kimi
əziz olan adı - dodaqlarıma.
Köhnəm, təzəm, uzağım, yaxınım.
Ən gözəl şerim,
Yanıqlı mahnım.
Mənsizim!
Təbrizim!

*1964*

**NİGARAN SUALLAR**

Son zamanlar
Səni tez-tez
yuxuda görürəm, Təbrizim!
Yuxuma qəmli gəlirsən
hər gecə.
Suyun, çörəyin varmı?
Nəğmən necə?
Yenə "Qaragilə"dir,
yoxsa daha qəmlidir?
Göy məscid necədir?
Ərk qalası necə?
Yanıq dağ qupqurudur,
ya nəmlidir?
Tez-tez yuxuma girirsən,
Təbrizim!
Yoxsa incimisən,
uzun həsrət yorub səni?
Yoxsa dözüb-dözüb
indi yaman qəribsəmisən.

İnanmıram,
hələ ümidin var böyüyəsi,
arzun var boy atası.
Hardan düşdü yadıma
anamın göynəkli bayatısı:
"Mən bütöv bir yuvaydım,
yel vurdu paralandım.
Mən səndən ayrılmazdım,
zülümnən aralandım".

*1975*

**YARALI TƏBRİZ**

Mən görəndə
bağçaların, bağların
çiçək idi,
gül idi.
Küçələrdə, məclislərdə
səslənən
doğma, gözəl dil idi.
Fədailər
dəstə-dəstə keçirdi,
yeni adlı küçələrdən;
dodaqlarında nəğmə!
"Ey torpağı ləl, mərcan
Azərbaycan!"

Səttarxan xiyabanı
bəzəkli, çılçıraqdı,
Qoçaq, mərd oğulların,
Firudinlərin sağdı.
Kəhrəba işıqların,
gecələrin qoynuna
ulduz-ulduz yağırdı.
Oyanışlı günlərin

nə oldu,
hanı indi?
Gəldi qara günlərin,
Nə az bəxtiyar oldun,
sevindin.
söylə, Təbrizim,
söylə,
ulduzlu mavi göydən
sənə kim yanğı saldı!?
Üstünü buram-buram
qara dumanlar aldı.
Naxış-naxış evlərin
alışdı közə döndü.
Bağçaların, bağların
viranə düzə döndü.
Yanğınlar gur kükrədi,
yayıldı gölə döndü.
Neçə insan yuvası
bir anda külə döndü.
Pərdələr arxasında
gizlənmişdir işıqlar.
Sazını sındırdımı
tunc gövdəli aşıqlar!

Təbriz, qəşəng şəhərim!
Yüz bir şəhər içində
seçimli, tək şəhərim!
Sənin yaran azdımı,
vurdular bir yara da.
Qəzəbindən titrədi
Göy məscidin üstündə
Qızıldan aypara da.
Sənin dərdin azdımı,
taleyinə tarixlər
qara günlər yazdımı?
Sinəndə varkən hələ

göynəkli dil yarası,
Səttarxanlar yarası,
Firudinlər yarası,
yanıq, nakam arzular,

qəm, nisgillər yarası –
Yaraladılar səni,
Heyranların vətəni!
Sahiblərin vətəni!

Mən deyirdim vaxt olar
baharlı novruz günü
gələrəm.
Həsrətindən qurtarıb
qoynunda dincələrəm.
Yaraların ağırdır,
Təbrizim!
Nigaranlıq qəlbimi
ağrıdır,
Təbrizim!

İnanıram, keçəcək
matemli günlərin də.
Açılacaq üfüqlər
bir aydın səhərində.
Çəkiləcək üstündən
o zəhərli buludlar.
Doğrulacaq arzular,
umudlar.
Yüksələcək bayrağı
yeni Səttarxanların.
Qaldıracaq səsini,
öz gücünə güvənən,
bu günlərdən dərs alan
gələcəyə inamlı –
qüdrətli cavanların.

*Göyçay, 11-13 aktyabr 1980*

**ƏRK QALASI**

*Təbriz — gözəl şəhər!*

Vuruşdular:
son gülləyə;
son süngüyə,
son qundağa qədər.
Vuruşdular:
hər şey qırmızı geydi,
daşdan torpağa qədər.
Vuruşdular:
alt dodaqdan
üst dodağa qalxa bilməyən
səsə qədər.
Vuruşdular:
onlardan yeddi dəfə - yetmiş qat
artıq olan,
süngüləri narın daraq dişi kimi
sıx olan düşmənlə.
Yaralılar ufuldamadı.
Can verənlər inləmədi.
Susuzlar yandım demədi.
Öpdü qurumuş dodaqları
qan hopmuş torpağı.
Yaralarına basdılar
qan rəngli bayrağı.
Nə düşmən onlardan
bir aman sözü ala bildi,
nə bu ölümü yağı duydu,
nə qala bildi.
Söyknib qala divarına
öldülər ayaq üstə;
çiyin-çiyinə.
Ulduzlar şahid oldu,
bir sırada dayanmış
ölülərin qabağından,

yüz yerə bölünmüş dirilərin
çəkildiyinə.
Öldülər ayaqlarının altında
Vətən torpağı.

Başlarının üstündə
Vətən ulduzları.
Könüldən könülə keçdi
ümidləri, arzuları.
Gecə ağır-ağır keçdi
cənazələrin üstündən;
Keçdi getdi yolu səhərə.
Günəş şəfəqdən bir örtük çəkdi
torpağı qoruyub, torpaqda dincələn
cənazələrə.

*1958*

**YARALI KƏRKÜKÜN BUGÜNLÜ**
**XOYRAT VƏ MANİLƏRİ**

Bir yanım Mosuldur
bir yanım Ərbil,
bəxtimə yazıldı
bu qara nisgil.
Çəkdiyim ağrılı
illər içində
nə bəd gəldi qanlı,
qadalı bu il.

Güneylər, ay quzeylər,
Dərdim odu buz eylər.
Gəldi ağır günlərim –
bir dərdimi yüz eylər.

Bağdaddan karvan gəlir,
Dərdli, pərişan gəlir.
Kimlər qurban kəsilib,
sularım al-qan gəlir.

Məsulun yolu daşdı,
Yollar qana bulaşdı.
Bir-birinin qənimi
iki insan - qardaşdı.

Kərkük üstü dumandı,
Kərkük oda qalandı.
Kərbəla müsibəti
buna baxsan yalandı.

Ərbilə,
yanğın düşdü Ərbilə;
höcəti kəsmək olmaz
dava-dalaş, hərb ilə.

Ərbilə,
karvan gedər Ərbilə.
Sirrini elə saxla
nə qardaş, nə ər bilə.

Dənizə,
dolu düşdü dənizə.
Namərd, əlin qurusun,
Necə qıydın Təbrizə.

Dərələr,
yastı, çuxur dərələr.
Bağ salmadım ki, yadlar
meyvəsini dərələr.

Bu dağlar,
bu dərələr, bu dağlar.
Kimə neyləmişdilər
sındırılmış budaqlar.

Ay buluddan göründü,
yenə gizlənər indi.
Göydən bir dəmir düşdü,
bütün Kərkük diksindi.

Tərlan uçdu, sar gəldi,
dolukəsdi, qar gəldi.
Eyvana kölgə düşdü,
dedim yağılar gəldi.

Bağdad qızıl, gümüşdü,
Bağdada yanğın düşdü.
Belə qara günləri
Bağdad haçaq görmüşdü.

Atlarım,
ilxı-ilxı atlarım.
Bir çətin günə düşdüm,
Ağladı xoyratlarım.

Naxçıvandan,
Təbrizdən Naxçıvandan.
Ağla, gözlərim, ağla!
Ayrıldın çox cavandan.

Külək əsdi güneydən,
bir nalə qopdu neydən.
Alov yağdı, köz yağdı
gecə ulduzlu göydən.

Kərkükün baş qalası,
divarı daş qalası.
Ölü ana yanında
tökür qan-yaş balası.

Qara yellər əsəndə,
elin dərdi var səndə.
Yeddi qurban kəsərəm
bu davalar kəsəndə.

Ay batdı gün doğanda,
nur zülməti boğanda.
Kim görmüşdü buluddan
ölüm daşı yağanda.

Tufan qopdu quzeydən,
qara buludlu göydən.
Bir od düşdü Kərkükə -
nalə qalxdı yüz evdən.

Göydə ildırım çaxar,
dərələrdən sel axar.
Çox sürməz bu qaranlıq,
Səhər olar, gün çıxar.

* * *

Göyün üzü bulud-bulud,
göyə dırman, yağışdan tut.
Bir güman var, bir də umud,
Ağlama, gözəl, ağlama!

Hicran dərdi yaman olur,
yollar çiskin, duman olur.
Hər dərdə bir güman olur;
Ağlama, gözəl, ağlama!

Durna keçir qatar-qatar,
Gəlir uzaq qaqqıltılar.
Hər gecənin gündüzü var,
Ağlama, gözəl, ağlama!

Kərkük üstü duman oldu,
abad evlər viran oldu.
Aydın hava boran oldu,
Ağlama, gözəl, ağlama!

Yelə vermə inamını
Könlündəki gümanını
Pozsalar da səhmanını,
ağlama, gözəl, ağlama!

Göy üzündə şimşək çaxdı,
Ərbüdən od-alov qalxdı.
Kimlər yazdı belə baxtı –
ağlama, gözəl, ağlama!

Yandı Dədə Gur-gur, Məsul.
Oda girdi bütün sağ-sol.
Qurban getdi neçə oğul,
ağlama, gözəl, ağlama!

Ağlayan çox, gülən ham?
Göz yaşını silən hanı?
Matəm tutub bu dünyanı
Ağlama, gözəl, ağlama!

## AŞIQ "YANIQLI"NIN BAYATILARINDAN

Ağ şam, qara şanı
Sənə bərabər hanı?
Nə bağbanam, nə bağ yiyəsi.
Baxıram ürəyim əsir.
Ağ şanı, qara şını!
Bulud mevnələr hanı?

Gün keçdi aram, aram,
Nə keçdi, gör nə keçdi.
Həsrətin var, mən varam.
Mənim namehribanım!
Yüz il ömür eləsəm də,
Mən səni unutmaram.

Yollar, dolayı yollar!
Gündüz nurlu, günəşli,
Gecə ulduz çiçəkli,
Sinəsi aylı yollar!

Niyə susub durdunuz,
Kim küsdü getdi burdan,
Küylü, haraylı yollar?

Ağ dəvə düzdə qaldı.
Ovsarı bizdə qaldı.
Neçə arzum, həsrətim
Dərdli Təbrizdə qaldı.

Ağ bağçam, allı bağçam,
Mehi sığallı bağçam!
Əcəl qayıt! Yar bizə
Qonaq gəlir bu axşam.

Üzərlik, tər üzərlik,
Çöldə bitər üzərlik.
Namərd nəfəsi dəydi
Köhnə yaram közərdi.

Gün düşdü qalaya da.
Kölgəli talaya da,
Qorxurara, susa nəğməm
Bəstəsi qala yada.

Yolum yoxuşa çıxdı,
Payızım qışa çıxdı.
İl arzum, il ümidim
Bir gündə boşa çıxdı.

Dodağımda qan qaldı
Öpüşündən qan qaldı,
Mən nazik dodaqlıyam?
Ya dodağın qanqaldı?

Aşıqdır gündə sənə,
Nur saçır gün də sənə.
Haçan qurbanın olum?
Bir vaxt, bir gün desənə!

Bu dağlar bulaqlıdır,
Ətəyi sulaqlıdır.
Elə danış, vay demə
Divar da qulaqlıdır.

Arazın qıraqları,
Alma, armud bağları,
Arazın suyu varmı
Doyursun quraqİan.

Dolu yağdı Araza,
Bir od düşdü harasa,
Dişsiz qalsın darağı
Kim Arazı darasa.

Araz arxadan gedər,
Gah çəp, gah da yan gedər.
Arazın qəlbi olsa
Gecə-gündüz qan gedər.

Arazım, ax Arazım!
Üzümə bax, Arazım!
Axdın, o tay-bu tayda
Yandı dodaq, Arazım.

Araz yanıq dillidir,
Suyu necə lillidir,
Gah axır, gah dayanır
Görünür nisgillidir.

Araz axar, yan düşər,
Daşlar yaxadan düşər
Araz bildiyin desə
Xata çıxar, qan düşər.

*1961-1964*

**ŞUŞA**

Burda nəğmə yaz çiçəyi kimidir:
tez yaranır, tez gül açır, boy atır.
Burda səhər yuxusundan adamı
Bülbüllərin cəh-cəh səsi oyadır.

Burda hava körpə uşaq kimidir,
gah tutulur, gah ağlayır, gah gülür.
Burda səhər buludların döşündən
qayalara qızılgüllər tökülür.

Göylərində at oynadır şimşəklər,
Bir an olur gur yağışı, dolusu...
Əlvan çiçək xalıları yamacda.
Baş qaldırır nərgiz, gözü dolu su.

Qayalarda tərlanları qıy vurur.
Dan atanda maral gəlir çeşməyə.
Qız-gəlinlər gün doğmamış oyanır;
dəstə-dəstə bulaq üstən keçməyə.

Qızlarının saçı qara, gözü göy,
Hər yanaqda qızılgülün rəngi var.
Hansı igid ürəyinə ox olub
sancılmayıb bu qəmzəli baxışlar?

Mən könüldən xumar gözə vurğunam,
min giley var bu sinəmdə o yardan.
Gəncliyimin bahar çağı yel
kimi gəlib keçib bu səfalı diyarda.

O qayğısız gözəl günlər, o xoş dəm
görən ola bir də geri dönərmi?
İlk məhəbbət alovundan alışan
ürək odu illər keçsə sönərmi?

Mən torpağın qüdrətinə heyranam,
yüz ziynəti, yüz rəngi var hər ildə.
İnsan vaxtsız nə qocalar, nə ölər
torpaq kimi gücü olsa könüldə.

**ŞAMAXI**

Burdan karvanlar keçib
Mənzilləri
Ölkə-ölkə
Qatarları uzun-uzun.
Gah qəmli, gah şad olub
Burdan sənət su içib,
Burda tarix yaşa dolub
Şöhrəti ilə zəngin
hər qarışı - ömür yolumuzdu.
Burdan əsrlər sovusub
Xaqani soraqlı,
Nəsimi soraqlı.
Burdan aylar, illər ötüşüb
Sabir bayraqlı.
Torpağının qəzəbindən
evlər dağılıb, yollar bükülüb.
Yanğınlarında
yerdə daşlar külə dönüb.
Göydə buludlar ütülüb.
Qulaqlardan getməyib
Nəğməinin ahəngi,
dillərdə şerinin dadı qalıb
Azərbaycan Parnası tək
adı qalıb.
Nəğmə-nəğmə şöhrəti
ürəklərə, könüllərə axır.
Bura tarixin ölməz nəqaratı
Şamaxıdır, Şamaxı...

*1947*

## GÖYÇAYIM

Həmyerlim bir qoca dedi: Eloğlu!
Bəs öz vətənindən yazmırsan niyə?
Bizim bu Göyçayın gözəllikləri
yaraşıq olmazmı şeirlərinə.

Düşündüm: qocanın bu sözlərində
məzəmmət varsa da, həqiqət də var.
Göyçayda poema misraları tək
düzülüb yol boyu hündür çinarlar.

Narının şöhrəti tutub hər yanı.
Məxməri gülünün ətri xoş olur.
Payız vaxtı hər kəs bağına girsə,
heyva qoxusundan tez sərxoş olur.

Dedim: - Qoca, yaxşı, borc olsun mənə,
Göyçay tərifinə bir şeir, ancaq
sizə də borc olsun Potu kəndində
Qantəmirə layiq heykəl ucaltmaq.

Gün keçdi, ömürdən düşdü yarpaqlar.
Payızın nəfəsi hər yana doldu.
Gedənlər ayrıldı, qalanlar qaldı.
Vədə gəldi çatdı, vaxt tamam oldu.

Daş otraq üstündə Qafur – Qantəmir
baxır təzələnmiş köhnə yurduna.
Qocanın vədəsi həqiqət oldu.
Bəs şairin vədi?
Söz verin ona!

İstədim Göyçaydan yazam bu şeri
Qarşımda canlandı Vətən torpağı.
Bir kəndin, bir elin, bir obanın yox,
Azərbaycanımın bağçası, bağı.

Vətən torpağını ayırım necə
bu Şəki, bu Ərəş, bu Şirvan deyə!
Bəs Gəncə, Qarabağ, bəs Naxçıvana
Kəğmə qoşmayımmı dur, dayan deyə?

Göyçay vətənimin bir parçasıdır.
Burda doğulmuşam, boy atmışam mən.
Ancaq necə əziz, gözəl olsa da,
Onu ayırmıram böyük Vətəndən,

Mən burdan gedəndə belə deyildi.
İndi Göyçay böyük bir şəhər olub.
Geniş küçələrin hər iki yanı
mərtəbə-mərtəbə evlərin dolub.

Qırmızı qalstuk məktəbliləri
hər yanda görürəm hey dəstə-dəstə.
Bir yanda kosmosdan söhbat açırlar,
Bir yanda yüksəlir kəsmə şikəstə.

Xan çinarlarının, meyxoş narının
şöhrəti ölkəyə yayılıb, ancaq
bu yerin ən böyük şöhrəti, şanı
insandır, yenə də insan olacaq.

Bu adi torpağın qoynunda bir gün
Həbibi, Füzuli dünyaya gəlib.
Bu yerdə, yurdumun qeyrətli oğlu
Həsən bəy Zərdabi qalxıb, yüksəlib,

Burda Qantəmirin günləri keçib,
Abdulla Faruqun şeri göyərib.
İsmayıl Soltanın nəğmələrinə
oynaq bəstələri bu torpaq verib.

Göyçay axşamının həzinliyini
Hər kəs duyar "Bakı gecələri"ndə.
Doğma toıraqların nəfəsi vardır
Göyçayın yaşıldon küçələrində.

İskəndər Coşğunu demirəm hələ,
qaynar bulaq kimi köpürür, daşır.
Vətən davasına igidlər verən
Göyçayın şanına dastan yaraşır.

Bu torpaqdan, sudan alıb qidanı
dünyaları gəzən şeirlərin də.
Bozdağ ətəyində sakit uyuyur
Elin şair oğlu Əli Kərim də.

Altmış yaşım durub qapı ağzında;
ha bu gün, ha sabah gələrəm deyir.
Bu vaxtacan az-çox nə yazmışamsa
doğma Vətənimin şərəfinədir.

Ömür vəfa etsə yazaram yenə
bu yerin qiymətli insanlarından.
Yox, yadımdan çıxmaz qədim Potu da,
bir az da deyərəm Bığır narından.

*Göyçay, sentyabr, 1969*

**ANAMIN KİTABI**

Evimizdə bir kitab vardı,
köhnə,
vərəqləri sapsarı.
Dağ cığırına bənzəyirdi
yazıları.
Anam açardı o kitabı
kədərlənəndə.
Anam örtərdi onu,
könlü qubarlananda.
Bir gün soruşdum:
- Bu necə kitabdır, ana?
Hər gün açırsan onu,
hər gün baxırsan ona, -
yana-yana?
Anam dinmədi.
Gözləri xeyli yol çəkdi.
Mənə elə gəldi, bu an
anam, bütün analardan göyçəkdi;
anam, dünyada təkdi.
Üzümə baxdı -
diqqətlə, sorğuyla, sınaqla,
dedi:
- Mənə yadigardır bu kitab
anamdan.
Ona da anasından qalıb yadigar.
Bir gün,
əbədi ayrılanda biz,
ağlama!
Mənə yas saxlama!
Ancaq, bir zaman

onu gözdən salsan,
o gündən yaz mənim
ölüm günümü.
O gün mənə yas tut!
Və unut.
Yaşa, dilində,
qulaqlarında sükut...

*1967*

**QƏDİM ƏLYAZMASI**

Varaqlar solğun, sarı.
Sətirlərdən neçəsi pozulub;
neçə-neçə varağın kənarı
illərin ağırlığına dözməyib,
ovxalanıb, toz olub.
Lakin
əsrlərdən keçib gələn
xəfif bir təbəssüm,
bir gilə göz yaşı
arzular, ümidlər qalıb.
İnsan qəlbinin hərarəti,
insan fikrinin qüdrəti,
insan ətri dolu
sevinc qalıb,
kədər qalıb.

*1961*

**SÖZ VER MƏNƏ**

Söz ver mənə yoldaş sədr.
Bu nədir!
Dörd milyon saymısan məni!
Axı mənim çoxum o taydadır.

Nə dili dilimdən ayrıdır,
nə nəğmələrinin bəstəsi.
Nə qızlarının şəvə gözü,
nə layla, nə şikəstəsi.
Sən baxma sərhəd dirəyinə,
Qulaq as insan ürəyinə,
Mənim çoxum o taydadır.
Mən demirəm mətləb ancaq saydadır.
Bir tayda günləri qara
Taleyi kürdürsə,
daha artıq haqqım yoxdurmu
bərabərlik dediyin
bu kürsüdə?
Sədr yoldaş!
Salma məni
siyahının axırlarına.
And olsun
qəlbimin həsrət ağrılarına
bu gün olmasa da sabah
qırılacaq zəncirlər!
Könüllər açılacaq.
Onda, özün deyəcəksən
Gəl söz sənindir.
O gün gələcok!
Sən o günə göra
mənə birincilər sırasında
söz ver indi.

*1964*

**İTİ YAZAN QIZLAR**

Salon adamla dolu.
Naxışlı xalıyanıyla döşənib
prezidiumun yolu.
Kiçik masa arxasında oturdu

ili yazan qızlar.
Masa üstündə ucu qəddənmiş
neçə qələm,
neçə varaq kağız.
Natiqlər qalxdı kürsüyə.
Natiqlər düşdü kürsüdən.
Kimi yeni maşınlardan danışdı,
kimi məhsuldan,
kimi balıq kürüsündən.
Qızlardan ikisi yazdı
alnında damcı-damcı tor.
Biri oturdu bekar
qarşısında yonulmamış qələm,
yazılmamış vərəqlər.
Saatlar keçdi yeyin-yeyin,
saatlar keçdi ağır-ağır.
Qızlardan ikisi
yazdı, yazdı, yazdı...
Biri gözü natiqlərdə
əsnədi, əsnədi, əsnədi.
Bu rüsvayçılıq dcyil,
bəs nədir?

*22 yanvar 1967*

**ANAMIN LAYLASl**

*"Anamın kitabı" müəllifinə*

Bu gecə yuxu gördüm.
Gördüm,
çörək dadı kimi tanış bir otaq.
Tavandan nənni asılıb.
Nənnidə bir uşaq.
Nənnidəki uşaq mən idim.
Layla səsi gəlirdi.

Ağ əlinin dırnaqları
qan qırmızı bir qadın
yelləyirdi nənnimi.
Nə anama oxşan vardı,
nə xatırladırdı nənəmi.
Anamın saçları qaraydı,
bununku yox.
Nənəmin gözləri alaydı,
bununku yox.
Anamın başında
kəlağayı olardı,
bununkunda yoxdu.
Nənəmin nəfəsi
Həmişə isti olardı,
bununku soyuqdu.
Mənə layla çalırdı qadın.
Aydın eşitsəm də laylanın səsini;
duya bilmirdim ahəngini, bəstəsini.
Birdən anamı gördüm
qucaqlayıb dizlərini oturmuşdu.
Əlləri qara, arıq.
Əllərinin göy damarları əyri-üyrü,
çubuq-çubuq.
Qışqırdım: ana, ana!
Bu necə layladır?
Bu nədir?
Qulaqlarımı didir,
qəlbimi göynədir.
Nə bəstəsi doğmadır mənə,
nə tanışdır sözləri.
Anam dinmədi.
Baxdım,
sakit göz yaşları
süzülürdü yanaqlarından.
Mənə qorxulu bir şey xəbər verirdi

onun qəm dolu gözləri.
Elə bil soruşurdu:
Oğul!
Hanı mənim laylam, hanı?
Səsim gəldikcə qışqırdım:
Ana! Ana!
Yox, yox!
Unutmamışam sənin laylanı.
Hələ də çırpınır qəlbim,
neçə vaxtdır mən yuxudan ayılanı.
Düşünürəm bu nə həyəcan,
bu nə qorxudur?
Bu ki yuxudur.
Öz-özümə deyirəm:
anamın laylası olmasa,
təəssüf etməzdim, yatıb
bir də yuxudan ayılası olmasam.

*1959*

**ADİ SUAL**

Qorki küçəsində
kitab satılır.
Yaxşı!
Rustavelidə
bol-bol qumaş, ipək.
Çox yaxşı!
Nizami küçəsindən
bir şey almaq istəsək
hara gedək,
yoldaş şəhərbaşı?

*Moskva, 1968*

**POEZİYA, AĞ NÖYÜT VƏ SAİRƏ**

Dərədə boy,
lalə,
yemlik.
Təpələrdə kəkotu.
Yol kənarında hündür dirəklər;
qırıla bilən tellərlə bir-birina bağlı.
Kənd.
Mağaza.
Qəfəslardə arşın malı, sabun.
Yerdə duz tayı, ağ nöyüt çolləyi.
Çolləyin dalında
kitab bağlamaları.
Qəfədə tütünü qarışıq papiroslar;
tüstüsü – zəhər.
Kitablarda insan ümidi,
insan arzusu.
Qəfəsədə yüzillik yubileyi ötmüş
çaxmaq daşı.
Kitablarda sevinc, həsrət, göz yaşı;
birində az, birində çox.
Nöyüt alırlar
çıraq yandırmağa.
Duz alırlar,
şit bişməsin xörək.
Sabun alanlar da var.
Kimi əl-üz sabunu soruşur, kimi paltar.
Növbə gözləyir kitablar:
çəlləyin dalında,
duz tayının dalında.

Yerləri dar, qaranlıq.
Biganəlik kölgəsində qalıb
bilik, işıq.
Mən də varam orda, sən də.
Lənətə gəlsin belə satış üsulunu!

Mən cəhənnəm,
heç olmasa,
çıxarın o rütubətdən, qaranlıqdan
Füzulini!

*1964*

**BOLŞEVİK YAZI**

Bir səs deyir:
Rza, durma!
Rza, yaz!
Yaza, yaz!
Qarşı gündən gülümsəyən
yaraşıqlı yaza, yaz!
Qırçın tarla,
faraş qoza,
bol pambıqlı yaza, yaz!
Bu səs mənə əmr edir.
Bu səs
səsi səsim olan
bir varlığın əmridir.
Bu səs deyir:
Rza, durma!
Rza, yaz!
Yaza, yaz!
Kəlmələrin bir-birilə yarışsın!
Səsin,
"pambıq, pambıq" deyən
qudoklarla sarışsın!
Bu hayqırış,
bu tələb
gündüz boylu
tarlalara daraşsın.
Rza, durma!
Rza, yaz!

Gəlişilə
yağıları qamçılayan
yaza, yaz!
Bu yaz, bolşevik yazı,
pambıq yazı.
Anlatmaz bu yazı,
Hər sətrində
köhnə dünya xumarlanan
sayrulu,
həzin yazı.
Mənim şerim bu günün,
Bu gündür mənim şerim.
Bu günsüz yarın olmaz.
Bu gün yoxsa, yarınlar da qurulmaz.
Bu gün deyir:
pambıq ver zərbəçi dəzgahlara!
Qoyma yadlar ölkənin
sərvətini apara!
Fabrikalar baxmasın
özgələrin əlinə!
Özün ək!
Özün becər!
Ödəsin ehtiyacı
öz yurdundakı əllər.
Elə isə yubanma!
Günlər dayanar sanma!
Rza, durma! Rza, yaz!
Çoxları yazdı kəndin
dərdini yana-yana.
Heyhat ki,
çıxarmadı,
çıxarmaz
o xəstə kəndlərin
xəstə dərdləri

dərdləri bambaşqa olan
kolxoz qəlbli
kəndimizi bir yana.
"Kəndin dərdi"[*] kəndin dərdi deyildir.
Bu dərd, yeni kəndlərin
düz yolunu əyildir.
Şəhərin dərdlərini
yoxaltmaq kəndin dərdi.
Kəndin də dərdlərini
yoxaldacaq şəhərdir.
Bizim şəhər,
yeni şəhər, proletar şəhəri.
Yenə odur,
bir səs deyir:
Rza, durma!
Rza, yaz!
Bolşevik templi
pambıqlı yaza yaz!
Şair göyləri gəzir
dərdlərin sorağında.
Dərdlər uzaqda deyil,
onlar göz qabağında.
Kənd susuzdur,
kəndə su! Axmasın qoy
gendə su!
Gümüş belli yelmar kimi,
şütüyərək qaçan Araz!
Sənə pambıq çöllərinin
tələbi vardır bu yaz.
Bağrı yarğanlı
geniş çöllər, Araz,
boz muğanlarla
yanıq millər, Araz,
sənə həsrətli bu gün;

[*] “Kəndin dərdi”- M.Rəfilinin şeridir.

mehriban bir anasan,
onları çək,
bağrına bas!
Çağır çıxsın
yarışa Kür.
Bəlkə ilanlar mələyən
boz çöllərlə
barışa Kür.
Sarışa Kür,
qarışa Kür.
Süd aydınlıq gecələrdə
al lentlər kimi titrək,
qıvrımlarla burulan Kür!
Gah dəlicə coşub daşan,
gah həddini keçib aşan,
bəzən əmlik quzu kimi,
qaçıb-qaçib yorulan Kür.
Bəzən sahilini sökən,
acığını elə tökən.
Bəzən bəndlər arasında
ilan kimi qıvrılan Kür.
Gah köpüklənib lillənən,
gah çılğın kimi dillənən,
bazən sakit-sakit axıb,
gündüz kimi durulan Kür.
Bəzən səndə tufan yapar
bir cilovsuz acı ruzgar.
Bəzən saçlarını darar
bir mehriban yel, nədon, Kür?
Dalğasında gümüş ayı,
nazlı-nazlı yellədan Kür.
Göy örtüklü,
yaşıl donlu
gərdənliyi güllərdən Kür!
Doğru
duydum saya gəlməz

sonsuz gözəlliklərini.
Fəqət duymaq -
Sevmək deyildir, Kürüm!
Nəyə lazım gözəlliyin, -
su çəkənlər ac qalarsa?
Sən axırkən qürurunla, -
göy tarlalar saralarsa?
Qol-budaq at,
böyü, Kürüm!
Al qoynuna
sənə həsrət
obaları,
köyü, Kürüm!
Qulaq vermə şairin
"lirik" misralarına.
Ləkəsiz alnınla çıx
son ömrün baharına!
Bax, vəsiqə yazılı,
gediş yolları açıq!
Əyilib keçmə, Kürüm!
Qoy səninlə öyünsün
pambıq tarlasına axan
hər mehriban çeşmə, Kürüm!
Yetər əyildin keçdin,
qoca tarıx boyunca!
Açılmadı bir aynan,
Sevinmədin doyunca.
Sənə xor baxanlar qoy,
İndi əyilsin, Kürüm!
Sən bu coşqun həyatdan
ayrı deyilsən, Kürüm!
Meydan sənin, söz sənin.
Sənə bu gün
tələb verir
bu sosialist vətənim!

Bu sadə bir umğu,
bir arzu deyil.
Bu tələbdir,
yaxşı bil!
Göz işləyən tarlaları
pambıqlar örtsün bu yaz!
Qoruqlarda,
subasarda
qalmasın bir yer boyaz!
Ağ örtüklü qozalarla
sıralansın pambıqlar.
Başı qarlı dağlar kimi
topalansın pambıqlar.
Bu yaz
ilin dörd fəslindən biri olan yaz deyil.
Bu yaz pambıq yazıdır.
Bu pambıqlı yeni il
mübarizə yazıdır.
İnan ki, biz,
aşqın-daşqın işimizlə
onun böyük planını
tamamlaya bilərik.
Hər açılan qozası
düşmənə bir kəfənlik.
(Düşmənlik olmamaqçın,
qızışmalı düşmənlik!)
Bu yaz,
sınaq yazıdır
mübarizə yollarında.
Mübarizə
bu gün də var
yarın da.
Mən də onun
ən ön sıralarında.

*Bakı,1931*

**NİGARANLIQ**

Çöldə yağış yağır,
mən onu görmürəm,
ancaq duyuram;
küçədən keçən maşınların
təkər səsindon,
bir də pəncərəmin çöl səkisindəki
sarı nərgizin
əsəbi insan kimi diksinib titrəməsindən.
Düşünürəm:
indi asfalt küçələrdən
su axır,
tökülür dəmir qapaqlı su yollarına.
Qarışır bir-bir sızqovlar,
köpüklü çay olur;
axıb gedir dənizə.
Kim bilir, yağış yağırmı
şumu kəltən-kəltən,
yolları tozlu,
əkinləri qızdırmalı dodaqlar kimi
cadar-cadar
kəndimizə?
Düşünürəm:
bu ildəmi
traktorların sükanına,
alaqların tikanına,
kətmənlərin sapına,
hədər yerə töküləcək
neçə insan alnından axan tər?!
Rahat qoymayır məni nigaranlıq.
Bu ildəmi
Dolmayacaq pambıq?!

*27 yanvar 1962*

**YAĞIŞ**

Neçə gündür yağış yağır,
Necə yağır, necə yağır.
Səhər yağır.
Axşam yağır.
Gündüz yağır.
Gecə yağır.
O yanda səhralar yanır,
burda yağış heçə yağır.

*Cakarta, 1961*

**ULDUZ YOLU VƏ DOLU**

Yağış, yağış, yağış deyib
dörd gözlə gözlədilər yağışı;
yusun boynunu burmuş
tozlu yarpaqları,
sulasın təşnə torpaqları
bir yaxşı-yaxşı.
Gözlədilər nə qədər;
ey... günlərlə
arzular nisgilə
dönənə qədər.
Yandı əkin, yandı bağ-bağat,
Quruyub daş-torpağa yapışmış
cücülərə,
axşam-səhər böyürən
mal-qaraya baxdıqca:
uzaq ulduzlara,
yollar yorğunu,
çiyni səhəngli
gəlinlərə, qızlara,

işığı bir çimdik
ayparaya baxdıqca
Yağış, yağış, deyib gözlədilər.
Gur leysan olmasa da
bir çobanaldadan,
heç olmazsa,
bir çiskin olsun dedilər.
Yağmadı.
Yağmadı.
Yağmadı.
Ümidlər qurudu kor bulaq kimi.
Daşlar bərkidi torpaq kimi.

Sarmaşıqlar dolaşdı budaqlara
sarı qolbaq kimi.
Qız-gəlinlər
Neçə həftə, neçə ay
əlvan paltar geymədi,
boyunbağı taxmadı.
Göy açıq, üfüq təmiz.
Yağmadı.
Yağmadı.
Yağmadı.

Bir gecə yarısı
gurladı göy şaqhaşaq.
Necə gurladı, necə!
Parça-parça işıq cındırı ilə
doldu, boşaldı gecə.
Ağaclar əsdi əsim-əsim.
Yeddi dərə sel ağzında gedən
çaylaq daşları kimi töküldü
göy gurultusunun səsi.
Yağdı, nə yağdı!
Amma... Nə yağdı?

Səhər göynətdi gözləri
ətrafdakı mənzərə.
Yarpaqlar xırman-xırman,
çubuqlar qucaq-qucaq
döşənmişdi yerə.
Sanki gecə yağan dolu
nağıllardan çıxıb gəlmiş
bir Dəmirdişdi.
Daş-torpağı oyub,
bağ-bağatı kor qoyub,
taxılı, pambığı kökündən biçmişdi.
Kaş yumulaydı yolu,
yağmayaydı bu dolu!..

Alim yoldaş!
Sözüm yox,
gedək Aya da, ulduza da.
Birinci yaz məni.
İstəyirsən qış çıxmamış apar,
istəyirsən bu yaz, məni!
Gedək aya da, uzaq ulduzlara da.
Ancaq əlac lazımdır axı
neçə il və neçə ay
insan zəhməti yemiş,
pöhrələmiş, böyümüş
yaşıl susuzlara da.
Açılır qarşımızda
kainatın sirləri də,
ulduzların yolu da.
Çox gözəl!
Vaxt deyilmi, əmrimizə tabe olsun
külək, isti, soyuq da,
qar, yağış da,
dolu da?!

*1962*

## "OLUM YA ÖLÜM"

Gözlərimi qapadım.
Söndürdüm son ulduzu...
Hamletin səsi gəldi qulağıma:
"Olum ya ölüm!"
İstədim yaxınlaşım ona.
Qurğuşun asıldı ayaqlarımdan.
Gedə bilmədim.
İstədim deyəm: "Hamlet!
Nə qəmindir?
Çırpınma belə.
Atanın qatili
öz əmindir".
Deyə bilmədim.

Gözlərimi açdım.
Pəncərədə yandırdım günəşi...
İstədim çağıram Hamleti də,
Layerti də
deyəm: balalarım!
atın ədavəti, kini!
Xəbəriniz varmı,
dünən dolu vurub
dağ ətəklərində əkini.

*May, 1966*

## QUZU

Canavar apardı quzunu,
Yazıq quzu, yazıq quzu!
Bilirəm, yaman ağrıdı canın
canavarın dişləri
keçəndə ətinə.
Ancaq, yaxşı ki, bilmədin

bu itkidən
nələr çəkdi çoban,
düşüb sənin möhnətinə.
Bilsəydin,
ağrına ağrı deməzdin.
Bilsəydi, bəlkə canavar da
heç səni yeməzdi.

*Fevral, 1962*

**SARI DANA VƏ BALACA QIZ**

Səs düşdü Göytəpə kəndinə:
"Sarı dana xəstələnib!"
-Necə, san dana?
Sazaqlı külək kimi
xəbər yayıldı hər yana.
Sədr gəldi,
partkom gəldi,
baytar, bir də briqadir.
Hər gələn soruşdu:
- Azarı nədir?
Baytar qulağını qoydu
dananın sinəsinə.
Hamı dondu qaldı.
Baytar tövşüdü, tərlədi.
Dana öz bildiyi kimi nəfəs aldı.
Baytar qaşlarını çatdı.
Hamı qəm dəryasına batdı.
Baytar dedi:
- Süddədir illəti.
Sağıcı Gülxaranın
gözlərinə çökdü dünyanın zülməti.
Baytar dedi: tez olun!
Tənzif, pambıq verin! Qarnını bağlayaq,

İsti su gətirin ayaqlarına!
Damcı dərman da lazımdır
qulaqlarına.
Nüsxə yazdı bir qarış.
Maşın ürkək keçi kimi sıçradı:
sədrin buyruğu ağzından çıxmamış.
Handan-hana
qoca mühasib gəldi.
Baxdı, ah çəkdi
Dedi: - Yazığın gəlsin bizə,
sarı dana.
Amandır bu zülmü eləmə
İllik planaf
Üç gün, üç gecə
Gülxara ayrılmadı
sarı danadan.
Dana sakit yatanda dedi:
agrın alım.
Dana qurcuxanda dedi:
Can!
Hər üç saatdan bir
verdi su dərmandan,
hər altı saatdan
toz dərmandan.
Nə evinə gedə bildi.
Nə urvalıq apara bildi
uşaqlara dəyirmandan.
Tənzifə qızmadı ürəyi,
dananın qarnına bağladı
gəlinlik şalını.
Sədr hər axşam, hər səhər,
şəxsən,
soruşdu dananın əhvalını.
Partkom gündə bir dəfə
Xəbər aldı:
- Necədir, sarı dana?

Əhvalat uzundur, nə deyim.
Bəsdir bunu desəm
dana ölmədi azardan.
Ancaq Gülxaranın
qaragöz kiçik qızı...
Beşcə qulac bez aldılar bazardan.

* * *

Quyruğunu qoyub belinə
qaçır, tullanır
sarı dana indi.
Ancaq, soruşan yoxdur,
yaşıl otlar içindəki
o balaca qəbir kimindir!

## ÇÖRƏK SATAN QIZLAR

*"Ey, dərbədar gəzib ürəyi qanı olan çocuq"*
***Sabir***

-Əmi! Əmi! Əmi!
Səs məni dayandırır.
- Əmi, çörəyə bir bax!
Tez ol, əmi, tez ol,
vay, əlimi yandırır.
Əmi! Əmi! Səs artır.
Ətrafımı bürüyür
çörəksatan balalar,
qafiyəli şeir də deyirlər:
- Məndən kim çörək alsa,
bal alar.
Gəl təndir çörəyinə
ipisti, yumyumşaq,
sapsarı.

Penisilindən yaxşı sağaldır naxoşları!
Baxıram ən kiçiyi altı-yeddi yaşında.
Ortancılı, böyüyü halay vurub başımda.
- Çörək var a, çörək var. -
gözlərimə soxurlar.

- Çörək var a, çörək var.
Biri qıvrım qarasaç,
irigöz, açıqalın,
əynində çitdən köynək,
ayaqları yapyalın.
- Qızım, hansı məktəbdə oxuyursan
de görüm?
- Odey ha, bax o hündür,
Yekə, o ağ məktəbdə.
Çörək var a, çörək var!
- Yox, əmi, yalan deyir
Heç bir yerdə oxumur.
Qız oğlana çəmkirir:
- Vələduzna toxumu!
Yekə qalmaqal düşür.
Saç əldə,
Boğaz əldə.
Yaxa şırım cırılır.
Çörəklər toz içində.
Əl-üz tey qançir olur.
Qırmızı yaxalıqlı bir nəfər görünəndə
Hər yan susur daş kimi.
Uşaqlar gülə-gülə
dağılışıb gedirlər,
mehriban yoldaş kimi.
Çörəklər də yox olur
bir anda.
Bir mən,
bir də qırmızı yaxalıqlı bir nəfər

qalırıq bu meydanda.
Gözümdən, qulağımdan çəkilmir bu mənzərə.
"Əmi, çörək!" -
sözləri sanki
hopub hər yerə.
Qulağımda bu səsdir,
gözlərimdə
qıvrımsaç qızın gözlərindəki
şeytan gülüş və kədər.
Bir də neçə məktəbdə,
neçə-neçə sinifdə boş yerlər.
Bəzi adamlar buna
"tərbiyə işimizdə
çatışmazlıq, nöqsan";
bəziləri "keçmişin qalıqları" deyirlər.
Düşünürəm: qalıqlar!
Bu acı xırdalıqlar,
Nə qədər qalacaqdır.
Qalıqların yuvası dağıldığı
haçaqdır!

*1962*

**ANA**

Min-min ana içində,
anamı tanıyaram;
gözlərimi bağlasalar belə.
Tanıyıram
ayaq basdığı torpağın qoxusundan,
qəlbimə dolub, boşalan
onu itirmək qorxusundan.
Ana südü təmizdir.
Analar əzizdir.
Ancaq mən,
anamı
çox sevirəm hər kəsdən.
Əbəs deyil ki, vətənə ana deyirlər;
vətən də əzizdir
ana qədər.

*1957*

**ANA, NAĞIL DÜNYASINA APAR MƏNİ**

Ata olanda bildim
övlad nədir:
yaş deyil ki, yeri?
Yatanda, gözünə işıq düşmür ki?
Niyə soyuqdur əlləri?
Görəsən, gecələr üşümür ki?
Bu qayğı, bu nigaranlıq
ata olandan sonra
mənə tanış oldu.

Külək-külək,
isti-isti,
soyuq-soyuq,
yağış-yağış oldu.
Mən ana məhəbbətindən doymamışam, -
əgər doymaq mümkünsə.
Anam məhəbbətini yüz yerə böldü
vaxtını,
qayğısını,
gözünün işığını,
ürəyinin taqətini
bir insan gücündən
qat-qat çox olan işini
bölən kimi.
Yaddaşımın cığırma düşüb
gedirəm bu günlərdən dünənlərə.
Yəqin hər şey belə qəribə gəlir,
riqqətli gəlir
illərdən sonra,
yenidən doğma yurduna dönənlərə.
Sözlərini xatırlayıram, ana!
"Soyuqdur.
Qayıt pencəyini gey!"
Öz-özümə təəccüblə deyirdim:
Soyuq hanı?
O zaman bilmirdim,
şaxta, sazaq deyil,
nigaranlıq üşüdür ananı.
- Bəlkə bulud gəldi göyə, - deyirdin.
Bəlkə gec qayıtdın evə.
Bəlkə yağış yağdı,
su keçdi ayaqlarına.
Səhərdən günortaya
necə qalacaqsan məktəbdə
ac qarına!
Bir dayan, qulaq as!

Bütün bu suallara,
bu nigaranlığa
bir cavab verərdim:
- Heç nə olmaz!
Gecənin bir vaxtı
üzümdə bir nəfəs duyardım.
Sən idin əyilib,
nəfəsimi yoxlayan.
"Qızdırması yoxdur ki!"
Nə biləydimki,
mən beşikdə yatanda,
yuxuda qovlayanda
qanadları əlvan kəpənəkləri,
gecəyarı
sən,
"Dağda darılar,
Sünbülü sarılar" deyə
mənə qurban verirdin
qoca qarıları.
Tez-tez könlümə laylan düşür,
könlümə nağılın düşür.
Elə düşürki,
göynəyinə dözə bilmirəm.
İstəyirəm qaça-qaça
Qayıdam uşaqlıq günlərinə.
Bir-bir atam yollara
şöhrəti, adı, imtiyazı -
nəyim var;
kitab, dövlət, yazı.
Dənizə həsrət,
bürküdən təng adam
paltarını soyunub
dalğaların qoynuna atılan kimi,
atılam çılın-çılpaq,
uzaq günlərin axınına.
Körpə quşlar özünü günəşə verən kimi
o gunlərin xoşluğuna verəm qəlbimi.

Yaşım altmışa yaxın.
Qəlbimdə, beynimdə illərin yüku.
Oturmuşam otağımda.
Xəyalım illərin
uzaq-uzaqlığından qayıdıb;
yorğun-arğın.
Məni, düşmən qoşunu kimi
aralığa alıb
dilsiz divarları otağın.
Səsim çatmır, ünüm yetmir deyəm:
- Ana! Ana!
Bir cırtdan nağılı danışsana!
İlləri arxada qoydum,
yol dirəkləri kimi.
Bir zaman,
su altında kim çox qalar deyə
yoxlayırdım qəlbimi;
ağır-ağır əllini,
yeyin-yeyin yüzü sayınca.
İndi,
Nazik büllur vaz kimi
qorxa-qorxa gəzdirirəm onu.
Sakit ola bilmirəm
o, sakit olmayınca.
Səsim çatmır, ünüm yetmir deyəm:
- Ana! Ana!
Bir cırtdan nağılı danışsana!
Ayağına tikan necə batdı.
Görəsən, onun ayağı da,
Tikandan
Mənim ürəyim kimi ağrıyırdımı?
Nənəsi tikanı çıxardı
atdı təndirə!
Ürəyin ağrısını da
çıxarıb atmaq olarmı
tikan çıxaran kimi?

Əgər olarsa, ana!
And içirəm südünə
mən qayıtmaram üstünə
"ağrımı geri ver!" deyə.
Neyləyim,
səsim çatmır, ünüm yetmir deyəm:
- Ana! Ana!
Bir cırtdan nağılı danışsana!
Cırtdan necə gah o kola,
gah bu kola düşdü?
Cırtdan necə üşümüşdü?
Ayağında tikan
necə gəldi cırtdan?
Sonra çörəyi götürdü, qaçdı!
Eləmi?
Yoxsa illər silib yaddaşımdan
nağılını Cırtdanın.
Bəlkə bu çörək əhvalatı
aclıq illərindən qalıb
yadımda yadigar.
Axı ömrün nə qədər
cirə çörəkli,
səksəkə ürəkli
günləri var.
Bəlkə südə qığ doğrayan
motal papaqlı çoban,
o da mənim fantaziyamdan doğub,
Səsim çatmır, ünüm yetmir deyəm:
- Ana! Ana!
And içirəm südünə
mən, qayıtmaram çobanın üstünə.
Demərəm çörəyimi qaytar!
Nə qoyun verib, gəlin alaram,
ne gəlin verib, saz.
Nə nəğmə qoşar,
nə saz çalaram.

Apar məni
cırtdan nağılının dünyasına!
Nə xəstələnərəm,
Nə qocalaram.
İndi nəvəmə danışıram:
Biri vardı, biri yoxdu!
O tez kəsir sözümü.
Niyə yoxdu, niyə? -
deyə-deyə.
Bir gün danışacaq o da
nəvəsinə
bu qocalmayan,
bu ölməyən,
Cırtdan nağılını.
Neyləyim!
Səsim çatmır, ünüm yetmir deyəm:
- Ana! Ana!
öyrətsənə mənə,
necə gedim
illərin axarı tərsinə!
Ayağına tikan batmış
Cırtdanın ölkəsinə.
İldə bir ay məzuniyyətim var.
Nə dincəlməyə.
nə əylənməyə
getmək istəyirəm,
nə yaylağa.
Bircə dəfə gedə bilsəydim
Cırtdan nağılına.
Bu mümkün deyilsə, ana!
Nağılı çağır gəlsin bizə;
alçaq eyvanlı
çiy kərpic divarli,
yeddilik lampalı evimizə.
Mən də gəlim, sən də.
Sən otuz beş yaşında,

mən səkkiz.
Sən danış, mən qulaq asım
Cırtdan nağılına;
radiosuz,
nigaran xəbərli
Vyetnamsız,
raketsiz.

*Dekabr-yanvar, 1966-1967*

**CIRTDAN NAĞILI**

Biri vardı,
biri yoxdu,
bir Cırtdan vardı.
Günlər keçdi,
illər ötdü;
nə Cırtdan qocaldı,
nə nağıl qurtardı.
Dünya girdi
neçə yüz..,
neçənci savaşına...
Cırtdan qocalmadı.
Alma düşdü Nyutonun başına;
Cırtdan qocalmadı.
Yerə qurşaq bağladı Magellan.
Yelkənli gəmi atom buzqıranı oldu -
qocaman.
Cırtdan qocalmadı.
Ulduzları düzdü yan-yana
Qaliley.
Kosmosa yol açdı
insan sürücülü polad ley.
Cırtdan qocalmadı.

*1914-cü il*

toplar torpağa bağırdı:
"Havaya qalx!"
Güllələr insana əmr etdi: "Əyil!"
Biri vardı, biri yoxdu,
bir Cırtdan vardı.
Günlər keçdi,
illər ötdü,
nə Cırtdan qocaldı,
nə nağıl qurtardı.

Torpağa ilkin ütü çəkdi
ingilis tankları.
Nikolayı taxtından saldılar;
sonra növbə gəldi müvəqqətiyə.
İnsanlığa yeni nəğmələr
oldu hədiyyə.
Başladı tarixin
"kim kimi" sınaqları.
Cırtdan qocalmadı.

Dünya rahatsızdır hələ.
Hələ xeyli yol var
dinclik adlı mənzilə.
Bu yolda qocaldıq neçəmiz.
Qurtuluş səsiylə dolu keçdi
gündüzümüz, gecəmiz.
Cırtdan qocalmadı.
Biri vardı, biri yoxdu,
bir Cırtdan vardı.
Günlər keçdi,
illər ötdü,
nə Cırtdan qocaldı,
nə nağıl qurtardı,
Belə, dostlar, belə!
Gülə-gülə!

*1965-1970*

# *Uşaq oyunları*

**KİMİN ƏLİ?**

Bir oyundu məzəli:
bir kürəkdə neçə yumruq,
Qışqırardıq dörd yandan:
- Əl üstə kimin əli?
- Filankəsin?
- Tapmadı! Hay, tapmadı!
Qaldırın, vurun, yalandı!
Günlər keçdi...
İllər dolandı...
Düşünürəm indi:
təki yalanlar belə olaydı;
bundan ağ,
bundan iri yox.
Yalansız dolanaydı insanlar -
hamısı!
Neçədən biri yox.

YADIMA DÜŞDÜ

Qa... qa...
bura bir quş qondu.
Hanı o quş?
Bir yorğunluq var,
bir də
arxası bilinməzlik
bir yoxuş.

1. BALBALACAN

Balbalacan, batır keçi!
Qoz ağacı, qotur keçi...
Yadıma salma, salma!
Balbalacan...
Göydən düşən üç alma!
Yadıma salma!
Bilirsənmi orda
nələrim qalıb, nələrim?
Nə ünüm yetir,
Nə çatır əllərim.

2. BALBALACAN

Balbalacan, batır keçi,
Qoz ağacı, qotur keçi,
Yırıl, yırtıl!
Su iç, qurtul!
Gündə neçə kərə dedirdərdik sənə,
yenə,
bir də, bir də deyərdik.
Qoğal üzü yumurtalı olsun,
fətir girdə, deyərdik.
Sən də deyərdin
Balbalacan... bal...
Yorğun səsin hələ də
qulaqlarımdadır.
Düşünürəm yana-yana;
Möhnətlərinin haqqı-sayıdır indi
gecələrim, gündüzlərim
səninlə doludur, ana!

**QA... QA...**

Qa!.. Qa!..
Bura bir quş qondu:
bu gördü,
bu tutdu,
bu bişirdi,
bu aşırdı.
Buna qalmadı
Çeçələ bul-bul-bul!
Bayram müjdəçimiz
bəzəkli xonça idi,
üç boyumuzdan uca idi.
Əlvan şamlar
yanardı axşamlar.
Bizim gündüzümüz də vardı, axı.
Maraq, gözləmə
yandırır, yaxır.
Səməni necə ləng göyərir,
necə ləng!
Saçaqlı konfetlər
qəşəng-qəşəng.
Bir də,
arzunun sürəti,
sürətin yorğun ayaq səsi.
Maraq göynəyi,
istək həvəsi.
Olsun, olsun.
İncimələr yüz qat olsun,
Canlı, hərəkətli,
insan nəfəsli həyat olsun -
Yol yoxdur geriyə -
Könül sevinə,
kədərlənə,
kiriyə.

*1969*

**LAYLALAR**

"Layla dedim yatasan..."
Qulaqlarımda
uzaq-uzaqdan gələn
bu səs.
Bir də inqa-inqa beşiyin
bir səsli cırıltısı,
bir də ala-bula pişiyin
yumşaq xorultusu.
"...Qızılgülün içində
şirin yuxu tapasan..."
Anamın ara-sıra gələn
yorğun əsnəməyi.
"Layla, körpəm, a layla!
Allah səni saxlasın
çiçəkdən, qızılcadan..."
Günlər keçdi,
illər keçdi,
sıra-sıra;
gah mülayim,
gah qasırğa.
İndi nə çiçəkdən qorxuram,
nə qızılcadan,
nə damdabacadan.
Ancaq qoruna bilim
ucuz tərif laylasından,
arxayınlıq pasından.

*Bakı-Göyçay, 1977*

**BABAM KİMİ VƏ BU GÜNLÜ ADAM KİMİ**

Mənim də babam kimi iki gözüm var.
Onun gözləri qaraydı,
mənimki ala!
Onun əlləri qabarlı idi,
mənimkilər mürəkkəblə boyalıdır.

Babamın ən uzaq mənzili
Zərdab kəndi idi.
Mənim yaxın mənzilim -
Moskva, Vyana.
Babam arxalıq geyərdi,
mən müasir kostyum geyirəm.
Babam lailahəilləllah deyərdi,
mən mübarizə deyirəm,
azadlıq deyirəm.
Babam da şeri sevərdi,
mən də sevirəm.
O, Qumrunu, Racini sevərdi,
mən Füzulini, Sabiri.
Nə o bu günün adamı idi,
nə mən o günün.
Həyatda hər şey kimi
adətlər, vərdişlər də
doğulur, ölür, doğrulur.
Babam öz vaxtının oğlu idi,
mən öz vaxtımın oğlu.
Babam avam idi
indiyə görə.
Mən avamam sabaha görə.
Ay tutulanda vahiməyə düşərdi babam.
Mən Aya adam göndərəcəyəm
baxsın görsün nə var, nə yox.
Mən də dinclik, əmin-amanlıq sevirəm
babam kimi.
Ancaq, ümidim nə göylərədir,
nə möcüzəyə.
Əl qaldırmıram yuxarı,
"Ya rəbbi, sən bilən yaxşıdır" deyə.
Silahım var -
on modem tipli.
Göydə tünlükdür
Yerin hər iki üzündən qalxan peyklərdən.
Babam qoçaq idi.

Yaxşı tüfəng atardı.
Bir koldan qalxan,
sağa-sola millənən turacların
vurardı ikisini də.
Hayıf! Hayif! - deyərdi
bir çimdik barıta,
bir dənə qırma itkisinə də.
Mən də ovçuluqda mahirəm,
atdığımdan dəyəni çox olur.
Ancaq ovçuluq deyil peşəm.
Sərrast atıram deyə
nahaq qan tökməmişəm.
Hesablayıb mərminin
uçuş əynəmini,
topu elə ataram ki,
təpə dalında hədəfə dəyər;
qələm alıb rəqəmləri
yerbəyer düzsəm əgər.
Babam gözünə güvənirdi,
mən elmin sözünə.
Babamla çox oxşarımız var:
bir çox da oxşarsızlığımız.
Onun öz dünyası vardı:
qənaətləri, ehkamları,
anlamları, dəbləriylə.
Mənim öz dünyam var:
elektron maşınları,
səsdən iti sürəti,
əlacsız dərdlərə - dava-həbləriylə...
Mən budağam,
babam gövdə.
Yaşamışıq, yaşayırıq, yaşayacağıq
Dünya adlanan,
bu darısqal evdə.
Bəlkə aydın demədim.
Bəlkə dolaşıq yazdım.

Babam olmasaydı,
mən də olmazdım.
Ancaq qala bilmərəm
babam kimi.
Gələcək günlərə aparmalıyam
mürəkkəb əsrimi.

*1969*

**DİN, ÜMİD, İNAM**

Babam müsəlman idi,
nənəm də,
uşaqlıqda mən də.
Ancaq mən,
mənasını bilmədən,
inanırdım o dünyaya,
inanırdım cənnətə, cəhənnəmə,
Allahın hər şeyə qadir olduğuna.
Bəzən unudub cənnəti, cəhənnəmi,
düşünürdüm uzun gecələr;
"Nənəm cəhrəni incidir, yoxsa
Cəhrə nənəmi?!"
Cənnətə marağım çox idi.
Çünki gördüyüm həyatın
görmədiyim cənnətə bənzər
bir şeyi yox idi.
Cəhənnəm... o başqa məsələ.
Quyruqsuz şeytanları demirəm hələ.
O dünya çox düşündürürdü məni.
O qədər ki,
bəzən ölmək istəyirdim:
görüm o dünyada nələr var.
Ancaq "ölüm adamı çox incidir" deyə
məni qorxudurdu uşaqlar.

Böyüdükcə dinə bələd oldum.
Riyakarlığa,
mənzilsiz, müddətsiz vədələrə,
və mütiliyə qarşı
qəzəblə, nifrətlə elə doldum,
birgünlük yoldan
aydın görürdüm
vəzlərin yalanını.
Etiqadımın yarısı
uşaqlıqda itdi, batdı,
gənclikdə tulladım getdi qalanını.
Bilmirəm, əvvəlkindən yaxşı oldum,
ya pis oldum.
Axır ki, oxuyub, öyrənib
əməlli-başlı ateist oldum.
Mən həmişə ümidiə yaşamışam
uşaqlıqda da, böyüyəndə də.
Ana döşündən süd əməndə də,
quru çörək yeyəndə də.
Ümidim böyük də olub,
balaca da.
Gah bir döşünü sorub anamın
doymayanda,
o biri döşünə ümid bağlamışam.
Gah məktəbdə imtahan qiymətimi,
dərzidən novruz köynəyimi,
sevdiyim qızdan məktub
gözləyib ağlamışam.
Gah ümidim böyük olub,
uzaq olub.
Yer üzündə səadət,
ana dilimin
ən gözəl şerini yaratmaq,
insan qardaşlığı
və bu kimi...
Bəzən doğrulub,

bəzən qirılıb ümid.
Düşünmüşəm:
ümidim doğruldu, kim oldum?!
Doğrulmamış kim idim?!
Bəzən susub könül.
Ömrün toranlığı içində,
əlçatmaz, ünyetməz,
uzaq bir mayak kimi,
yanıb, sönüb ümid.
İstər köksünü parçala,
istər qəlbini did!
Arzulara səs verməyib ümid.

Din belə.
Ümid elə,
Bəs inam?
İftixarla demişəm:
mən insanam!
İnam –qanad!
İnam – məqsədli həyat!
İnam-qüdrət!
İnam - sahilsiz məhəbbət!
İnam ümidim olub,
dinim olub.
Nə fərqi var,
inandığım nə olub, kim olub.
Din!
Yaxşısını, pisini anlayıb
özüm ayrılmışam ondan.
Ümid!
İntizarda qoyub məni çox zaman.
Qaldı ki, inam!
Yox, yox, əzizim,
səndən ayrılmaram!

*fevral, 1962*

**DİN HAQQINDA**

İki dəfə qorxudublar məni
din sözü ilə:
bir inananda,
bir inanmayanda.
İnandığımız vaxt
hər şeyi dinə bağlayıblar.
Bu olar!
Bu olmaz!
Bu savab,
bu günahdır.
İnanmayanda, yenə
məni əsarətdə saxlayıblar.
Bu olar!
Bu olmaz!
Bu ateizm,
bu mövhumatdır.
Əvvəl din lehinə,
dinə məhəbbət üçün,
sonra din əleyhinə,
dinə nifrət üçün.
Din əvvəl nə idisə
Yenə odur.
Əvvəl küfrü ilə qorxudurdu,
indi rəğbəti ilə qorxudur.

*1969*

**ELƏ DEYİL, BABALAR**

"Bu dünya beş gündür,
beşi də qara!"
Kimdən qalıb,
Hansı uğursuz idimdən qalıb
bu ağrılı,

bu ümidsiz,
bu yanıqlı sözlər?
Mübarizələrin məğlubiyyətindənmi?
Dünya beş gün imişsə,
babalar,
bu beş günün
beşi də qara imişsə,
babalar,
ömür-ilk gündən,
son günə qədər
ümidsizlik əlindən
fəryad, haray imişsə,
babalar,
necə dözdünüz buna
göynəyə-göynəyə,
yana-yana!
Bəs gələcək günlərin çağırışı,
bir zəfər nəğməsi kimi,
səslənmədimi qulaqlarınızda?
Göyləri buludlu,
yolları çovğunlu keçdimi
qışınız da, baharınız da?!
O qara günlərin
dözümünü, tabını
hardan aldınız?
Nədən zaman-zaman
günəşin kölgəsində qaldınız?!
Dünyanın qara rəngi
sizə qaldı niyə?
Yaşadınız "Şükür! Təvəkkül!"
deyə-deyə,
Yox, belə deyil,
Belə ola bilməzdi,
babalar!
Axı igidliyiniz
yüzil-yüzil

dastanları, nəğmələri gəzdi,
babalar.
Babək də siz oldunuz,
Nəsimi də, Koroğlu da.
Bəzən İbrahim bıçağı altına düşən
dilsiz-ağızsız toğlu da.
Tarixdən silə bilməsək də,
bu gündən, gələcəkdən silinsin
İsmayıl qurbanlığı.
Yaşadaq, yaşatdıraq
haraysız qəhrəmanlığı.
Dünya  beş gün olsa da,
mənimçin,
səninçin,
xalq üçün beş gün deyil.
Qaldı ki, günlərin rəngi...
Yolçu it görsə,
əlinə ağac alır.
Günlər də qara deyil,
babalar!
Günlər də, torpaq üstründə qalır
get-gedə ağa çalır.

Günlərin də rəngi var.
İnsan var ki,
öz gününü qara eləyir;
insan var - özgəninkini.
İnsan var - hər ikisini.
İnsan da var- çalışır
yoxaltsın bu dünyadan
qara günlərin
matəmli sərgisini.
Dünyada ömür sürən
çox insan var,
yaşayır ancaq
bir iz qoyanlar.

**QANADLAR**

*Anama*

Bir körpəydim-
Güləş,
şən.
Bir körpəydim
onda mən.
Yuxumda çox görərdim
qıvrımsaç mələkləri.
Sonsuz ala göylərdən
məni çağırardılar.
Bəzən qanadlarında
uçar,
uçar,
uçardım.
Min bir qapı açardım
üfüqsüz mavilikdə.
Könlüm əngin fəzalar,
geniş göylər dilərdi.
Axşam Ay,
səhər Günəş
gözlərimdə gülərdi.
Şirin əfsanə kimi
qara məxmər gecələr.
Ucqar daxmada yanan
çıraq kimi ulduzlar...
Ulduzlar, çıraq kimi
hər şeydən İraq kimi.
Ulduzlar şirin, acı,
Uzaq bir soraq kimi.
Fanarları ulduzdan
Mələklər
yarıb qara gecəni,
dəstəylə,

birər-birər,
Toplaşardı başıma.
İpək qanadlarında
məni götürərdilər
göy gözlü ənginlərə.
Arxasından qovaraq,
qovuşardıq Günəşə.
Günəş zağlı gümüşdən,
Yorulur bu ötüşdən.
Günəşin qucağında
nədir məni üşüdən?

Nur karvanı boynunda
gəzirəm kainatı.
Bir qırpımda gedirəm
min illik bir həyatı.
Saçlarımı oxşayır
xəfif, ılıq havalar.
İçimdə sonsuzluğun
dərdi var.
Dumanlara toxunur
barmaqlarım uçurkən.
Köpük bulud karvanı
axır, keçir yanımdan.
Buludlar, ağ buludlar,
Qalaq-qalaq buludlar,
Hansı dağlardır sizə
Yeni ovlaq, buludlar?
Mən uçuram
Günəşin
tellərindən tutaraq.
İçimdə aşır-daşır
nur baxışlı bir maraq.
Uçuram, uca dağlar
kiçilir yollarımda.
Sanki gedir mənimlə

tükənməz yollarım da.
Bax, məndən aşağıda
ildırımlar parlayır.
Od qamçılar havanı
bağrından yaralayır.
Bəzən gözəl mələklər
qanadlı at olurlar.
(Körpəliyin tükənməz
bir xəyal dünyası var!)
Qızıl nurdan qanadlar
açılır boşluqlara.
Uçuram heç kimsənin
uçmadığı diyara.
Unutmaq olarmı heç
o nurdan qanadları?
Qanadlar xəyalımın
ildırımlı atları.
Qanadlar, ağ qanadlar.
Yünül, qıvraq qanadlar.
Kainat nə kiçikdir,
Qanadlar, a qanadlad

Mən uçuram, altımda
göy sinəli dəryalar.
Köpüklü şəlalələr
durmadan
axar,
axar.
Fırtınalar ağlayır,
yarğanda rüzgar kimi.
Sanki qalxmaq istəyir
göyə dənizin dibi.
Ulduzlara sıçrayır
almaz başlı dalğalar.
Ac canavar ağızlı,
göy qırmanclı dalğalar.

Dalğalar, ağ dalğalar,
Yünül-yaraq dalğalar,
Bəzən ətək qırçını,
Bəzən bir dağ dalğalar.

Yumulur göy gözlərim
yenə xumarlanaraq.
Yenə göylər açılır,
qarşımda varaq-varaq,
Ay məndən yüksək deyil,
Ay mənimlə tən durur.
Sanki məndən utanır,
Özü bir az gen durur.

Ay bir portağal kimi,
Göy üzündə xal kimi.
Uzaqlarda dolaşır,
Əlçatmaz vüsal kimi.

Arxamda ulduz dolu,
ətrafım dolu ulduz,
Tükənməyən yolumun
sağ yanı, solu ulduz.

Ulduzlar - ağ çiçəklər.
Süzülür birər-birər.
Elə bir dünyadayam,
Gecələri çiçəklər.

Ulduzlar səpələnmiş
O sahilsiz dərinə.
Sanki civə dağılmış
Göy atla üzərinə.
Qəlbim sərin,
rahum sevincli, dolğun.
Bəlkə də, uf deməzdim,

doğransam buğum-buğum.
Yazıq,
Birdən,
nə yazıq,
Ölçüsüz ucalıqda
qorxunc bir külək qopar,
kəsərdi yollarını
xəfif qanadlarımın.
Qanadlar çırpınardı;
külək amansız,
qanıq.
Vücudumda həsrətin
əzabları oyanıq.
Birdən bir qara boşluq,
qara,
sonsuz uçurum.
Nə qanad,
nə yer,
nə göy.
Düşürəm
burum,
burum.
Ayılınca,
Həqiqət udurdu röyaları.
Könlümdə
bir acının
qanadıcı rüzgarı.
Röyalar qara ömrün
Dərdini ovudurdu.
Onlar kədərlə dolu
o vərəmli dünyadan
məni ayrı tuturdu.
Həqiqətin acısı bükər dodaqlarımı,
örtərdi gözlərimi almazlı damlalarla.
Röyalarda bəxtiyar,
ayılınca, həyatda

Qarşılaşardım soyuq
ağlayan son baharla.
Yuxu, xəyal dünyası
həqiqətə dönüncə,
Hıçqırardım gizlicə.
Nə qədər həsrət çəkər,
göz yaşları tökərdim,
gecələr yana-yana içimdən.
"Neçün yoxdur qanadım?
neçün ömrüm bir röya,
bir xəyal kəsilməyir?
Neçün uçmayıram mən?" -deyərək,
bu dərdlə inləyərək.
Qanadlanmaq arzusu
içimdə bir ac qurddu.
Məni gizli gəmirdi,
yavaş-yavaş qurutdu.
Ömrüm vida etdikcə
uşaqlıq sahilinə,
Qanadlarım kiçildi,
Kiçildi ildən-ilə.
Günlər aldı
o röya,
O xəyal dünyasının
ipək qanadlarını,
Uşaqlığın
sevimli,
qəşəng qanadlarını.
Mən açılan səhərə
Bənzədirəm körpəliyi.
Qaranlıqdan başlayan yolu var.
Səhər kimi yavaş-yavaş açılar.
O da min rənglə boyalıdır.
O da bir həqiqət ikən -
xəyalidir.

Kim duymamış
ılıq səhərlərin dadını?
Kim görməmiş Günəşin
səhər üfüqlərində
açılan qanadını?
Körpəlik ömrün səhəridir,
onun gün yarısı da var.
Üfüqdə başlayan axşamların
qəmli sarısı da var.
Gündüz gündüzə oxşar.
Bir-birinə bənzər
sarı bir həsrət gətirən
axşamlar.
Bu, təbiətin yoludur.
Lakin mənim
gündüzlərim axşamla bitməyir.
Öylə bir gündüzüm var ki,
onun gümüş işığını
qaranlıqlar əritməyir.
Bu gündüzü yaradan
Zəncirini halqa-halqa dağıtmış
insan oğludur.
Uşaqlıq şirindir.
Kim sevməz onu?
Kim rədd edər onun
Boyuna sarılan qolunu?
Uşaqlıq şirindir,
Gənclik daha şirin olmasa,
Getdikcə ömrün yolları,
yeni nəşələrlə dolmasa.
Ayrılarkən körqəlik sahilindən
həyatımın yelkəni,
Acı həsrət qarışıqlı
sirli qorxu bürüdü məni.
Könüldən yaralandım.
Ömrün ən bəxtiyar çağları

keçdi sandım.
Lakin doğrulmadı bu düşüncələr.
Hər gün açıldı -
yeni-yeni cahanlar
qarşımda birər-birər.
Qanadsız qanadlandığım
Günlərdə
Nə gördümsə
söylədim qələmə.
O da yazdı kəlmə-kəlmə.
Açın səhifələri!
Onlar ömrümün varaqlarıdır.
Onlar könül cahanının
Sevimli, xoş diyarıdır.
Ümidim,
sevinclərim orda.
Onları
ilk bahar çiçəyi kimi
Səpdim bu yurda.
Qəlbimdə böyüdükcə
yurdumun vüqarı,
Ulduzlara qaldırır məni
şerimin qanadları.
Baxın...
O xəyal əsiri uşaq
indi yüksələn ölkəsilə boy atır.
Röyalarda qanad gərən
o körpə
Bu gün insan ruhu yaradır.

*Bakı - Moskva - Bakı*
*mart-dekabr, 1936*

**O GÜNLƏR - BU GÜNLƏR**

*Bacım Kübraya*
*(Hamımız sənə Dadı deyirik)*

Xatirələr elə çoxdur,
doya bilmirəm.
Nə də bəsdir - deyib,
bir yana qoya bilmirəm.
Uzaq günlər, gecələr.
Uzaq, sakit bir evin
yanqaranlıq otağı,
Tavandan asılmış yüyrükdə
ala-bəzək bir körpə qundağı.
Şirə ilə ağardılmış divarlar.
İndi də o torpağın qoxusu
burnumdadır.
İndi də xatırlayanda
ağzım torpaq dadır.
Sən bizə nağıl oxuyardın
"Min bir gecə"dən,
"Natpinkerton"dan.
Bizə nə qədər sevinc verərdi
"Molla Nəsrəddin"in məzəli şəkilləri.
"Tuti", "Babayi-Əmir"
"Probujdeniye","Niva"!
Gözlərimizi qamaşdırardı
varaqladıqca bir-bir.
Bəzən susdurardı bizi
qonşudan gələn bir nəva,
bir namaz səsi.
Qurudardı nitqimizi
oxuduğun qorxulu nağılların
vahiməsi.
Yadımda deyil ilk dəfə kim dedi.
Başımı sığallayıb,
yazıq bala!

Yetim! - dedi.
Bəzən nəvaziş də
acı olur,
sığal da tikanlı olur.
Bəzən axar suların yolu da,
çilənkənli olur.
Yetim!
Kim?!
Elə bil qaynar su tökdülər qəlbimə.
Atam yadıma gəlmir,
indi şəkillərindən onu tanısam da.
İndi bizi ayıran
neçə il, neçə ay, neçə gündür.
Gözləri ala imiş atamın,
boyu ortadan hündür.
Səsi bilmirəm necə imiş.
(Hələ doğulmamışdı maqnitofon).
Odur ki, xəyalımda tamamlaya bilmirəm
onun əziz surətini.
Nə gülüşünü təsəvvür edə bilirəm,
nə yerişinin sürətini.
Varaqladıqca yaddaşımın
yarı pozuq, yarı aydın
səhifələrini.
Mən indi anlayıram,
əziz bacım,
niyə sən
uzun qış gecələri
daha çox kitab oxuyar,
nağıl danışardın bizə.
Atasızlıq acısı
Çökməsin körpə qəlbimizə.
Onda altı yaşım vardı mənim.
İndi xatirələr uzaq,
ağrılar, acılar köhnədir.

Ancaq ürək sınıqlığının
uzağı, yaxını varmı!
O günlər unudularmı!
İndi özüm kitab oxuyuram,
özüm kitab yazıram.
Ancaq, hardasa,
sinəmdə, bəlkə lap dərində
üstünü günlər, aylar basmış
bir ağrı duyuram.
Günlər... günlər...
gecələr... gecələr...
ötüb keçdilər.
Sevinc gəldi, bahar oldu.
Nəğmə səsləri, gülüş bayramları.
Sonra da o bəd günlər!
Ananı baladan ayıranlar.
İndi bir körpəyə salmısan mehrini;
yaman salmısan.
Bilirəm bu mehr-məhəbbət
sənə bir sığınacaqdır.
O körpənin hər sözü,
hər arzusu, könlünə təsəlli dolu
bir qucaqdır.
Bir arzum var, əziz Dadı!
Bir də ayırmasın səni
bu təsəlli aləmindən
uzaq-uzaq o günlərin
xatirələr fəryadı.
İndi sən
qoruyursan yüzlərlə körpənin ömrünü
gecə-gündüz yorğunluq bilmədən.

*1961*

**BACI**

*Saraya*

Sən nə məhəbbətdən danışırsan,
nə gündə üç yol deyirsən:
başına dolanım.
Ancaq gözlər danışa bilsəydi
baxışlarını eşidərdi hamı:
"Bir candır olanım,
o da sənə qurban, qardaş".
Mən düşünürəm:
niyə sən
bu qədər kövrək,
yumşaqürək,
bu qədər ülfəti göyçək,
rəftarı ipək
ola-ola,
ana oldun
ana nəfəsi duymamış
bir oğula.
Niyə səadət, sevinc
uzaq bulud kimi
keçdi başının üstündən
salmadan bir damla belə.
Niyə tale səbəbsiz
öcəşir
adamla belə?!
Dodaqlarımı yandırır
bu sualların acısı,
mənim əzizim,
bırcə qardaşın
yaxşı bacısı.

*Fevral, 1962*

**GƏR AĞACI**

Yarpaqlarında
yumşaq ipək yatan
gər ağacı!
Bir-birinə bənzəyən,
bənzəməyən
meyvəsi,
çiçəyi,
yarpağı olur
hər ağacın.
Gah çəkil olursan,
gah ağ, qonur, qara tut,
gah toxmacar.
Min illərlə oyanmaz
yarpaqlarında ipək,
onu biz səsləməsək,
biz onu bəsləməsək,
İnsan əli açmasa,
bu sirləri
Kim açar!
Yarpaqlarında ipək yatan
gər ağacı,
gəl səninlə bir müddət
yan-yana qalaq;
keçmişi yada salaq;
mənim körpə vaxtımı,
sənin ilk yarpağını,
nıənim ilkin
öz əynimə yapışmış köynəyimi,
ilk dəri papağımı.
Axı uzun illər mən
böyüklərin
kiçildilmiş paltarını geymişəm;
köhnə, nimdaş.
Gər ağacı,
gəl dərdləşək
yavaş-yavaş.

O sınıq budağın,
gövdəndəki çapıq
kimdən qalıb "yadigar",
gər ağacı?
Nələr eşitmisən,
nələr görmüsən.
Qabığın olub cadar-cadar.
Yadımdadır gövdənə
zavyalov bıçaqla
adımı yazdığım.
Yadımdadır
şumal budağından
çəkdiyim sıyrım.
Bəlkə indi sən də yoxsan,
köksündəki yazı da.
Ancaq, unuda bilmirəm
o günləri də,
kümçü qocadan yediyim
ağır qapazı da.
Bəlkə indi gövdən
qonşun qarağacdan böyükdür.
Qapqaradır
budaqlarının
xırman kölgəsi.
Köklərin də torpağın
yeddi qatını deşib.
Üstündəki yazının da
kənarları qabarıb köbərləşib.
Yazı qalıb
yara-çapıq kimi
Gər ağacı! Gər ağacı!
Bəlkə indi yarpaqların
titrəyir, sızıldaşır,

əsirlər əsim-əsim!
Təpəsində hündürlüyü duyduğum,
budağını sıyrım-sıyrım soyduğum
Gər ağacı!
İstəyirəm sənsiz keçən günlərimi
varaq-varaq açım.
Neçə tanış-biliş getdi
o gündən bəri məzarlığa,
Biri həkim yoxluğundan,
biri həkim çoxluğundan.
Ağır illər gəldi
dağdan ağır;
sürgündən, dustaqdan ağır.
Kiminin evinə gətirdilər
yağı, əti, çörəyi,
kiminin bir loxma
qara çörək üçün
qabarladı əlləri, -
əyildi kürəyi.
Töküldü ömrün yollarına
gülüş qırıqları,
göz yaşları.
Güllə ayırdı bir-birindən
neçə cəbhədaşları.
Yollar uzandı
hər qarışı bir il boyu.
Xatirələr soyutdu tez-tez
Neçə bayramı, toyu.
Ancaq,
Əlimiz soyumadı işdən,
yaratmaqdan, qurmaqdan,
Nə çıxardı
gedər-gəlməzlərə yas tutub
durmaqdan.
Neçə-neçə şəhər saldıq.
Yeni yerdə, xərabələrdə.

Neçə-neçə yol çəkdik,
Çox oldu ağır imtahan.
Çox oldu yüngül şirnik.
İnan mənə,
Gər ağacım!
Nəsil-nəsil çoxumuz,
bəli, əsil çoxumuz
İnsandıq,
İnsan qaldıq.
Demirəm hamı!
Neyləyirsən, gər ağacım!
Ağacların arasında
nər ağıcım.
Neyləyirsən,
qurdalama gəl yaramı.

*1967-1970*

**YADDAŞ**

Bir gün,
bir saat,
bir an
ayrıla bilsəydim yaddaşımdan
dincələrdim;
yaddaşımın ayrılığını bayram edərdim.
Hara getsəm,
harda olsam
yanımdadır yaddaşım.
Bilmirəm yaddaşın
yapışqan sədaqətindən
necə can qurtarım,
hara qaçım.

*dekabr, 1966*

**ÖMÜR KEÇDİ, GÜN KEÇDİ...**

Soruşdular:
- Bir girvənkə daş ağır olar,
bir girvənkə pambıq?
- Bir girvənkə daş! - dedim,
sevinə-sevinə.
Xoşbəxt idim...

Kvant nəzəriyyəsi!
Nisbət nəzəriyyəsi!
Bölünən atomların fəsadı!
Cavablarım elmi, dürüst.
Hər suala bir dəftər dolduraram
yaza-yaza!
Yazıq sənə, yazıq
Rəsul Rza!
Acanda ağlayardım.
Susayanda,
bir yerim ağrıyanda ağlayardım.
Bir şey istəsəm, ağlayardım.
Anamın qucağı üçün,
qonşu qızın oyuncağı üçün
ağlayardım.
Külək bərk əsəndə,
qarğı əlimi kəsəndə,
ağlayardım.
Bacım məndən küsəndə
ağlayardım.
Əl uzatdığım kəpənək uçanda,
qonşumuz itim zəncirdən açanda,
yuxum qaçanda
ağlayardım.
Xoşbəxt idim!

Dünya yuxusuzdur.
Ağlaya bilmirəm.
Ölüm ömrü pusur.

Ağlaya bilmirəm.
Raketlər xaraba qusur.
Ağlaya bilmirəm.
Kirəc damarlarımı bərkitdi.
Dostlardan çoxu getdi.
Ağlaya bilmirəm.
Sancırlar, ağlaya bilmirəm.
Nə atam var, nə anam.
Ağlaya bilmirəm.
Yaşil yekə insanam.
Ağlaya bilmirəm.
Və hakəza!
Yazıq sənə, yazıq
Rəsul Rza!

Nə atam kimi güclü kişi vardı,
nə anam kimi gözəl qadın.
Küçəmizdəki ağaclar
dirənmişdi göyə.
Ağzımda yenilik dadı.
Evimizin qabağında axan çaydan
böyük, enli, dərin çay yox idi;
bilmirəm necə keçirdi onu
ayaqyalın toyuqlar!
Uzaq sözü
araba təkərinə dolaşmışdı,
yaxın sözü
çəkməmin bağına.
Nə iki mərtəbədən hündür eyvan vardı,
nə hind toyuğundan qorxulu heyvan.
Nə üçqulac kəndiri
ağzından suyunacan sallanan
quyumuzdan dərin quyu.

Bilirəm,
dünyada çox güclü adam var:
qolu güclü, sözü güclü.
Bilirəm,

gözəl qadınlar var
Milos qızı Veneradan belə gözəl.
Okeanlar görmüşəm

günlərlə sinəsində üzüb.
Ağzımda valokordin dadı var.
Yaxın sözü
reaktiv təyyarələrin qanadında
əriyib gedib.
Uzaq sözü
planetlərarası raketlərdə.
Hündür eyvan yüz mərtəbəyə qalxıb.
Ən dəhşətli nüsxə
insanlar içindədir.
Planetimizi
dəlik-dəlik elədik
qaza-qaza!
Belə-belə işlər,
Rəsul Rza!

Gecə yarıdan keçib.
Neçə yazılı vərəq var
masanın üstündə.
Axşamdan bəri xəyalımla
könül-könül gəzmişəm,
neçə insan aləmini bu gün də.
Birdən söndü elektrik lampam.
Bu günün son,
sabahın ilk sətirlərini
bitirə bilmədim.
Qaranlıq qara xəbər kimi
çökdü üstümə...
...Əlimdə mürəkkəbi qurumuş qələm.
Dirsəklərimin altında
masamın sığallı üzü.
Lampamın telləri külə dönüb.
Lampa bitirdi ömrünü,
son saniyəsinə qədər yana-yana!

Biz necə bitirəcəyik ömrümüzü?
Ayaq basmadan ən yaxın bir ulduza?
Yazıq sənə, yazıq
Rəsul Rza!

*1962, səfərdə*

**ÖTƏN GÜNLƏR**

Dörd yanım dənizdir,
gömgöy!
Başımın üstü
buludsuz göy.
Göz işlədikcə işləyən əngindən,
dənizin rəngindən,
gəmimizi yalayıb keçən
ağ ilan köpüklü suların ahəngindən
sərxoşam.
Yol uzaq.
Gedirik dənizi yararaq.
Arxada yavaş-yavaş
Üfüqə çökür axşam.
Xatırlayıram,
neçə belə axşamın arxasında,
ömrün uzaq sahilində,
dağ kimi
qalaq-qalaq yığılmış illərin
yaxasında
qalan günləri...

Beş yaşlı uşağam.
Tüstülü ocaq başında,
qolları çirməkli,
paltar yuyur anam.
Sonra göy suda
axara çəkir paltarları.
Gömgöy su ilə doludur
qalaylı tiyan.

Mən də bu tiyanın yanındayam.
Kağız gəmi salıram
bu göy suya.
Sonra ovurdlarımı şişirdir
gücüm gəldikcə üfürürəm.
Gəmi gedir yırğalana-yırğalana.
Əllərimi vurub bir-birinə
bağırıram:
- Ana! Ana!
Gəmimə baxsana!
Gör necə gedir
yırğalana-yırğalana...
Ayrılıram xəyaldan.
Üfüqlərə çöküb axşam.
Okean gəmisində,
göyərtədə durmuşam.
İllər köçüb gedib.
Nə tüstüsü gözümü göynədən
ocaq var,
nə qara saçlı anam.
Yolum ucsuz-bucaqsız okeana.
O günlərdən ancaq
xatirimdə
balaca kağız gəmimin
ağ yelkəni qalıb;
birdə
geri dönməyən, çocuqluq illərinin
yumşaq tikəni qalıb.

*1958*

**SABAHLARI DÜŞÜNƏRKƏN**

Bir ömür də yaşayaydım
bundan belə.
Görəydim "indilər",
necə
"dünən" olur.

Kim sözünə sadiq qalır,
kim yel əsdi -

dönən olur.
Kimlər necə yüksəlir
Fikriylə, əməliylə;
kimlər şöhrətə minir
"Oldu!
Beli, bəli"lə?
Dünyamız yaşamaqçın
darısqallaşır, yoxsa
genişdən geniş olur?
Neçə planet yolu
gün-günə tünlükləşir,
hey gediş-gəliş olur.
İmkan üfüqlərimiz
gəniyir, daralırmı?
Balaca Yer kürəmiz,
atomdan can qurtarıb,
məhvərində qalırmı?
Yer üzündə olurmu
hamı insan qardaşı?
Kəsilirmi dünyadan
"mənim", "sənin" qovğası,
"bizim", "sizin" savaşı.
İnsan doyumluğunca
çörək varmı, su varmı?
Qəfil güllə səsləri,
göy yaran gurultular,
körpələri yatmağa,
dincəlməyə qoyarmı?
Qalmışdırmı ehtiyac
müdafiə sözünə?
Qara duman çökürmü
yenə də yer üzünə?
Necə izah edirlər;
Diabet, xərçəng nədir,

İnfarkt, taun nə şeydir,
Qrip, nəfəstəng nədir?
Yüz yaşlı cavan necə,
əsrlərlə yaşamış
gümrah qoca necədir?
Ölüm-həyat vuruşu,
canlılar xeyrinədir,
yoxsa ki,
heç-heçədir?
Sərhəd dirəklərinə,
qədim abidələr tək,
xatirə lövhələri
hər yanda vurulubmu?
İnsan yurdu hamıya
yaşamalı olubmu?
Bir ömür yaşayaydım
hələ bu gündən belə.
İstəklərimi olmuş görməyəcəksəm
əgər;
yarımçıq qalsa qalsın
ömürdən səhifələr.

*Göyçay, oktyabr, 1977*

**ÖMÜR YOLU**

Nə küçələr,
nə yarpaqlarında
gilə-gilə yağış puçurları
ağaclar.
Yumşaq gecələr
dağınıq saçlar
geridə qaldı.
Yuxulu ala gözlər,
yanıqlı duzlu sözlər,
mehriban üzlər
geridə qaldı.

Qəfəsdə sarı bülbülün
fəryadı,
ilk görüşim,
körpə ümidin dadı,
ağ göyərçinlərin
titrək qanadı
geridə qaldı.

Yağış mənimlə gedir,
yumru, uzunsov damcılarla
qonub Qatar pəncərəsinə.
Qulaq asıram qatar təkərlərinin
yeknəsəq səsinə.
Arxada qalır taqqıltılar.
Sanki,
ömür damcı-damcı düşür
qayıtmazlığa.
Günlər gedir
çoxluqdan azlığa.
Nə yaxşı ki, xatırlamalı
günlər, saatlar var.
Nə yaxşı ki, bir səbəb yoxdur
baxışlarımı gizləyəm.
Yol gedirəm bu gündən sabaha.
Geridə qalanlarım da var,
gələcəyə qalanlarım da.
Nə qəm!
Yaşayıram.

*1976*

**MARAQ**

Küləklər harda yatır görəsən?
Buludlar hardan yığır göz yaşını
hava ayaz olanda?
Çaylar harda dincəlir görəsən!

İldırımlar niyə belə tez sönür?
Ən uzaq ulduzlardan o yana
nə var, kim var görəsən?
Harda yaşayır ölüm?
Götürüm gəncliyimi,
axtarıb tapıb onu.
Öldürüm.

*1966*

**YOXLUQLA TANIŞLIĞIM**

İki dəfə sağa,
bir dəfə sola burulub getdim.
Yol tanış.
Döngələr tanış,
Tanış doqqazın,
əyri ağacları tanış.
Dam üstündə
tanış dəmir xoruz.
Tanış nar topası;
Budaqlarından neçəsi quru.
Çağırdım bir ağız.
Çağırdım iki ağız.
Əvvəlcə yavaşdan çağırdım,
sonra ucadan:
- Ay ev yiyəsi!
Ev susdu.
Qapılar susdu.
Neçə yerdən sökülmüş
batdaq divar susdu.
Qanrılıb bir də baxdım.
Her şey tanışdı.
Həyətə gedən,
üstünü ot basmış,
cığırdan başqa.

*1965*

# *İş günü*

**ADSIZ ŞEİR**

Günəş intihar etməz,
Eh, ona nə var ki!..
Ay onun işığıyla
parlayır,
hər kəs bilir.
Lakin aylı gecələr
daha xoş görünürsə,
bunun suçu kimdədir?
Suyu doğramaq olmaz.
Eh, ona nə var ki!..
Ən iti bir xəncəri
o, bağrında saxlayar.
Lakin könül bir sözdən
dərin yara alırsa,
əcəb, kimdir günahkar?
Bahar neçin gəlməsin?
Eh, ona nə var ki!..
Nərgizlər, bənövşələr,
yollarında açılır.
Lakin bir sarı yarpaq
saplağından qoparsa,
suçlu yaşıl baharmı,
qüvvətli ruzgarmıdır?
Şam qış nədir bilməyir.
Eh, ona nə var ki!..
Ömrü boyu yamyaşıl
atlazlara bürünür.
Lakin ruzgar lalənin

ləçəyini tökərsə,
suçlu zəif laləmi,
qüvvətli rüzgarmıdır?
Bir gün dedim ki, xəyal...
Eh, ona nə var ki!..
Onunçün nə bir hüdud,
nə zaman, nə məkan var.
Lakin... birdən həqiqət
gəldi qarşımda durdu.
Dedim: nə xəyal
nə də...
Bildim, mənəm günahkar.
Düşündüm, durdum bir az.
Dilləndi qəlb yaramaz.
Və dedi:
- Qınama, dostum, məni!
Mən bir ayna deyiləm,
durğun, duru göl kimi
məhəbbətsiz, nifrətsiz
sakit alam qoynuma
mənə yaxın gələni.

*1934*

**İKİ MƏRYƏM OĞLU**

*Anamın adı Məryəm idi*

Otağım doludur sükutla.
Sükut içində mən,
qalınqabıq meyvə içində qalmış
tum kimi.
Nə qapı döyülür,
nə telefon zəngi var.
Divarda daş ayna.
Ordan baxır mənə

Məryəm oğlu,
Gözləri dolu.
Ancaq,
nə arxasında qanlı çarmıx,
nə başında tikanlı çələngi var.

*1960*

**ÖZÜNÜ ÖYMƏZLİK**

Kölgələr xəbər verir
axşamın kədərindən.
Şimşək çaxır,
İndicə yağacaq
gildir-gildir.
Lermontov deyiləm mən,
Şekspir də deyiləm;
nə olsun ki,
onlar da
Rəsul Rza deyildir.

*1948*

**HƏSƏD**

Mən heç nəyə,
heç kimə
həsəd aparmadım;
bir gün, bir an belə;
bahardan başqa;
bir də,
nəğməli, nəğməsiz quşlardan başqa...
Gənclik getdi;
apardı həvəsimdən çoxunu:
qollarımın girini.
Eləyə bilmədim,
istəklərimin
onda birini.
Həsəd aparmadım gəncliyə -

cavansan deyə.
Bilirəm onu da gözləyir qocalıq...
24 ölkə gəzdim,
böyüklü, kiçikli.
Küçələri, meydanları,
insanları
təmizli, çirkli.
Neçə yüz ölkəni
görməmişəm hələ.
Atlantikdə üzdüm.
Hind okeanına baş vurdum.
Şimal, Cənub okeanlarını
görməmişəm hələ.
Ekvatoru keçdim.
Baqorda düyü arağı içdim.
Gəzdim əfsanəli Balini.
Düşündüm bəşər oğlunun
ağlı-qaralı iqbalını.
Gördüm Sinqapurda
sırğalı-sırğalı xurmaların
qara kölgəsini.
Gördüklərim az deyil,
Görmədiklərim daha çoxdur.
Hərdən ömrün gizli möhləti
məni qorxudur.
Fikri, sözü döyənək,
sətirləri kələ-kötür, dəyənək
mənəm, mən, mənçilərin
həsəd, qibtə etməli
nəyi var?
Bir naxış köynəyi,
bir gülrəng eynəyi var.
Ancaq,
heç kəsə həsəd aparmadım,
aparmıram,
bircə bahardan başqa,
bir də, qanadlı quşlardan başqa.

*1976*

**İŞ GÜNÜ**

İstər yağış çiləsin,
istər qızmar gün olsun,
istər şaxta;
bu gün də iş günüdür,
saban da.
İnsanın iş günü
azaha da, çoxalsa da,
insanlığın iş günü bitməyəcək.
İnsan orbit-orbit gəzəcək
ulduzların beşiyini.
Səhralara bahar səpək!
Günəş tökək yuvamıza!
Qaralmasın ömrümüzün
Nə bir anı, nə beş günü.
Ulduzlar yanır.
Dəryalar dalğalanır.
Tumlar cucərir torpağın qoynunda.
Yer kürəmiz fəsil-fəsil
təzələyir dəyşəyini.
Tükənmir kainatın iş günü.
Dünən də iş günü idi,
bu gün də,
sabah da olacaq həyatın
iş günü.
Nə yorğunluq, nə intizar!
Nə təqvimi müxtəlif rənglərə
ayıran olsun.
Ömrümüz iş günü,
Hər iş günümüz bayram olsun.

*1963*

**ŞEİR YAZMAĞIM GƏLİR**

Siqaretlər:
"Bal arısı", "Filter", "Nizami".
Papiroslar:
"Azərbaycan", "Yubiley", "Bakı".
Kibritlər:
Bəzəkli, saya:
irili-xırdalı.
Bu da modabazlara gözdağı:
qazlı alışqan.
Mən ki papiros çəkən deyiləm.
Amma!
Yığmışam bunları
masanın siyirtməsinə,
kitab taxçalarına,
qutu-qutu,
bağlama- bağlama.
Nədir bu nikotinli
can yağıları!
Nəyimə gərəkdir onlar!
... Görəsən nə çəkirmiş,
döyüşqabağı
qoşunlar.
Nə çəkirmiş sərkərdələr,
fironlar!

*Bakı, 1962*

**BİLİRƏM, BİLMİRƏM**

Şeir yaza bilmirəm
neçə gündür,
nə qafiyəli,
nə qafiyəsiz.
Bilmirəm, bilmirəm.

Şeir vəzndirsə - bilirəm,
ahəngdirsə - bilirəm.

Qafiyə, rədif, təşbehdirsə - bilirəm.
Təzaddırsa,
fel, sifət, adlıqdırsa – bilirəm.
Ancaq,
şeir yaza bilmirəm
neçə gündür.
Fikrim düyün-düyündür.

*1969*

**MƏHƏMMƏD HADİ**

Şeir yaza bilmirəm.
Nə ürəyim göynəyir,
nə sözlər yandırır dodaqlarımı.
Ağrısız, göynəksiz
şeir olarmı?!

*1965*

**QƏLƏM**

Başını dik tutdu qələm,
dayandı məğrur.
Nə bir kəlmə söz düşdü kağıza,
nə bir cümlə yarandı,
nə doğdu bir fikir.
Birdən hər şey dəyişdi.
Ağ kağıza düzüldü kəlmələr.
Nələr yarandı, nələr.
Bəli, birdən hər şey dəyişdi.
Baxdım:
qələm başını əymişdi.

*1957*

**YAZI MASAM**

Bayramqabağı,
yır-yığışda
sındırdılar bir qıçını.
Elə bildim əlimi kəsdilər.
Neçə saat əlləşdim o gecə;
ayağını mıxlayıb
yerinə bərkidincə.
Nə çəkic zərbəsindən,
nə şikəst ayağının titrəməsindən
şikayətləndin.
Mənim yazı masam!
Ürəyim doludur.
Dincəlmərəm səndən yazmasam.
Hələ yaraların sağalmamış
evə təzə bir masa gətirdilər.
Səni sürüdülər mətbəxə.
"Çolaq miz
şairə yaraşmaz" dedilər.
Bəhanə çoxmuş:
bir ayağın sınıq,
üstün cızıq-cızıq,
görkəmin köhnə,
üst-başın ləkə-ləkə.
Siyirtmələrin açılanda səs salır,
Örtüləndə səs salırmış.
Yan-yörəndə toz qalırmış.
O gündən nə qədər vaxt keçib.
Ancaq, nə həsrətim azalıb,
nə vərdişim dəyişib.
İndi də, söz inadla
girmək istəməyəndə sətirlərə,
təşbehlər düşməyəndə yerinə.
qafiyələr toyuq yumurtası kimi
oxşayanda bir-birinə,
mətbəxə gəlirəm.

Üstündən götürürəm qab-qacağı.
Cib dəsmalımla silirəm üstünü.
Belə sakit, gecə yarı
açılır dərdlərimin, sevinclərimin
sənə tanış varaqları.
Səndə axtarıram,
saatlarla vurnuxub,
tapa bilmədiklərimi;
gözləri yumulu bir səhrayi kimi.
Mənim əziz masam!
Heç kəsə demə!
Təzə masa da bilməsin.
Altındakı sınıq kasa da bilməsin.
Mənim köhnə masam!
Hər dəfə səndən ayrıla bilmirəm,
Üz-gözünü əllərimlə sığallamasam!

*1959*

**CİB DƏFTƏRİ**

İş otağının divarlarına,
hər səhər içdiyim çayın buxarına,
Göyçayın çinarına,
ürəyimin ağrılarına,
alışan kimi alışmışam
qabığı göy müşəmbəli
cib dəftərimə.
Rəsmi mümkünlərdən,
boyat qaydalardan
soyuna-soyuna,
kimsəyə qızmadıqlarımı
demişəm ona.
Bilirəm etibarlı yoldaşdır.
Nə söz gəzdirən,
nə lovğalanan,

nə özündən deyəndir.
Nə yerlipərest,
nə yalançı,
nə rüşvət yeyəndir.
Sevirəm
göy müşəmbə qabıqlı
cib dəftərimi.
Nə sevincimi gizlədirəm ondan,
nə dərd-sərimi.
Yaxşı tanımışam
cib dəftərimi.

*avqust-dekabr, 1966*

**BİR ANLIQ SƏADƏT**

Qar yağır lopa-lopa.
Pəncərədən baxıram.
O çırpınır.
Çıxarıb onu isti sinəmdən,
bir quş kimi,
pəncərədən buraxıram.
Gedir qartopu oynamağa.
O, mənim çocuqluğumdur.
Nə üzündə qırışıqlar,
nə gözündə dalğınlıq, kədər.
Qar yağır,
tökülür çiçək-çiçək.
Oynayır o, əlində əlcək.
Qaçır, atılır, gülür.
Qar yağır.
Çiçək-çiçək tökülür.
Çağırıram: Ey! Gəl! Gəl!
Açıqdır pəncərə.
Bir qar düşür ovcuma.
Naxışlı bir qar;

gümüş ulduz kimi.
Düşür və əriyir.
Əriyir qar topu oynayan uşaq da.
İndi bir mənəm,
bir də əlli səkkiz yazılı təqvim,
pəncərəsi açıq otaqda.

*1958*

**YALAN**

Ömrümdə yalan demişəm
ya az, yarım, ya çox -
bilmirəm.
Çocuqluqda yalan demişəm
doğruluğuna özüm inana-inana.
Bəzən yalan demişəm
doğrunun qorxusundan,
acısından dona-dona.
Bəzən yalan demişəm
İçimdən yana-yana.
Bəzən yalan olub
istədiyimə inandırmağa
yeganə bəhanə.
Yalan eşitmişəm:
ağ, qara, qırmızı.
Bəzən "hamıdan gözəlsən" - deyib
qurutmuşam göz yaşını,
ovutmuşam şikəst bir qızı.
Yalan var inanımlı,
yerində, qısa.
Dünya qəmli olmazmı
doğrunun əkiz qardaşı
qərəzsiz yalan olmasa!..

**ANİ DUYUM**

Hərdən mənə elə gəlir ki,
ulduzlar göyün yaxasında
sədəf düymələrdir.
Bu düymələri açsan
Başqa bir aləm görəcəksən.
Orda nə toz var,
nə duman.
Nə ölüm, nə qan.
Orda yaşayır
Zamanın süzgəcindən keçmiş
İnsan...
Döşənirəm torpağa üzü üstə.
Bağışla məni, böyük ana, bağışla!
Könlünə dəydim bu yanlışla.

*1973*

**TƏK QALMAQ**

Tək qalmağı sevmirəm,
Tək olanda üzülür,
yaman yazıq oluram.
Beynim, qəlbim sıxılır.
Xəyalımda hərlənir
olmuşlar, olacaqlar,
keçmiş, keçməmiş çağlar.

Hadisələr bölünür
dağınıq, qıça-qıça;
bir-birinə bağlanır
ya dik, dümdüz, ya haça.

Birinə acıyıram.
Birini anlayıram.
Özüm sorur, sorğuma
özüm cavab verirəm.

Ümidim də yellənir
quru budaqda bir tək

yellənən yarpaq kimi.
Qalıram çox içində
bir azad dustaq kimi.

Nə yaxşı tək deyiləm.
Yalqızlığımı qovur
dost səsi pərən-pərən.
Ətrafım qalabalıq –
xatirə, gözləm, bilik.
Eşidirəm dost səsi.
Qeyri-tanışı belə
dinləyirəm, fikrimlə,
yaddaşımla, qəlbimlə.
Yaşamağın düşməni
yalqızlıqdır, təklikdir.
Bunu təkliyə qarşı
Boyun əyənlər bilir.

*fevral, 1980*

**DEYİRLƏR AXŞAMLAR KƏDƏR GƏTİRİR**

Deyirlər,
axşamlar kədər gətirir.
Deyirlər,
can sıxır qaranlıq gecə.
Deyirlər...
Deyirlər...
Gündüzlər necə?

Gündüzlər
səbirsiz gözləyirik ki,
bir axşam olsun,
bir gəlsin gecə!..

*Qahirə, yanvar,1959*

# *İlqar*

## İLK SƏFƏR

Yenə qar, yenə qar!..
Uzanır yollar.
Kəlmələr dolaşır başımda.
Ağır tunc sətirlar
açılır qarşımda.

Qatanın fikrimi anlamış kimidir;
Relsləri tıq-tırıq səsləyər.
Şerimi teleqraf dilinə döndərir,
göndərir.
Moskva yolunun töhfəsi.
Şairin ilk səfər nəğməsi!

Alınız!
Redaktor, redaktor, redaktor!
Qatarın təkəri
titrədir tər tökən şüşəni.
Pəncərə göstərir
ağ örtük, göy qurşaq meşəni.

Alınız!
Redaktor, redaktor, redaktor!
Çəkildim bir tənha guşəyə
Alnımı dayadım mehriban şüşəyə.
Qırıq bir səs
qulağıma pıçıldayır;
yaxındır Moskva.
Bu sözlər havada qırılır -
Mos...sss...kva...
Başını sallamış üfüqlər doğulur...

Moss...kva...
Odur, odur, qarşımda.
parovoz buxarı qıvrılır.
Moss...kva...
Darıxdım,
Çıxıram qapıya.
Sanki bu açıq qapıdan
tez qaçır səsboğan bir sükut,
Qapıdan salamsız-kəlamsız
səs, soyuq soxulur,
hərarət yox olur.

Qatarım dillənir:
neçə-neçə,
çamlı yollar keçə-keçə
gəlmişəm.
Aç, keçim!
Aç, keçim!
Yolumdan qaç, keçim!
Neçə çamlı yollar aşdım,
Çamlı yolda yuxu qaçdı.
Qaça-qaça qatarım tövşüyür
və deyir:
Moskva, Moskva!
Elə bil bağırır: - Qarovuuuul!
Qatarım deyəsən yorulub,
Əfsussss...

Qatardan ilkin Moskvaya
çıxdığım zaman,
Günəş,
bir də sarı saçlı sevgilim oldu
məni qarşılayan.
Dodağımda bal dadırkən
sevgilimin öpüşləri,
məni aldı isti qoynuna
royalarımın şəhəri.

**QÜRUR NƏĞMƏSİ**

Nə qəm, illər sovuşur,
getdikcə artır yaşım.
Bu həyat yollarında
qoy mərd ağarsın başım.
Mən sənin ilk sevgilin,
sən mənim könüldaşım.
Bundan sonra daha xoş
günümüz var, sevgilim!
Baharlı bağçamız var,
gülümüz var, sevgilim!

Bir tikanlı söz əgər
gül qəlbinə toxunsa,
yanağına göz yaşı
göyərçin kimi qonsa,
sənə təsəlli uzaq,
sıxıntılar yaxınsa,
aldanraa!
Gün bizimdir,
Bizim həyat, sevgilim!
Bu yaraşıqlı dünya,
bu kainat, sevgilim!

Mən şeir yazmamışam
xurmayı saçlarına.
Tərifin yox sənin də,
ala gözlü yarına.
Mən verdim ulduzları
sənin ixtiyarına;
bəyən, oxşa, əzizlə,
sev, bizimdir, sevgilim!
Bu mavi, bu ləkəsiz göy
bizimdir, sevgilim!

Təyyarənin qanadı
buludları yararsa,
coşqun nəğmə səsləri
boşluqları sararsa,
bu bəxtiyar həyatda

könül açan nə varsa
bizimkidir –
nəğmə də,
təyyarə də, sevgilim!
Göylər pərisi Ay da,
Səyyarə də, sevgilim!

Geniş çölləri tutmuş,
ağ pambıq tarlaları.
Dillərdə azad olmuş
azad ölkənin varı.
Bu ellərin nəşəsi,
xalqın böyük vüqarı,
bağçaları, bağları
bizimkidir, sevgilim!
İldırımlı dağları
bizimkidir, sevgilim!

Bakı-
doğma yurdumuz.
Bakı-
mehriban diyar.
Qucağında boy atır
Hər gün yeni buruqlar.
Ölkəmin Bakı adlı,
Döşündə ordeni var.
Bu Vətən də bizimdir,
buruqlar da, sevgilim!
Yerə, göyə sığmayan
bu ruhlar da, sevgilim!

İnanıram, bir səhər
"Başlandı!" - əmri gəlsə,

cəbhədə sən mənimlə,
verəcəksən səs-səsə.
Odur ki, bu gün gəlib
mən də belə həvəsə,
deyirəm:
- Nəşə, sevgi
bizimkidir, sevgilim!
Bu ağ günləri sev ki,
bizimkidir, sevgilim!
Dəyişirik min illik
yerin xəritəsini,
Dəmir atlar dolaşır
Şimalın meşəsini.
Dinlə qarlı uzaqdan
gələn radio səsini;
Deyir:
- Qütb bizimdir,
Şimal bizim, sevgilim!
Həqiqət bizimkidir,
xəyal bizim, sevgilim!

Bayrağımızda varkən
Leninin ölməz adı,
gəmimizi sürürkən
xalqın böyük ustadı,
açılırkən göylərə
azadhğın qanadı,
qalibiyyət bizimdir,
bizim həyat, sevgilim!
Bu yaraşıqlı dünya,
bu kainat, sevgilim!

*1932*

**SƏNƏ**

Hər yerdə,
hər zaman,
aradım səni,
Ömrümün baxtını arayan kimi.
Nə yazıq!
Amansız hicran tikanı
qanatdı
eşqinlə çırpınan qəlbi.
Üfüq sapsarı,
acı köpüklər örtdü
göy suları.
Yavaş-yavaş söndü Günəş
alov dillərini qaldırdı yenə
sinəmdə yatan
həsrət -
amansız atəş.
Həzin bir axşam
dayandı qarşımda
yollar yarılanmadan.
Bir günüm keçməyir səni anmadan.
Ömrümün neçə yarpağı
budağından qopub
sovruldu ruzgara!
Mənzil hara!
Möhlət hara!
Gör nə qədər
gün tökülüb yollara?!
Gör nə qədər qalıb hələ
ilk bahara!
Sən
eşqimə güldün
için-için.
Anlat mənə,
bəs neçin
axşam qonunca pəncərəmə,

könlüm yenə səni,
ilk eşqimin qatilini xatırladı?
Hər nəğmədən zil qalxdı
qırılmış məhəbbətin fəryadı.
Gözlərimdə ümid, həsrət,
Neçə kərə, neçə kərə
gileyimi söylədim axşamlara,
danışdım göy gecələrə.
Ağır-ağır keçdi buludlar
bəlkə yanıqlı dastanımı
bahara söyləmək üçün?
Mən həsrətində yandım
necə ki, cadar-cadar torpaq
həsrət çəkər
bir damcı su,
bir əlvan çiçək üçün.
Bir damcı salmadan
keçdi buludlar.
Mən yenə
gözləməkdən yorulmadım.
Qovruldum yana-yana,
dözdüm hicrana,
lakin solmadım.
Bir damcı salmadan keçdi
döşü dolu buludlar.
Mən inadımda varam.
Yeddi dağ ardında gizlənsən
yenə arayıb səni taparam.
Bütün dünyaya baxsam illər boyu,
Yenə gözündə gözüm var.
Yüz il danışsam yenə,
sənə deməyə sözüm var.
Qoy ayrılıq tikanilə bəzənməsin
sən qərar!
Qoy xəzan yarpaqları kimi
tökülməsin
ümidlər, arzular!

Sən
ümid verə bilməsən də
həyat namına,
aldanmaq üçün yol göstər
könlümün istəklərinə,
şerimin ilhamına.

*1933*

**SORĞU**

Qarşımda sənmisən,
xəyalınmıdır?
Sevdalı könlümün soltanı dostum!
Gördüyüm röyamı,
vüsalınmıdır?
Nigaran qəlbimin cananı dostum!
Sənmisən başımı oxşayan öylə?
Saçımda dolaşan
əllərinmidir?
Xoş bir nəfəs kimi
üzümdə, söylə
dolaşan dağınıq tellərinmidir?
Söylə, bu gördüyüm
həzin qaranlıq,
axşamdır,
zil qara gözlərinmidir?
Xəyaldır oxşayan məni
bir anlıq,
sənin ümid dolu sözlərinmidir?
Kim duyardı
sakit gözəlliyini
dənizin
firtına, tufan olmasa?
Vüsalın ləzzəti duyulardımı
ayrılıq olmasa,
hicran olmasa?!

**İLQAR**

*Nigara*

Mən bayquş olub
sevmədim səni fəryad kimi.
Sevdim səni həyatı sevən kimi.
Sevdim həyat kimi...
Sevdim səni:
tarlada sıx sünbül kimi,
düşmən nizələrini yaran,
qanlı cəbhələrdən yaralı dostunu çıxaran
vəfalı bir atı sevən kimi,
Sevdim səni həyatı sevən kimi.
Sevdim səni:
eşqinin atəşli isitmələrilə
gözlərini yandıran,
aylı gecələrdə səni
yuxudan oyandıran,
dilinə şirin gələn,
kölgəsində ruhun dincələn
əziz bir ad kimi.
Sevdim səni həyat kimi.
Sevdim səni:
bəşər oğlunun
xülyalarında yaşayan,
əsrlər boyu insan beynini qaşıyan
uçmaq xülyası -
qanad kimi.
Sevdim səni həyat kimi.
Sən də şirin oldun mənə,
ömrümdən şirin.
Ruhumda fanar yandırdı
qumral gözlərin.
Mən səni sevdim:
bir vurğuda
dağlardan dağ qoparan,

daş qayaların bağrını yaran
Fərhad kimi,
Sevdim səni həyat kimi.
Durdum yollar ayrıcında,
çəkdim həsrətini.
Dedim Xızır olaram;
aradım səni abi-həyat kimi.
Canlandın ömrümün nəğməsində
nəqarət kimi.
Sevdim, sevirəm,
sevəcəyəm səni həyat kimi!

*1919*

**BİR AXŞAM**

Dənizin firuzə gözlərində
kölgələr titrəyir, sıxlaşır.
Bəxtiyar başımız üzərində
Qanadlı bəstəkar dolaşır.

Gümüş ay gözlərin sinəsində
daranmış, yuyunmuş tərtəmiz.
O dəli bülbülün nəğməsində
çırpınır, sevgilim, eşqimiz.

*Bakı, 1936*

**YAXANDA BİR BƏNÖVŞƏ**

Yarı gecə saf göylərə baxanda,
İnci kimi ağ ulduzlar axanda,
boynuburuq bir bənövşə yaxanda
sən gəlirsən xəyalıma, sevgilim!

**QARA GÖZLÜM**

Qara gözlüın, bağlama pəncərəni!..
Gül üzünə kölgə düşər, ay küsər...
Ayna bilməz, sos eləyər, amandır,
Meh əsəndə, yarpaq susar, çay küsər.

*1939*

**QƏZƏL**

Gözün qurbaniyəm saqi, xəbər tut bir məlalımdan,
Keçər günlər, keçər aylar, neçin çıxmaz xəyalımdan.

Onun hicranı könlümdə gedən gündən əmanətdir,
Görünməz ol vəfasız ya əl üzmüşdür vüsalımdan.

Bu naləm, göz yaşım, ahım, fəqanım qoy xəbər versin,
Xəbər versin nə qalmışdır böyük eşqin cəlalından.

# *Etiraf*

**O GECƏ**

Gecədir.
Kimsə yox.
Bir sən, birdə mən.
Zülmət asılmışdır pəncərələrdən,
Otağımda sükut,
göylərdən dərin.
Bir mənəm,
bir sükut,
bir də gözlərin.

**SƏN DEDİN**

Deyirsən: aç söylə, olub keçəni!
Bu uzun gecəni,
məhzun gecəni,
ötən xatirata həsr eyləyək, gəl.
Kim bilir,
bəlkə də yaxındır əcəl.
Deyirsən: - İllərlə soruşmamışam,
könlümdə əriyən maraq adlı şam
yandırıb qəlbimi,
ancaq, yenə mən,
o keçən ömründən,
keçən günündən
xəbər almamışam.
İndi söylə, gəl!
Bəlkə yalan deyil,

bəlkə var əcəl.
Mən dedim:
– Sən, ömrün yolunda mənə rast gəlib,
könlümü eşq ilə çəkib bağlayan!
Sən, təmiz adıyla başım yüksəlib,
namərd tənəsindən məni saxlayan!
Sən, nəcib qəlbində
dərdi, məlalı,
küləkdən qoruyan məhəbbətimi.
Pərişan baxışı,
məhzun xəyalı
sınaqdan keçirən sədaqətimi.
Sən, dərdli günümdə
dərdimi bilən,
ağır yollarımın
sadiq yolçusu!
Ağlarkən ağlayan,
gülərkən gülən.
Sən, yanar qəlbimə sözü –
sərin su.
Könül dedikləri
bağlı otaqdır.
İnsan bilmir
onu kim açacaqdır.
Onun gizlin qalan yüz qapısı var:
sevincdən açılar,
qəmdən açılar.
Bəzən bağlı qalan bu qapılardan
birini də
açmaq olmayır, inan!
Bəzən də açarkən qapını,
heyhat,
yol yarımçıq qalır,
qırılır həyat...
Dolaşıq yaranıb ömrün dastanı.
Gəncliyi qaytaran bir qüvvət hanı?

## SƏBİRSİZ

Mən deyirdim,
illər sovuşub keçər,
qocalar qəm-hicran,
qocalar kədər.
Gənclik günlərini aradıq cabiz,
bükülər yollarda bir gün belimiz.
Onda oturarıq yan-yana
bir gün,
bir yerdə yaşayıb,
ömür sürdüyün
yolçu, başlar sənə
hekayətini -
qəlbinin dərdini, şikayətini.
Açıb nəql eləyər, o uzun-uzun,
macəralarını qoca yolsuzun.

## DEYİRLƏR

Məhəbbət elə bir ismət evidir,
onun qapıları bağlı gərəkdir.
Onun sığındığı etibarlı yer
insan sinəsində
adi ürəkdir.
Ürək süfrə deyil
gəlib-gedənə
açasan,
var-yoxum bax, budur, - deyə.
Məhəbbət çeşməsi qardan yaranmır,
töküb dağıdasan
bir sudur- deyə.
Yüz sözü, yüz sirri
dosta desən də,
məhəbbət sirrini özündə saxla!

O tək səndən deyil,
səninki deyil,
açıb saçacaqsan söylə,
nə haqla!

## DEYİRƏM

Bəlkə bu etiraf özü köhnədir.
Yoxsa bu qocalmış,
nimdaş təşbihlər,
hardandır, nədir?!
Köhnəlik nə yaşda,
nə də ifdədir.
Cavan qocalar var,
qocalmış - cavan.
Həvəs,
arzu,
bütün sirr
könüldədir.
Köhnəlir
həyatda
gərəksiz olan.

## İSRAR

Ancaq deyirsən ki, indi deyim mən,
sevmədildərimdən,
sevdiklərimdən.
Kim məni aldatdı,
mən kimi atdım.
Kimdən qan ağladım,
kimi ağlatdım.
Kimin həsrətilə qaldım yuxusuz.
Yandırdı qəlbimi

hansı hərcayi,
hansı uğursuz?!
Kimə yalvarmışam,
kimdən qaçmışam.
Kimə qorxa-qorxa könul açmışam?!
Hansı afət olub qurbanım mənim?!
Harda başlamışdır
nigaranlığım,
harda qurtarmışdır
mehribanlığım!
Uzunmu sürmüşdür
hicranım mənim?!
Çoxmu ağlamışam
çoxmu gülmüşəm.
Kimlərdən yan durub,
uzaq dolanıb,
kimlərlə dərdimi
yarı bölmüşəm?!
İlk gənclik günümdən
bu vaxta qədər,
nə sərgüzəşt olub,
nə macəralar,
başla, bir-bir
mənə nəql et! - deyirson.
Ey gənclik həvəsi
ruzgartək əsən!

**DEYİM, DİNLƏ**

Gəl, otur!
Bax, belə!
Yaxın otur, gəl!
Möhlət verməyəcək bəlkə də əcəl.
Köhnə görünsə də bu söz nə qədər,
insan ürəyindən çıxmır şübhələr.

Əcə! - quru sözdür,
ölüm - həqiqət
Olümdan başlayır yolumuz,
fəqət,
olumdan ölümə yoldur ömrümüz;
acılı-şirinli
əyri, dolay, düz,
şəfqətli, kinli.
Qulaq as!
Çırpınma.'
Diqqətlə dinlə!
Qəlbimdir danışan indi səninlə,
Mön rüzgar olmadmı həyatımda,
yox!
Doğrudur,
başımın ınacərası çox,
ömrümün dastanı
dor-dolaşıqdır.
Ancaq, hər yarpağı
göz qabağında
aydın işıqdır.
Qoyma şübhə səni sorğuya çəkə!
Məhəbbət, sədaqət götürməz ləkə.
İnsan şübhələrlə yaranmış əkiz,
doğrudur, amma,
şübhələr də gərək olmaya yersiz.
Bəlkə sevgi özü bir imtahandır.
Sorğusuz qısqanclıq
Qəmdir, hicrandır.

**SƏN VARSAN**

Bəlkə?
Bəlkə?
Bəlkə?
Bu şübhə nədir?

Yoxsa həqiqətdir, bir əfsanədir?
Yox!
İnsan dünyası böyük, genişdir.
Heç kəs bu kitabı ilk varağından
son varağa kimi dərk etməmişdir.
Füzulidən soruş:
məhəbbət nədir?
Leylanın göz yaşı,
Məcnunun ahı
hələ qəlbimizi necə göynədir?!
O sayıb keçdiyin dəcəllikləri,
yuxusuz gecəni,
yorğun səhəri,
dolaşıq yolları,
həsrəti, dərdi
sənsiz
hansı ürək qəbul edərdi!

**İNAN**

Bütün ehtiraslar bir külək kimi,
qanadı zər tozlu kəpənək kimi,
könlümə, qəlbimə
köçəri gəldi,
hərcayi həvəslə, keçəri gəldi.
Tez getdi
baharın dumanı kimi,
ümidsiz bir qəlbin gümanı kimi.

**GÖRMƏDİM**

Çox gözlərə baxdım
səmavi, siyah,
qonur gözlərindən qəşəng
görmədim.

Bağlarda gül açdı,
Bağlarda lalə,
dodaqların kimi çiçək
görmədim.
Hərcayi insanlar çox vədə verdi,
onlarda saf ürək, dilək
görmədim.
Çox qumaşa baxdım,
atlaza baxdım,
qumral saçın kimi ipək
görmədim.
Ürəklərə baxdım,
bir sərraf oldum,
qəlbin kimi böyük ürək
görmədim.
Yer salıb könlümdə sağalmaz izi,
varmı bir qüvvət ki,
ayırsın bizi?

**OXŞARLIQ**

Yadlar söhbətindən sıxıldı qəlbim,
könlümün həsrəti
şirin dilədir.
Göylər təmiz olur tufan keçəndə;
ürək də,
könül də,
inan, belədir.
Bağda yüz gül açsın, yüz nadir çiçək,
bülbülün həsrəti
qızıl güllədir.
Xoşdur mənə sözün,
xoşdur söhbətin.
Sevinc gözlərimdə gilə-gilədir.

**HASİYƏ**

Vərdişin təsiri gör nə böyükdür.
Hələ də gül, bülbül,
İpək və lalə
mətləbə yükdür.
Nə gülə düşmənəm, nə bülbülə mən.
Ancaq düşünürəm: yolumuz əgər
Bakıdan birbaşa Muğanadırsa,
niyə keçək gərək,
biz Bülbülədən?..

**İNAM**

Hansı sualın var cavabsız qala?
Ümidlə, həvəslə bax istiqbala!
Səhvimiz olsa da ömür yolunda;
enişi, yoxuşu çoxdur yolun da.
Büdrəmək man deyil
bu yolda əgər
əslində deyilsə yolçu ağciyər.
İnadını onun qırmazsa müşkül.
Yüyürən yıxılar,
bu heç man deyil.
Yoxuşlardan qalxıb zirvəyə yetsən,
sanma yeganəsən,
sanma igidsən.
Arxana, önünə nəzər sal bir an,
görərsən, nə ilkçi,
nə sonuncusan.
Hərdən gözlərinə çökərsə kədər,
uzun sürməz o da,
sovuşub gedər.
İnamla yaşayır dünyada insan,
İnsana,
İnsana,
İnsana,
İnan!

**HİCRAN**

Ayrılıq dediyin duzlu bir sudur,
içdikcə köz kimi yandıracaqdır.
Hicran saatları yetişdi, budur
Bu gün, qorxudurdu məni haçaqdır.

Daha bundan sonra çıxıb eyvana
yoluma göz dikmə axşam çağları.
Yollar ayrıcında baxıb dörd yana
gözləmə hər səhər, hər gecəyarı.

Bəlkə də hər şeyi unudacaqsan:
yuxudan oyanmış bir uşaq kimi.
Ancaq hərdən məni yadına salsan,
gec gəlib, tez gedən bir qonaq kimi.

Bil ki, sənsiz mənə dar gəlir cahan,
Qəlbimdə, qanımda, duyğumda varsan
Dünyanın pərişan bağında, canan,
mən nəğməli bülbül, sən bir baharsan.

Sənindir bu dövran, bu böyük ölkə.
Qəm mizrabı vurma telə, sevgilim.
Desəm, görüşərik, sən demə, "bəlkə".
Cavab ver: - Elədir, elə, sevgilim!..

Gecələr Aya bax, ulduzlara bax,
gözlərimiz orda birləşəcəkdir.
Könlün aynasında, a ceyransayaq,
eşqin qələmiylə şəklimi çəkdir.

Xatırında varmı, tez-tez küsüşüb
deyərdin: - Danışma, dindirmə məni.
İndi ədaların yadına düşüb
yandırırmı səni, yaxırmı səni?

Hər zaman saçımı darayan zaman,
həsrət gözlərinə baxıb aynada,
bil ki, səni sevən, sənə inanan
könül ilqarını pozmaz dünyada.

Bəlkə bir gün səndən üzüldü əlim,
"Xoş keçdi az sürən bir ömrümüz" de.
Ayrılıq dəmində, aman, gözəlim,
qoy yadımda qalsın, bir yaxşı söz de!

Mənsiz bu dünyanın olsan qonağı,
nə olar, sevgilim, sağ ol təki sən.
Kim görsə boyasız solğun dodağı,
Onsuz da biləcək, sən mənimkisən.

*Krım, 1942*

**VƏFA**

Mən yollar ayrıcında səni gözləyən zaman,
bəlkə indi qan gedir sənin təzə yarandan.
Həsrətinlə axırkən gözlərimin gümüşü,
bəlkə dodağındadır gəncliyimin gülüşü.
Bəlkə ala gözünə toxunmasınlar deyə
bürümüşdür təbiət səni bir ağ pərdəyə.
Baş ucunda ağlayır küləklər həzin-həzin,
matəmini tutaraq hicranlı eşqimizin.
Bəlkə buz əridirkən şinelinin buxarı,
düşmənə qan uddurur qılıncının ovxarı...

Mən yollar ayrıcında səni soraqlayanda,
könlümün otağında həsrətim ağlayanda,
gündüzümün-gecəmin fərağını yığaraq,
qəfəsdə qumru kimi səni gözləyəndə, bax,
bu sinəmin içində yeyin-yeyin döyünən,
pərişan gözlərinin baxışıyla öyünən

qəlbim deyir: - Bir sabah gələcək o, günəşlə,
üzündə təbəssümlə, dodağımda atəşlə!
Üç il əvvəlki kimi oturacaq yanında.
Onun başından keçən yaralı dastanında,
dinləyəcəksən uzun əsrlərin dərdini,
görəcəksən bəşərin mərdini, namərdini.
Gözündə canlanacaq onun dolğun həyatı:
sadə insan ömrünün ölməyən nəqarəti.
Mən hər ilkindi çağı üfüqlərə baxanda
canlanırsan gözümdə, bir bənövşə yaxanda.
Hər şey gəlir xəyala, indicə olmuş kimi.
Sinədə qəlb çırpınır yaralı bir quş kimi.
Suya salxım sallamış o soyüdlər, iydələr,
dağ başında oyanan qızıl göyərçin - səhər,
üstünü şeh bəzəmiş çiçəklərin qoxusu,
sevgimizin şiddəti, anamızın yuxusu...

Yadıma nələr gəlir, könlümdən nələr keçir.
Fikrimin aynasından neçə səhnələr keçir.
O gənc ömrün ləkəsiz xəyanətsiz yazında,
ulduzlu gecələrin işıqlı ayazında
danışıb gülə-gülə gileyindən-küsündən,
istiqbala keçərdik xəyalın körpüsündən.
Körpəmizin adını olmamışdan qoyardıq.
O şirin arzuların nəğməsinə uyardıq...

İndi sən uzaqdasan: nə kağız var, nə xəbər...
Hicran nədir bilərmi yola göz dikməyənlər!
Çox yuxusuz gecələr sovuşsa da başımdan,
gözlərinin gülüşü çıxmayıb yaddaşımdan.
Yadımdadır, hər sözün, hər kəlmən yadımdadır.
Elə bil göyərçinəm, eşqin qanadımdadır,
Hər zaman, yüksəl deyir mənə, enmə aşağı!..
Keçən karvan buludlar, əlvan nənəqurşağı,
ötən o xatiratın rəngli səhifəsidir:
təmiz, böyük bir eşqin qalib çıxan səsidir.
Çəkmədim bir an belə yollarından gözümü.

Fikrinlə doldurmuşam gecəmi, gündüzümü.
Sən məndən uzaqdasan... qəlbimdə əhdimiz var:
Dünyada hansı qüvvət səni məndən ayırar!
Gözləyirəm səni mən, gözləyirəm hər anda,
axşamın kölgəsində, üfüqlər qızaranda,
sarı yarpaq düşəndə, isti külək əsəndo
gözləyirəm səni mən gəlsən də, gəlməsən də!..

*Krım, 1942*

**SEVGİLİM**

Durnanın qatarı gör nə qəşəngdir!
Səhər buludları nə lalərəngdir!
Mehriban gözlərin yol çəkir yenə;
Bir səs pıçıldayır: "Gəlməyəcəkdir".

Gecədir, Ay gəlib gəzir otaqda.
Qulağın səsdədir, fikrin uzaqda.
Sevgilim, nə görüb eşqin, sorsana,
qəlbin otağında tək ağlamaqda?

Uzaq üfüqlərdə al günəş batır.
Kölgələr dənizə min kəmənd atır.
Hicranın gözləri oyaqdır yenə;
nə gündüz dincəlir, nə gecə yatır.

Həsrət tellərinə kimdir əl vuran,
Göyərçin könlümdür yollarda duran.
Yüz illik bir ömrü qurban verərdim
xumar gözlərinə baxsaydım bir an.

Bilirəm, sadiqsən anda, ilqara,
Qoy çəkməsin fikrim könlünü dara,
O böyük eşqinlə sağalacaqdır
inan ki, aldığım ən dərin yara.

Oxşa körpəmizi, dik tut başını!
Çatılmış görməsin düşmən qaşını.
Namərdlər içindən sorağı gəlməz
könül həmdəminin, can sirdaşının.

Bəlkə bir gün məndən gətirdi soraq
qan ləkəsi düşmüş bir sarı yarpaq,
Bil ki, son şerimin ilk sözü sənsən,
Bir də can verdiyim bu ana torpaq.

*Krım, 1942*

**AYRILIQ**

Əlim qopdu əlindən,
Mən dedim: - Üşüyərsən!
Sən dedin:
- Əynim-başım istidir.
Mən dedim:
-Olsun...
Cəhənnəmdə də üşüyər adam;
yalqız olsa.
Sən getmişdin,
Sözlərimi eşitmədin.
Səni sözüm üşütmədi.
Sakit budaqlarda
sakitdi yarpaqlar.
Mən qışqırdım, ey!
Həsrətini gəl, apar!
Sən eşitmədin.
Səni səsim üşütmədi.
Ayrıldıq.
Evə gəldim.
Yaşıl civəyə baxdım.
Hərarət iyirmi üçdü.
Sözün yadıma düşdü:

Əynim-başım istidir.
Mən
Üşüyürəm istidən.
Bəs sən necə, sən?!

*Bakı, 1944*

**AYRILMAYAQ**

Xəyalın yanımda, sən uzaqdasan,
Hicranın yolları ömür qədərdir.
Bu yalqız axşamda yuvama baxsan:
mənəm, xəyalındır, bir də kədərdir.

Gəl, ört pəncərəni, qalaq üz-üzə,
bir sən ol, bir də mən, bir də gözlərin.
Vüsal qərq olurkən hicran – dənizə
ağ bir yelkən olsun o son sözlərin.

Bir sən ol, bir də mən, bir də dərdimiz.
Ağlayaq doyunca, gülək doyunca.
Baş-başa qaldıqca bu möhnətlə biz
döysün qapıları külək doyunca.

Döysün, qoy açmayaq. Yorulsun külək.
Qəmli hicran qalsın qapıda dustaq!
Bir an vüsalınla çırpınsın ürək.
Sonra... sonra yenə biz ayrılmayaq!

*Təbriz, 1946*

**İNDİ**

Məndən xəbər aldılar:
- Nə rəng gözlər yaxşıdır?
Mən dedim:
- Nə bilim.

İndi gəlsin hamıya isbat edim,
ən yaxşı göz
qonur gözdür, sevgilim.

Məndən xəbər aldılar:
- Nə rəng saçlar yaxşıdır?
Mən dedim:
- Nə bilim.
İndi gəlsin hamıya isbat edim,
ən gözəl saç xurmayıdır, sevgilim.

Məndən xəbər aldılar:
- Hansı səsdir ürəyinə yatan səs?
Mən dedim:
- Nə bilirn.
İndi gəlsin hamıya isbat edim,
ən gözəl səs səninkidir, sevgilim.

Gözlərinə baxanda,
saçlarının xurmayı dalğaları
kürəyindən axanda,
çağıranda adımı,
oxşayanda, gözləri gözün kimi
xurmasaç övladımı,
məndən sorsalar əgər
deməərəm ki, nə bilim.
Deyərəm ki, eşitsin, bilsin hamı.
Sən
hamıdan gözəlsən, sevgilim.

*1954*

**ÜLFƏT VƏ MƏSAFƏ**

Sən o başda,
Mən bu başda.
Aramızda altı aylıq piyada yolu.
Allo! - deyirəm.

Allo! - deyirsən.
Səs aydın, anlaşıq asan.
Elə bil yanımda,
bir əl uzadımındasan.
Bəzən yaxın oluruq,
"Bahar" sözünü demək istəyən
dodaqlar kimi.
Bir budaqda yanaşı bitmiş
yarpaqlar kimi.
Ancaq nə mən səni eşidirəm,
nə sən məni.
Xəbər tutmaram heç
aləmə desən məni.

*may, 1962*

**ƏBƏS YERƏ**

Birdən kəsildi
şıltaq sözləri, şıltaq səsi.
Asdı telefon dəstəyini.
Nə əlvida dedi, nə hələlik.
Sonra da
qulağı səsdə gözlədi.
Gözlədi ki,
indicə çalınar zəng.
Əbəs yerə!
Bilmədi ki,
ülfətdə də qadağandır
kö-lə-lik!

*Bakı, oktyabr, 1966*

## İNAN Kİ...

*Bu şerə Emin Sabiloğlu mahnı bəstələmişdir*

Gözlərinə baxmasam,
göz nəyimə gərəkdir.
Adını çəkməz olsam,
dil nəyimə gərəkdir,
söz nəyimə gərəkdir.
Qulaqlarım səsini
eşitməz olacaqsa;
yaxşıdır bu dünyada,
Bu aləmdə tək qalam
Könlüm ayrılığında
sızlasın ağlam-ağlam.
Saçlarının ətrini
duymaz olacağamsa,
neyləyirəm
yasəmən ətir saçır,
ya saçmır.
Neyləyirəm
bənövşə, nərgiz
açır, ya açmır.
Təbəssümün olmasa,
neyləyirəm ki, başqa
dodaq qaçır, ya qaçmır.
Səndən uzaq olanda
gecələrim uzanır.
Sənə yasın olanda
nitqim, dilim qısalır.
Elə bil ki, tale də
əlimdən yanğılıdır:
fürsət tapdı, mənimlə
öcəşir,
qisas alır,
nə deyim, nə söyləyim.

Belədir.
Deyim sözün düzünü;
səni görəndən bəri
lap qarışıq salmışam
bu dolaşıq ömrümün
gecəsi, gündüzünü.

*1970*

## ÜÇ GECƏNİN BİRİNDƏ

Üç gecədir sənsizəm,
Gündüzləri demirəm;
gündüzlərim dolu olur:
adamla,
xəbərlə,
nar dənəleriylə.
Qurtum-qurtum su
Təkər səsi,
Və belə-belə.
Gecələrim bütün bunlarsız olur
Adam,
xəbər,
su,
təkər səsi.
nə narsız olur.
Üç gecədir sənsizəm,
Üç gündür çevirirəm,
vaxtı varaq-varaq.
Bir-bir ötür keçir,
ağı-qarası.
İstəyirəm biləm
hardasan.
Yaddaşımda,
közə düşən bir damcı su kimi,
buxarlanır xəyalın.

Ancaq bilirəm:
bu gecələrin birində
sən vardın.
Uçan ulduz kimi,
suda əriyən
bir çimdik duz kimi,
ayrılan yolumuz kimi,
şəffaf buz kimi.
Yuxusuz,
kimi
mən itirdim?
Kim itirdi məni?
Tapmıram soruşam,
tapmıram səni.
Gecələrin birindəsən;
qupquru gözlərinlə,
yaşarmış sözlərinlə
Gecələrin birində yox oldun.
Var idin ki, yox oldun.
Yox yox olarmı?
Üç gecədir,
axtarıram yuxularımı,
Ümidimi itirməmişəm.
Axtaracağam səni
Nə qədərki, sağam.
Səninçin ölməyəcəyəm, yox.
ölməmiş, səni tapacağam.

*Qucarat, 1963*

**UĞURSUZ DUYUM**

Ürəyimə dammışdı -
səndən məktub gələcək.
Geldi,
gəlməli məktub:

bircə kəlməli məktub.
Ürəyimə dammışdı -
səndən məktub gələcək bu gün.
Son məktub.
Gəldi.
Masamın üstündə -
göy tabut!
Tabutda ümidimin cənazəsi,
bircə kəlmən -
"Yox!"

*1969*

**TƏBƏSSÜM**

Dunən gecə
sinəmin ağrısından oyandım.
Ağrıyan ürəyimdi.
Pəncərəmdən asılmışdı
gecənin zülmət pərdəsi.
Nə bir hənirti,
nə bir canlı səsi.
Yandırdım lampanı,
Divardan mənə baxan o kimdi
dodağında gülüşü?
İstədim deyəm;
ürəyim ağrıyır, axı,
bir düşün.
Təbəssümün elə gözəldi,
elə şirindi...
Sinəm yüngülləşdi.
Ürəyimin ağrısı
tutmur neçə gündür indi.

**ÜRƏYİNİ QORU**

Telefonla bu səhər
dedin: yaman istidir Bakı.
Alovlanıb, yanır şəhər.
Asdım dəstəyi.
Burda yağış yağırdı dünən.
Havadan səs eşidirəm:
- Bu gün də yağacaq.
Bu sərinlik mənə
cəhənnəm gəlir ancaq.
Ürəyin necədir əzizim?
Şəhər yanır - deyirsən.
Yay keçər, payız gələr,
Havalar- sərinlənər,
Ürəyin necədir, əzizim?
Ürəyin!
Onu incitmə!
Nə anam var, nə atam,
yazığın gəlsin mən yetimə.
Onu incitmə!
Şəhər yanır deyirsən
Şəhərə nə var.
Evlər daşdan,
Küçələr daş döşəməli.
Şəhərin yanında bir dəniz su var.
Ağacların kökü yer altında -
sərində.
Ürəyimizi qoru.
Ağrı görünməsin gözlərində.
Günəşdə çox dayanma, əzizim;
xətərlidir onun mehribanlığı.
Ancaq,
şəklimizin qabağında yubanma,
əzizim
daha yaman olur, xatirələrin yanığı.

*Yesentuki, 1965*

**SƏNSİZ**

*Bu şerə Cavanşir Quliyev*
*mahnı bəstələmişdir.*

Günlər keçir ağır-ağır
səndən ayrı.
Yollarıma gecə-gündüz
çiskin-çiskin kədər yağır
Səndən ayrı.
Qulağımda gülüşünün
şəlaləsi səndən ayrı.
Xəyalımda titrək, kövrək
Dodağının piyaləsi səndən ayrı.
Dəniz gəlir dalğa-dalğa,
qıvrım-qıvrım
dönür geri
sənsiz görüb sahilləri.
Küləklər də sığallamır
Çiçəkləri səndən ayrı.
Nəğmələr də nəğmələnmir
səndən ayrı.
Şərqilər də ləpələnmir
sənsizlikdə.
Buludlar da yırğalanır
həzin-həzin.
Həsrətindən dəliləşib
qırçınları göy dənizin.
Quşlar susub, nəğmələnmir
sənsizlikdə.
Şəfəqlər də ləpələnmir
Sənsizlikdə.
İndi söylə, mən neyləyim?

*fevral, 1980*

**BƏLKƏ**

*Bu şerə Polad Bülbüloğlu*
*mahnı bəstələmişdir.*

Gözlərinə de ki,
girməsinlər yuxuma;
nə kədərli,
ne sevincli,
nə şirin vədəli.
Dodaqlarına de ki,
çəkilsinlər xəyalımdan;
pıçıltılı,
gileyli,
hədəli!
ömrün illəri
çiynimə yığılıb
qalaq-qalaq.
Nə qəm!
Gəl bir əbədi an
səninlə
əl-ələ,
söz-sözə,
fikir-fikrə qalaq!
Bəlkə, bütün ötüb keçən günlər
ən gözəl günün müqəddiməsi imiş.
Bəlkə də bu nigaranlıq,
bu incimələr
məhəbbətin sınağı
sədaqətin səsi imiş.

*1966*

**BƏXTİYARLIQ**

İki əl örtdü gözlərimi.
Söndü işığı dünyanın.
Bu üfüqsüz,
bu sahilsiz,
bu dibsiz qaranlıqda
səni gördüm.
Əllərin dedi mənə:
gözlərinin gülüşünü,
dodaqlarının, qəlbinin
gülüşünü.
Əllərinin nəfəsi,
ele yumşaq, elə ılıqdı;
dedim: yəqin
gül üşümür.
Bir ömür qalsaydım belə
Əllərinin bu nurlu qaranlığında;
ülfətinin sərxoş qurbanlığında.
Səslərdən uzaq.
Rənglərdən uzaq.
Əllərimin nəvazişindən başqa
hər cürə istəklərdən uzaq.
Mümkünlərdən, gərəklərdən uzaq.
Dünyadan uzaq.

*may,19*

# *And*

## AZƏRBAYCANLI DÖYÜŞÇÜLƏRƏ

Sizədir sözüm mənim, eloğlu, doğma qardaş!
Yaranan tarix üçün səhifədir bu savaş.
Sabah qışsız, boransız bir bəyat qurulanda,
bu girdabın suları ayna tək durulanda,
qalib çıxan xalqların böyük təntənəsində
pərdə-pərdə qoy axsın sənin məğrur səsin də!
Ürəyi bölmək olmaz bu yaxın, uzaq, deyə.
Yurdu ayırmaq olmaz bu dərə, bu dağ, deyə
Bəlkə də Murovdağın daha yüksəkdir başı.
Çadırdağ dura bilməz Qoşqarımla yanaşı.
Ancaq alıb torpağı ovucunda qoxlasan,
Ana Vətən qoxusu yayılar dörd bir yana,
Kotana həsrət çəkir bu dərələr, bu dağlar,
Yazdır, calaq gözləyir tez oyanmış budaqlar.
Qaranquşlar qayıdıb axtarır yuvasını.
Barıt iyi bürüyüb Krımın havasını.
Qızıl bir pələng kimi günəş yatır sulara.
Krım üfüqlərində açılmış qanlı yara.
Qafqaz bir xəzinədir, açarı Krımdadır;
Suyu, yeri, havası yoxlasan Krımdadır.
Məsəl var: kəssə əgər Ovxarlanmış bir bıçaq
beş barmağın hansını, göynəyib ağrıyacaq.
Sənin evin var indi, öz dilin var, adın var,
anan, oğul-uşağın, sevimli arvadın var.
Azad torpaqlarında azad nəfəs almısan.
Sarı simli sazında öz mahnını çalmısan.
Əsrlərdən çıxarıb qızıl, nurlu səhərə
Şerini, sənətini göstərmisən ellərə.
Öz doğma balan kimi böyüdüb kolxozunu,

sən asfaltla silmisən yollarının tozunu.
Sevinmisən, gülmüsən hər yeni fabrikançın,
dağda məktəb açmısan yapıncılı çobançın.
Hamı hörmət bəsləyib cavanına, qarına,
ömrü keçmiş ananın ağ gümüş saçlarına.
İndi bir taun kimi ölümdən yol salaraq,
düşmən qarşıda durmuş əlində qanlı yaraq,
Məzarlığa döndərib elini, oylağını,
viran qoymaq istəyir məhsullu torpağını.
Qurudub bulaqları qan axıtmaq istəyir.
Şəhər küçələrində meyitdən dağ istəyir.
Bəşərin tarixindən silib sənin adını
rüsvay etmək istəyir qızını, arvadını...
İstəyir unudasan Vaqifin nəğməsini,
bulaq kimi çağlayan doğma dilin səsini.
O sənin torpağında istəyir olsun ağa,
çökdürüb dizi üstə səni quru torpağa,
Torpaq ki hər qarışı sulanmışdır tərinlə,
hər otu, hər ağacı bəslənmiş əllərinlə,
Vətən tapşırdı sənə azadlıq bayrağını,
Verdi məhəbbətini, dedi: məhv et yağını!
Vuruş ki, bu gün-sabah qalib gələndə yurdun
Hamı bilsin ki, sən də vətəni qoruyurdun!

*Tayquc, 1942*

**BƏXTİYAR**

Külək qarı səpələr, Bəxtiyar!
Ağ geyinib təpələr, Bəxtiyar!
Gecə qara, yol uzaq, qardaşım;
Göylər bulud, çöl-düz ağ, qardaşım.
Kaman çalan kimdir o, Bəxtiyar?
Küləkdi, ya simdir o, Bəxtiyar?
Hənirtini duydumu kəhərin?

Tüfənginə yapışdı əllərin.
Düşmən əli bir, təkcə sən, nə zərər?
Tənlik işarəsidir güllələr!
Gənclik, həyat şirindir, qardaşım;
Vətən qat-qat şirindir, qardaşım.
Ellərimin balası, Bəxtiyar!
Qəlbi vətən qalası, Bəxtiyar!
Qurtarırsa əsgərin gülləsi,
silahıdır qəlbinin kin səsi.
Məhv etdin on yağını, qəhrəman!
Qan sızırdı sənin də yarandan.
Boğazını zabitin gəmirdin.
İradə qüvvətinlə dəmirdin!
Qalib nəğmə səslənir, qardaşım!
Qalibiyyət nəğmədir, qardaşım!
Kaman çalsn kimdir o, Bəxtiyar?
Küləkdi ya simdir o, Bəxtiyar?
Adın bu nəğmələrdə - nəqarət!
Dostlar gedir cəbhəyə, rahat yat!
Bax, qızarır üfüqlər, qardaşım!
Bizimdir günəş, zəfər, qardaşım!
Sən qorudun vətəni, Bəxtiyar!
Vətən unutmaz səni, Bəxtiyar!
Bundan sonra fəxr ilə analar
Körpəsinə ad qoyar Bəxtiyar

**AND**

And içirik bu dərəyə, bu dağa!
Əcdadımız can qoyduğu torpağa!
And içirik şəfəq rəngli bayrağa!
Ana vətən, sənə layiq olarıq.
Yağılan darmadağın salarıq.

Könüldəki sədaqətə and olsun!
Düz ilqara, məhəbbətə and olsun!
Bizim böyük həqiqətə and olsun!
Göy üzündə açanda biz qanadı,
Ərşə çıxar yağıların fəryadı.

And içirik azadlığın adına,
And içirik şirin ömrün dadına.
And içirik sənə, ana-qadına,
Ömrümüzü elə qurban verərik.
Gülə-gülə yolunda can verərik.

Anamızın saf südünə and olsun!
Alqışına, öyüdünə and olsun!
Zəfər adlı böyük günə and olsun!
Azadlığın bayrağını hər zaman
Azərbaycan qoruyacaq yağıdan!

*1942*

**DÖRD YÜZ ON ALTI***

Mənim yaddaşımdan silinməmişdir
soyuq qış gecəsi, o qarlı ruzgar.
Gözlərimdən keçir indi də bir-bir
yaralanmış düzlər, yaralı yollar!..

Terek sahilləri, Don sahilləri,
Boz şinel, avtomat. Gözlərdə bir kin.
Dumandan sıyrılan o qış səhəri,
yadımdadır sənin qərbə getdiyin.

Yadımdadır atəş, alov içində
üzlərdə bir qəzəb, bir kin yanırdı.
Hər uçulmuş evin boz kərpicində
min intizar qalmış göz oyanırdı.

---

**Dörd yüz on altı - azərbaycanlılardan ibarət diviziyanın nömrəsidir.*

Döşündə qan donmuş körpə balalar
bizi intiqama çağıran zaman,

yandırılmış kəndlər, viran obalar
qisas, qisas, deyib bağıran zaman.

Siz doğma ellərdən yola çixdınız.
Zəfər bayrağınız yerə enmədi.
Düşmən səflərini vurub yıxdınız,
faşist səngərində binələnmədi.

Yağı qıvrılanda bir ilan kimi,
endi kəlləsindən sizin zərbəniz.
Tərlan yuvasını qoruyan kimi,
Qafqaz torpağını qorudunuz siz!

Qanlı döyüşlərin keçdiyi yerdə,
Hər qarış torpaqda izləriniz var.
Tarix vərəqləsin qoy pərdə-pərdə,
baş əyməz ölümə mərd yaşayanlar!

Faşizmin gözünə sancdınız bir ox.
Sarsıtdı zərbəniz lovğa düşməni.
Sizi salamlayır azad Taqanroq,
Bakının qardaşı, Çexov vətəni.

Hər taşist qan udar vahiməsindən
bundan sonra görsə bircə qaraltı.
Bağıracaq: odur, tanıyıram mən,
tufan kimi gəlir "Dörd yüz on altı".

Qıvrılanda yağı bir ilan kimi,
onu sərdi yerə sizin zərbəniz.
Tərlan yuvasını qoruyan kimi,
Qafqaz torpağını qorudunuz siz!

*Bakı, 1943*

## PİLOT QARDAŞ

Pilot qardaş, şahinləri göy üzündƏ havalandır!
Bir tərəfi buzlu dəniz, bir tərəfİ Savalandır
azad əllər bəslədiyi bu baharlı bağçaların,
insanlığın, səadətin ana yurdu - bu diyarın.
Qara bulud üfüqlərdə baş qaldırdı bizə sarı,
uçun göyə, ey yurdumun qızılqanad tərlanları!
Göydə vurun, yerdə vurun, yağılara yoxdur aman!
Sürünməsin bu torpaqda haçadilli şahmar ilan.
Elə vurun, yer titrəsin zərbənizdən yarpaq kimi.
Vurun, faşist bayquşları düşsün yerə papaq kimi.
Goydə yansın, yerdə yansın ölüm yayan yarasalar.
Faşistlərin kirli qanı daşa düşsə yara salar.
Elə vurun, yerə girsin, qalmasın bir əsər, nişan,
o canavar sürüsündən, yarasalar yuvasından.
Şığıyanda şimşək kimi şahinlərim qatar-qatar,
dünya görsün, bizdə necə oğul doğur mərd analar.

*1941*

## İNTİQAM

Xəyalımın qanadında ənginliyə yol açdım.
Gəzdim döyüş meydanını, cəbhələri dolaşdım.
O yerdə ki, sərin sular çağlayırdı dupduru,
evlər gördüm - külə dönmüş, çaylar gördüm qupquru.
Körpə gördüm - dodağından damla-damla qan sızır,
süngüsünə keçirmişdi onu faşist qansızı.
Qoca gördüm - əyilmişdi sinəsində ağ başı.
Bacı gördüm - diri-diri basdırılmış qardaşı.
Ana gördüm - bir gecədə qara saçı ağarmış.
Göyə sordum: yay günündə buluddan qar yağarmış?
Göylər dedi: bu qar deyil, cinayətin barıdır.
Zənn etmə ki, o gördüyün ömrü keçmiş qarıdır.

İyirmialtı bahar görmüş həyatında bu qadın,
saçlarını ağartmışdır qanlı əli cəlladın.
Bir ciit körpə balasını bir süngüyə taxdılar.
Atasını öldürdiilər, komasını yıxdılar.
Tikə-tikə doğradılar yarah qardaşmı.
Ətəyinə tulladılar anasının başım.
Belə qara tarixi var o ağarmış saçların.
Bu sadə bir əməlidir insan yeyən acların.
Çox dolaşdım, çox şey gördüm vəhşilikdən nişana!
Rast gəlmədim o yerlərdo boyun əymiş insana.
Oğlu ölmüş mərd analar səngərlərdən səslənir.
Hər ürəkdə yağılara qəzəb və kin bəslənir.
Dağlar gördüm, dedim, bunlar söyləyin, nə dağıdır?
Dedilər ki, bir döyüşdə məhv edilmiş yağıdır.
Gecə sordum ulduzlardan rıə qədərdir sayınız?
Dediler ki, qızılqanad şahinləri saymız.
Gündüz baxdım göy dənizo dedim: nə çox suyun var!
Dedi: məndən sərvətlidir yurdundakı buraqlar.
Daş-qayaya baxdını dedim: qranitin nə bərkdir!
Dedi: sənin tanklarından mənim daşım kövrəkdir.
İldırımdan sordum: nədir səsindəki bu qüvvət?
Dedi: məndə olaydı kaş topundakı o qüdrət!
Dedim: nədən rəngin belə qıpqızıldır, ey səhər?
Dedi: sovet bayrağından nur almışdır üfüqlər.
Yerə baxdım, göyə baxdım, dedim: zəfər bizimdir.
İnsanlığı güldürəcək nurlu səhər bizimdir!
Nifrətimiz dərya kimi sahilləri aşaraq,
qəzəbimiz sinəmizdə tufan kimi coşaraq,
Yurdumuzuıı qisasını yağılardan alarıq.
Axıtdığı hər qan üçün, ondan yüz qan alarıq.
Qan çilənmiş torpaqlarda gülər yenə ilk bahar.
İntiqamın alovunu onda görər yağılar!

*1942*

**METAL QIRINTILARI TOPLAYIN**

Axtarın künc-bucağı!
Axtarın hər padvalı!
Toplayın, təhvil verin
parça, qırıq metalı!
Kimi gərsən başa sal:
ölkəni qorumaqçın,
gərəklidir hər metal!
Bu gün təhvil verirsən
parça-parça metalı,
sabah təyyarə olur,
o, gülləli, bombalı.
Düşmən acdır deyirlər,
onu gərək doyduraq!
Qarnına qurşun töküb,
ağzına da mis vuraq!
Qoy bir daha acmasın!
Qoy həddini aşmasın.
Deyək: - Faşist quduzu,
istəyirsən buyur, al!
Bizim Azərbaycanda
toplanmışdır bu metal.
Bir zaman bu qazandı,
indi şrapnel oldu.
Yağılan yandıran
alovlu bir sel oldu.
Evdar qadın, vətəndaş!
Sən də, pioner yoldaş!
Kimi görsən başa sal!
Məntəqəyə dalbadal
Təhvil verilsin metal.
Bu gün təhvil verirsən
parça-parça metalı;
sabah təyyarə olur
o, gülləli, bombalı!

*İyul, 1941*

## BABAMIN SƏHVİ

Babam saqqalı ağ,
qaşları qalın,
qarayanız, enli alın
bir kişiydi.
Namaz qılıb gündə beş rükət;
deyərdi: Nağalayın atasına rəhmət!
Bizdən saldat aparmadı.
Gavur olsa da,
behiştük çəkilsin adı.
Mən o zaman uşaq idim.
Üç şeydən qorxardım:
cin, hind toyuğu, saldat.
Eşidəndə babamın duasını
düşünürdüm: nə yaxşı ki,
adamı saldat aparmırlar,
Nə yaxşı ki,
atamı saldat aparmırlar.
Ancaq...
Ağır oturdu bizə bu "mərhəmət".
Böyük Vətən davasında,
Daha yaxşı anladıq bunu;
Nikolayın bizə olan "qayğısını".
Çıxdıq amansız düşmənə qarşı;
əlimiz müasir silaha öyrənməmiş,
şüurumuz böyük davada naşı.
Yadıma bir köz kimi düşür
dərdli Krım.
Yadıma düşdü,
yetmiş tikəsini bir qutuya yığdığımız
qarayanız əsgərin
anasına yazdığı yarımçıq məktub,
onun ucu belə sınmamış
təzə karandaşı.
Yadıma düşdü sərxoş bir kapralın

könlümə vurduğu şillə - yeldaşı!
Bəli, çox yaralandıq, öldük.
Gün oldu tut kimi töküldük.
Demirəm hamıdan artıq verdik qurbanı.
Ancaq, dənəylə sanamazlar insanı.
Bəzən məhv olan bir nəfər
sağ qalmış yüzə dəyər.
Xatırladım babamı,
çünki yaxşı öyrənsəydi
müasir silaha əlimiz;
daha az qurban verərdik,
daha artıq düşmən anası ağladardıq.
Axı çox yerdə
silahla yarılacaq cəbhəni
sinəmizlə yardıq.
Döyüşə bələd düşmən
bir yaylımda sərdi yerə
bölüyümüzün neçə səfini.
Qanımızla yumalı olduq
yazıq, sadəlövh babamın
tarixi səhvini.

*1961*

**ŞAM**

Pəncərəmin qabağında gecə dayanmış.
Ürəyimdə min bir arzu, həvəs oyanmış.
Mən cəbhədə, bir komada şeir yazıram.
Yanır saxsı parçasının üstündə bir şam.
Mum əriyir, gilə-gilə axır aşağı.
Şanı ağlayır, həzin-həzin yaş axır,
Qaranlığı otağıma buraxma, şamım!
İşığınla dolu qalsın gecəm, axşamım.
Qızıl alov qanadında yuvamı parlat.

Pəncərəmdə əlvan səhər qoy açsın qanad.
Gecə qara, ölüm yaxın, həyat şirindir...
Bu qəlbimin təsəllisi şəfəqlərindir.
Gözlərimdə uzun-uzun gəzir bir xəyal:
keçən günlər, ilk məhəbbət, o hicran, vüsal,
buludlarda donub qalan qürub gövhəri,
göy dənizdə axşam doğan bir yay səhəri,
körpəm, evim, az ömrümün sadiq yoldaşı,
sinəm üstə damcılayan isti göz yaşı,
qoca ana gözlərində qalanı bir sual,
o gözlərin lisanında keçən həsbhal,
dönüb baxıb, ayrıldığım vətən yolları,
o, boynumdan ayrılmayan körpə qolları.
Gözlərimdən ağır-ağır keçir səhnələr:
aydın gecə, buludlu göy, səadət, kədər...
hanı mənim şölə çəkən ağ şamım, hanı?
Ağır olar qaranlıqda onun hicranı.
Mən şerimi yaza-yaza bu zülmət gecə,
Köçüb getdi bu dünyadan şamım gizlicə.
Zəif duman titrəyərək getdi ötəri.
Pəncərəmə qondu şəfəq göyərçinləri.
Soruşuram, hanı şamım? Şerim səslənir:
oxu mənim nər sətrimi, sözumu bir-bir
Duyacaqsan ölən şamın hərarətini!
Təmənnasız keçən ömrün sədaqətini.
Mən xəyala dalıb dedim: eşq olsun şama!
Qaranlığı buraxmadı mənim yuvama.
Şöləsində şeir yazdım, açdım qəlbimi,
Nə olardı, ömrüm keçsə bu ağ şam kimi!.,

*Krım 1942*

## KRIM

Mən sənin torpağını gəzmişəm qarış-qarış...
Ayağım yollarında qat-qat qabar bağlamış.
Görmüşəm Simeizin, Yaltanın baharını,
dənizdə dalğaların göy durna qatarını.
Sinəndə dincəlmişəm dost kimi, qonaq kimi.
Sən düşmənlər əlində qalanda dustaq kimi
qəlbimin ağrısından gecələr yatmamışam.
Əynimdə bir boz şinel, qabağımda qırıq şam.
Dinləyib xısın-xısın ürəyimin səsini
Yazmışam yaxın günün zəfər təranəsini.
Soyuq, qarlı yanvarın sazaqlı səhərində,
Kerçin, Feodosiyanın qanlı sahillərində,
səni qurtarmaq üçün ömrünü qurban verən,
müqəddəs torpağında "Vətən!" deyib, can verən
igidlərin ölməyən dastanını görmüşəm.
Daşında qardaşımın al-qanını görmüşəm.
Aylar, illər boyunca çəkərək həsrətini,
hicranda saxlamışam sənin məhəbbətini.
Bu gün zəfər topları deyir azaddır Krım.
Sevincdən istəyirəm durub mən də hayqırım,
o top gurultusuna qatım mən də səsimi,
anasına qovuşan həsrətli oğul kimi.
Xəyalımda canlanır Sevastopol suları...
Bir qızıl bayraq kimi alov qalxır yuxarı,
Zəfər bayraqlarımız əyilir sahillərə.
Qalibiyyət səsinə səs verir hər dağ, dərə...
Gözəl Krım, dost Krım, əziz, mehriban Krım!
Düşmənin pəncəsində məğlub olmayan Krım!
Neçə-neçə övladın həsrətinə yanırsan.
Daş olsaydın əridin, torpaqsan dayanırsan.

1945-1961*

* Bu şerin altında bir-birindən 16 il aralı iki tarixin olmasının səbəbi odur ki, şerə sonralar əlavə olunmuş son iki misra Krım-tatar xalqının sürgününə işarə edir.

**SƏNİN AD GÜNÜN**

*Anara*

Ev... süfrənin başında oturmuş qohum-tanış;
Hamı deyir: - A bala, sevin, oyna, gül, danış!
Sənin gözün qapıda, qulaqların səsdədir.
Qəlbin quştək çırpmır, ele bil qəfəsdədir.
Bax, gəldi yoldaşların, əllərində hədiyyə.
Sən kimi gözləyirsən, indi gələcək deyə.
Nədir gözlərindəki o həsrət, o intizar?
Neçin gül tək açılmır gülüşünlə dodaqlar?
Divardakı nədir o, uzun-uzun baxdığın?
Gəl, qəlbimin parçası, dur gəl sinəmə sığın!
Sən məni axtarırsan, mən uzaqda deyiləm.
Doğrudur ki, yanında bir otaqda deyiləm;
ancaq yoxla hər yeri, şerimi, məktubumu, -
gör səndən ayrı keçən bir dəqiqə oldumu!
Gözünü çək qapıdan, sevin, oyna, gül, danış!
Körpo qəlbin duyğusu dünyada aldanmamış.
İndi məni gözləmə, gözünü yora-yora;
gələcəyə indi yox, bəlkə də çox-çox sonra...
Sən orda həsrət çəkib məni gözləyən zaman,
qomyuram ömrünü burda mən yağılardan.

*Krım, 1942*

**İŞIQLAR YANDI**

*Qızım Fidana*

Günəş çoxdan üfüqlərdən rəngini çəkdi;
Göy üzündə ağ ulduzlar çiçək-çiçəkdi.
Kimsə, birdən evimizdə işıq yandırdı,
Elə bil ki, yuvasında quş oyandırdı.

Sənin məsum gözlərində dərin bir maraq,
Tez diksinib gülümsədin, dedin: "Ata, bax!
Evimizdə işıq yandı, nə göyçək oldu!.."
Sonra birdən gözlərinin şəfəqi soldu;
Bir təşvişlə qaşlarını düyünləyərək,
Ətrafına göz gəzdirdin, sən ürkək-ürkək.
O bayaqkı sevincindən qalmadı əsər,
Gözlərində qorxu vardı, üzündə kədər.
Evə baxdın, mənə baxdın, işığa baxdın,
Həyəcanından az qala ki, ağlayacaqdın.
Dedin: "Tez ol, işıq çıxdı, ört pəncərəni,
Yoxsa gəlib əsgər əmi aparar səni!
Bilmirsənmi işıq çıxsa, görərlər bizi,
Bomba atıb sındırarlar pəncərəmizi".

Mən qıvırcıq saçlarını sığallayaraq,
Dedim: "Mənim körpə balam, nədir bu maraq?
Tut əlimdən, nazlı qızım, gəl eyvana çıx!
Gözlərində gəzən kölgə çəkilsin artıq.

Bax, çıraqban küçələrə, nə çox işıq var!
Göy üzündən çəkilmişdir qara buludlar.
Qoy pəncərə açıq qalsın, bol olsun işıq...
Qaranlığın pəncəsindən onu almışıq!"

*1945*

# *İtkilər*

## İKİ DƏFƏ ÖLDÜRÜLMÜŞ HAMLET

*(H. Ərəblinskinin əziz xatirəsinə)*

Danimarka prinsi
nələr gördü,
nələr çəkdi.
Xəyanət, riya,
şəhvət düşkünlüyü.
Ümid, sevinc beşgünlüyü.
Yazıq sənə, Hamlet,
yazıq, qəmli filosof!
Bir dəfə öldürdülər səni
uzaq-uzaq keçmişdə.
Bir də böyük aktyorla
bir gündə;
sirri açılmayan
günah üstündə.

*Buzovna, avqust, 1972*

## SƏHİFƏLƏRİN YADDAŞINDAN

*A.Faruqa*

Bu kitabı sən vermişdin.
Üstündə
"Dostum nöqtə, nöqtə" yazı.
Sonra, sonra oldu
sənə atılan acı sözlərin,
insafsız sözlərin.
tikanlı sözlərin
tolamazı.

Sənin yazından aşağı
iki sətri mən yazmışam;
o bədbəxt, o qaynar,
o kədərli axşam;
dostluğumuzun yeri göynəyəndə.
Mən yazmışam
varaqlarında
gecəmi gündüzümə caladığım kitabın
əzik köynəyində.
Bu məktubdan sonra görüşmədik.
Sən özün yazmışdm:
"Bəlkə görüşmədik!.."
Göruşmədik;
bəlkəsiz.
Nə sən dəqiqələrindən xəbərim var,
nə harda basdırıldığını bilirəm.
Bəlkə qara quzğunlar
caynaqlayıb yedi qara gözlərini.
Bəlkə də yanaqlarında
gilə-gilə buz oldu,
hələ ağrılı nəfəsin kəsilməmiş,
üzünə düşən qar naxışları.
Bəlkə
üstünə cansız sərildiyin torpaqda,
bir parça, bir boy o torpaqda,
cəsədin qaldı neçə gün.
Və düşmən ayağı dəymədi torpağın o parçasına.
Bu da sənin vətənə son borcun oldu.
Bəlkə də o torpaq,
o torpaq ki, sinəsinə aldı səni,
dönə-dönə sənin qorucun oldu.
Lakin
nə sən qoruya bildin onu
sona qədər,
nə o səni.
Əbədi o torpaqda qaldı
yurdumun neçə-neçə
Əlisi, Əhmədi, Həsəni

və sən!
Dünyaları versələr
istəməzdim;
bir gün, təbəssümünlə,
qapımdan girsən.

*mart, 1964*

**BELƏYDİ DOSTLUĞUMUZ**

Əzizim Tatul Huryan!
Bəlkə sənin qanındır
uzaq-uzaq torpaqda,
xəzəl olmuş yarpaqda
qurayan.
Şeir kitabını
bir də varaqladım bu gün.
Oxudum yazdıqlarını.
Düşündüm yazmadıqlarım.
Sığalladı qəlbimi
şerinin sətirləri
bir dost,
bir işdaş,
bir şair mehribanlığıyla
gələ bilsəydin bu gün
Müşfiqlə qol-qola.
Neçəsi utanardı sizi görüb,
ülfətinizi görüb.
Dildə "qardaş", "qardaş" deməklə
qardaş olmur insan.
Gərək ürəkdən bağlanıb,
ürəkdən duyub,
könüldən qaynayıb, qarışasan.
Nə üzə görə sənə dost dedim,
nə yarım ömür
iclasdaş olduğumuza görə.
Özün sadə idin,
boyun - törə.

Qəlbində bir parça da
qara fikirlərin qurumu yoxdu.
Könlün, gözün toxdu.
Bilirdin dost sözü
elə tutumlu,
elə qiymətli,
elə müqəddəsdir -
bir dəfə dedin,
bəsdir!
Ən mənalı söz belə,
yerli-yersiz işlədəndə
itirir dəyərini, duzunu.
Heç hərarət əridə bilməz
ürəkdən bağlanmamış,
"məhəbbətin buzunu.
Yadımdadır,
necə nifrətlə, qəzəblə
danışardın
saxta dostluğun
iyrəncliyindən.
Dost sözünün
qocalmayan gəncliyindən.
Səsimiz həmahəng olurdu
deyəndə:
dostluq üzdən deyilsə,
məhəbbət sısqa,
ülfət cılız pöhrə deyilsə,
varam!
Niyyətli sevgiyə,
şöhrətli mehribanlığa,
qurama peşmanlığa,
qondarma pərişanlığa,
qondarma insanlığa,
dotələb nadanlığa,
yoxam! Yox!

*1966-1970*

**BƏLKƏ DƏ**

*M.Rəfiliyə*

Onunla həmmərəz idik biz,
o deyirdi:
Eh! Cəhənnəm olsun
bütün dərman, pəhriz!
Mənə dağ havası verin!
Sac yuxası verin!
İstəyirəm sərxoş olum meyindən
əyri boyun bənövşədən
qalxan ətrin.
Mənə
qızıl söyüd çubuğundan hörülmüş səbətdə
moruq gətirin!
Açın sinəmi!
Dəniz yeli dəysin ona!
Haram olsun mənə
bu torpağın çörəyi,
dincimi almadan,
yorulmadan, qocalmadan
səksəndən getməsəm doxsana.
Azarı, ölümü
büküb qoymasam ayağımın altına!
Belə deyərdi.
Əllini yeni keçmişdi,
qara örtük saldılar tabutuna.
Bəs niyə belə?
Həkimlər gəldi,
yazdılar, pozdular.
Gah elə, gah belə yozdular.
Yan-yana düzüldü,
neçə-neçə qəşəng latın sözü.
Qərara gəldilər:
... Xəstəliyin şiddəti...
Bir də... özü...

Ancaq bir deyən olmadı
bəlkə... səbəb başqadır
Bəlkə... arzusu doğrulmadı.
Bəlkə...
ona dağ havası
sac yuxası,
bir də
qızıl söyüd çubuğundan hörülmüş səbətdə
moruq verən olmadı?..

*1958*

**İTKİLƏR**

*C. Cəfərə*

Neçə dostu itirmişəm;
ölən oldu, qalan oldu.
Elə bir dost itirdim ki,
bütün dərdim yalan oldu.

*1972*

**REKVİYEM**

Dostum Lətifə*

Divarda yeddi çopur var.
Yeddi dərin çopur.
İkisi ayrı,
beşi topa.
Hər çopur,
bir qırmanın yeridir.
Qırma yeddi deyilmiş,

* Kinorejissor Lətif Səforovun intiharı münasibəlilə yazılmışdır.

Ürəkdə qalıb neçəsi.
Ürəkdə nisgil qalar,
həsrət qalar,
arzu qalar.
Ürəkdə tikə qalar,
söz qalar.
Ürək ağrıyar.
Niyə ürəkdə qaldı qırmalar?
Ürək yüz il yaşayar,
sözdənmi, güllədənmi qırılmasa,
ürəkdə qırma qalmasa.

Yadıma düşdü.
Min doqquz yüz qırx üçün qışı.
Şaxta kəsirdi
xəncərsiz, bıçaqsız.
Külək əsirdi
Yandırırdı
odsuz-ocaqsız.
Moskva vağzalında, perronda
geydin Bakı hədiyyəsi
içi qoyun yunu,
çölü qaba brezent kürkü.
Belə bir kürk,
ölümlə həyat arasında
keçilməz bir sədd idi onda.
O zaman, ölümdən qorudu səni
sadə bir kürk.
Çox vaxt
ölümü uzaqdan duyur,
yaxında görmürük.
İnsan yaşayır.
Bir də baxırsan
ay keçdi, il keçdi.
Günlərin nə əvvəli,
Nə sonu var.
Hər gün

Ölməkçün nə tez,
nə gecdi.
Addımladıq ömür yolunu
sən ayrı, mən ayrı.
Rastlaşdıq
gah iclasda, gah səfərdə,
gah ekranda,
gah səhifələrdə.
Bir gün,
adi günlərdən biri,
söhbətimiz çatanda sona
sən evə yollandın,
mən Hindistana.
Sağ-salamat gəl!
Görüşərik deyəndə,
qəlbində ölüm ağrısı varmış.
Sonra bildim mən,
Tapşırıqlarını, borclarını vermisənmiş.
Yarımçıq işlərini görmüsənmiş;
neçə ay qabaq.
Ölümü qəlbində, beynində saxlamısanmış,
yaşadığına baxmayaraq.
Ayrıldıq.
Nə əlvida dedin,
nə baxışında
son görüşün ağrısı vardı!
Nə sözlərində bir damla acı,
nə dilində
ürəyini boşaltmaq ehtiyacı.
Bəlkə boşalsaydı ürək
belə olmazdı heç.
Nə bilək.
Divarda yeddi çopur qalıb.
Sən yoxsan.
Sən var olanda
bu çopurlar yoxdu.

Elə bil qaynar yağ çilənib
divarın üzünə.
Yanıb divar yeddi yerdən
yanıqlar xatirə qalıb
yolu o məşum gecənin
qaranlığında itən
kədərdən.
Yoxluğunla bitmədi sənət,
bitməyəcək.
Yaradacaqlar;
bəlkə səndən yaxşı,
belkə pis.
Lakin sən yarada biləcəyin
yaranmayacaq sənsiz.

Getdin:
nə kimsəni incidib,
nə kimsədən inciyib.
Şikayətini eşidən olmadı
dostlardan, tanışlardan;
nə böyüyü, nə kiçiyi.
Nə adın
qara çərçivəyə düşdü qəzetlərdə,
nə elan,
nə nekroloq.
Ağız büzənlər də oldu,
qaş çatanlar da,
çiyin çəkənlər də.
"Nahaq" deyənlər də
Çox nahaq, çox!

Soruşan gərək,
nə haqla
soxulursunuz araya,
bu "nahaq-nahaqla!"
Məgər qəlbinin
dərd qrammasını oxumuşdunuz?

Məgər fikrini
köçürən olmuşdu

maqnitofon lentinə!
Məgər baxışlarmı
təhlil etmişdilər
laboratoriyada-
Qəmi bu qədər!
Ümidi bu qodər!
Sevinci sıfırdan bu qədor yuxarı!
Kim ölçmüşdü fıkirlərinin
ağırhğmı,
Arzularımn iınkan məsafəsini?
Kim bilir,
bəlkə bir insan şəfqətilə
sığallamışdm
hələ qıırğuşun yükündən
taqoti qınlnıamış
qəlbini!
Sığallamışdm
vaxtından qabaq
ağrımasın deyə,
göynəməsin deyə.

Məzəmmət deyil sözlərim.
Sənin ölməyə haqqın olmayan kimi
mənim haqqım var deyəm:
çəkilməmiş filmləri,
tapılmamış mizanları,
kimə tapşırdın?
Bir damcı göz yaşı,
bir təbəssüm,
bir gülüş,
bir insan sevincinə səbəb olacaq
kadrları hara apardın?
Bəlkə bir adama açsaydın qəlbimi
daha bir neçə gün,
daha bir neçə il,
bəlkə uzun bir ömür

yaşamağa yol tapardın;
qızınıb ülfətlə, qayğıyla, məhəbbətlə.
Nə qədər az olsa da
Mehribanlıq cirəsi,
bu ehtiyacla bağlıdır həyata
insan beyninin,
insan qəlbinin hər hüceyrəsi.
Getdin.
Nə dilində nəğmə,
nə son məktubunda şikayət,
nə qəlbində kin.
Hazırlaşdın o gedər-gəlməz yola,
yaxın səfərə hazırlaşan kimi.
Ehtiyat çörək götürmədin.
Papiros qutusunu belə
qoydun özünlə aparmayacağın
pencəyin cibinə.
Ancaq qırmaları
həyatdan son hədiyyə kimi,
neçə-neçə,
doldurdun gilizə.
Baxan deyərdi:
yenə ova hazırlaşır
Münhauzen.
Kim deməzdi,
öz qəlbindən başqa,
bir də ov barəsində yatmayacaqsan
daha son.
Kim bilir, bəlkə,
qırmalardan bir neçə kələ-kötürünü
əvəz etdi hamarıyla, sığallısıyla
bir-bir.
Kim bilir!
Kim bilir!
Divarda yeddi çopur:
ömür adlanan qəribə yolun
sonucu bu!
Nə gərəkdir indi əllaməlik,

qəhmərlik, məzəmmət.
Nə gərəkdir doğruya bənzəyən
yalanlar.
Nə haqla gedənləri
darıyır qalanlar.
Nə kimsəyə qadağandır bu yol,
nə kimsəyə örnək.
Lakin,
fəlakətlər azalar yəqin,
bağlı qalmasa ürək.

*1964*

**İNDİ İDİN, KEÇMİŞ OLDUN**

*Şeir Əlağa Kürçaylının və qızı*
*Ülkərin faciəvi ölümünə həsr edilib.*

Gözlərin yumuludu.
Rəngin solğun Ay işığı.
Soyuq üzündə - qaşlarının yaraşığı.
Çağırsam, dinməyəcəksən, bilirəm,
ən mehriban, ən yanıqlı sözlərdən
isinməyəcəksən, bilirəm.
Hansı varaqdadır son sətrin, bilmirəm,
Son şerinin kəlmələri
pərişandır, ya çin-çin - bilmirəm.
Ancaq var onlar,
var, var, var, bilirəm.
Ya kimsəyə deyilməz,
ya kimsəyə açılmazdı
o varaqlar - bilirəm.
Deyilməmiş, yazılmamış
nələrin vardı - kim bilir.
Dərdini, qara iplik kimi
bədəninə yol açan amansızlığı
həkim bilir.

Ağrıların hansı sözə,
hansı sətrə sığışardı.
Hər əzələndə, hər parça dərində
dırnağında, köksündə vardı.
Elə çoxdu, elə böyükdü, elə amansızdı -
namərd yağıya yaraşan.
Sən ki kişi oğlu kişiydin.
Qardaş, bu nə taledi, bu nə işdi.
Gözlərində nə iztirab yanğısı
nə mərəzin acısı,
nə giley gərəyi vardı.
Sinəndə bir dözüm, bir inam,
bir ümid ürəyi vardı.
Ancaq elə bil
nə isə axtarırdı baxışın.
Bəlkə möcüzə - nicat,
bəlkə bir şeirlik həyat.
Bəlkə əqrəbləri ağır-ağır,
Ləng işləyən saat.
Gözlərin qəşəngdi,
ən gözəl şeirlərin kimi.
Mən bilirdim taleyin amansız hökmünü.
Ancaq sənə deməli yalanım
hazırdı əvvəldən:
"Səndə nə var ki,
bu gün daha yaxşısan".
Bəzən özüm də
inanmaq istəyirdim bu acı,
bu qorxunc yalana.
İndi bir qoşa tabut var,
bir də göz yaşları
yanıb, yanıb qurumuş ana.
Bir tabut sənindir, bir tabut...
Sən ona quzu deyərdin.
Anamın göyçək qızı deyərdin.
Gözləri gözlərinə
necə də bənzəyirdi;

qara, iri, qəşəng.
Hələ qönçəsi açılmamış çiçək.
Günlər keçəcək.
Şeirlərin gəzəcək dodaq-dodaq - sənsiz.
Məhəbbətin gəzəcək
ürək-ürək - sənsiz.
Kim bilir, bəlkə payına düşən
Həyat günlərinin bir bölümünü,
Xoşbəxt oldun, görmədin
əziz balanın faciəli ölümünü.

*1930*

**GECİKMİŞ QİYMƏT**

İlk dəfə böyük dedilər ona;
kiçik bir tabutda yatandan sonra.
Adı şəfəq saldı yurduna;
özü Ay kimi batandan sonra.
Kitablarını açdılar;
torpaqda qızıl damarı açan kimi.
Qaçdı, ətrafından
həsəd, qərəz, laqeydlik;
duman küləkdən qaçan kimi.
Çoxları araşdırdı öz xatirəsini,
tapdı olanı, uydurdu olmayanı da.
Sərfəlini yazdı, gizlətdiyi də oldu.
Neçə səhifə, neçə dəftər doldu.
Belə çıxdı dost imiş ona,
bəd istəyəni də, hayanı da.
Hər sözündə bir məna tapıldı.
Hər işində bir aləm dəyər.
Tarixi bir zərurət imiş
asqırıbsa, öskürübsə əgər.
Neçəsi yada saldı yaxşılığını.

Biri nadir natiqliyini,
biri qranit məntiqini,
biri mehriban yoldaşlığını,
xoş qılığını,
biri şirin çayı necə qarışdırdığını.
Min bir sözə bükdülər xatirəsini;
zərli-zibalı söz örtüyündə
itirdilər doğrudan da olanların izini,
Sağ olsaydı
baxıb bu məhəbbətə,
belə günə,
özü də təəssüf edərdi,
belə bir insanın öldüyünə.
Bəlkə də ömrün yükünü
daha rahat daşıyardı,
Bəlkə də, neçə il artıq yaşayardı.

*1968*

**SUSMUŞ TELEFON**

Dəstəyi qaldırdım.
Yığdım nömrələri.
Duuu...
uzun səs!
Gözlədim.
Nə fayda!
Asdım dəstəyi.
Yenə də qaldırdım.
Yenidən yığdım nömrələri.
Dedim, bəlkə dəyişmişdir.
Yox!
Həmin nömrələrdi:
əvvəli doqquz,
axın bir.
Bu adı, bu nömrəsi.

İndi bir yoxluq var,
bir göynək,
bir də qulağımda
onun xəyali səsi.
Dayandım gözlədim, əbəs.
Bir sükut vardı,
bir də heç kəs.
Düşündüm:
neçə belə sükut dinləməyə
çatar Ömrümün günü;
qəlbimi qapayınca
adi qan düyünü.

*1962*

## EPİTAFİYA ƏVƏZİNƏ

Öldü!
Gün... saat... dəqiqə...
Bəlkə bu ölümün tarixi dürüst deyil.
Bəlkə bu ölüm çoxdan başlayıb.
Bəlkə bu ölümü ilk gündən
həyat ona aşılayıb?
Bəlkə uzaqlardan
ayaq tutub gəlib bu ölüm?
Böyüyüb yavaş-yavaş,
əsəblərində, qəlbində, beynində onun.
Rəngini, soyuğunu çəkib
əllərinə, üzünə indi onun.
Bir söz yarasından başlayıb
özü başqasını yaralayanda.
Bir qibtədən mayalanıb,
Bir həsrətdən göynək alıb.
Eh, kim axtarıb tapacaq
ömrün o ilk trombunu?
O bir damla laxta qan ki,

bütün həyat zinətindən
soyundurub onu,
Bəlkə ilk baxışda
əhəmiyyətsiz görünən
bir hadisə qüvvət verməsəydi, -
bu son dəqiqədə,
ölüm namərd düşmən kimi
hələ çox dayanacaqdı pusquda;
girəvə axtaracaqdı,
fürsət gəzəcəkdi.
Bəlkə də yaşamaqçın
elə bu gün ona,
birşəfqət- təbib,
bir söz - valokordin,
bir qayğı - ilişik gərəkdi...
Bilmirəm.
Həqiqət olan, şübhəsiz olan,
qayıtmaz olan
bir şey var: Ölüb İNSAN!
Nə sıramızda görünəcək bundan belə,
nə bir söz deyəcək,
nə bir iş görəcək,
nə bir udum su içib,
bir tikə çörək yeyəcək.
Fərq etməyəcək isti-soyuğu,
on uzun gündüzü,
ən qısa gecəni belə.
Qoydu getdi ciyərlərinin
sərbəst cirəsi - oksigeni belə.
Nə görəcəyik təbəssümünü;
az olsa da, nadir olsa da,
axı vardı təbəssümü;
susuz səhrada möcüzə - çiçək kimi.
O da insan idi,
Haqsız sözləri də vardı.
bəzən qəzəblə, kinlə,
bəzən mülayim baxan

gözləri də vardı.
Onun da həyat yollarında
addımının yaxşısı, pisi vardı.
Bəlkə qəlbinin bir bucağında,
bir düyürcək qan laxtasından əvvəl,
bir xırda niyyətin hisi vardı.
Mətləb bunlarda deyil.
O da insan idi.
Yolu nə bizimkindən hamar,
nə asan idi.
Hansı dəqiq bir alət ölçə bilər,
hesablaya bilər,
yersiz bir sözümüz, bir an sükutumuz,
ya ötəri biganəliyimizlə
insan ömründə qırdığımız
dəqiqələri, saatları, günləri?
Həyat deyilən möcüzənin
Heç bir qiymətə
satun alma bilməyən
parçalarını -
yaşamaq açarmı.
Mən bilmirəm nə zaman
nədən öldü, niyə?
Ölüm gözə görünsəydi
göz yaşı kimi, torpaq kimi,
kitab kimi;
sayardıq bu damcıları,
zərrələri, varaqları.
Bəlkə hər damcının uğursuz
müəllifini,
hər zərrənin vəznini,
hər varaqda yazılmış acı
sözləri -
çəkərdik haqq divanına.
Yox!
Nə metereoloji xidməti var
ölümün

xəbər verə:
Sabah, ürək nahiyəsinə bir damcı
qara qan laxtası gələcək;
ya qan damarı partlayacaq
filan yerdən;
evdə, iş başında, yol üstündə.
Ya illərlə yığılmış nisgil
pozacaq maddələr mübadiləsini
filan ayda, filan gündə.
Boğacaq nəfəsini.
Susduracaq,
əbədi bir sükut içində
torpaq, su, hava kimi adi olan səsini.
Yoxdursa belə idarə, belə mərkəz;
Ömrümüzü axan duru çay kimi,
gecələri nurlandıran Ay kimi,
baharla qol-qola gəzən may kimi
keçirək;
üzüağ, alnıaçıq!
Vallah, ən duru çaydan,
ən nurlu aydan,
ən gözəl maydan
yaxşıyıq biz.
Axı biz insanıq!

*1966*

**YADIMA DÜŞDÜ**

*Oğlum Anara*

Dənizdə ləpə var, dağda bulud var,
Gündə durna keçir göydən yüz qatar.
Baxdım üfüqlərə həzin axşamlar,
O məlul durmağın yadıma düşdü.

Bax, yaşıl Krımda yarpaqlar solub,
Elə bil təəbiət işdən yorulub.
Hərdən qərib-qərib gözlərin dolub,
Boynunu burmağın yadıma düşdü.

Hər günüm bir ildir sənsiz, a bala.
Gəlməyəsən görüm səni zavala.
Gözlərim yumulub, getdim xəyala.
Min oyun qurmağın yadıma düşdü.

Səhər-səhər tezdən açılıb yaxan,
alnına inci tər düzülən zaman.
Yuxudan duranda alışıb-yanan
o tunbul yanağın yadıma düşdü.

Atamın, anamın istəkli soyu,
Anan layla desin, beşikdə uyu!
Qaz balası kimi görəndə suyu
əlini vurmağın yadıma düşdü.

Sormasınlar nə var dərdli könüldən,
Səni mən yuxumda görmüşəm dünən.
Bir az uzananda yuxarı dönən,
körpəcə dırnağın yadıma düşdü.

Könlüm sənsiz ağlar, səninlə gülər,
Ata olmayanlar bunu nə bilər.
Tutub çarpayının yanından səhər,
ayağa durmağın yadıma düşdü.

Yenə səndən gəlmir çoxdandır soraq,
O zalım ananda insafa bir bax!..
Bir körpə əlini görəndə bayaq,
Çeçələ barmağın yadıma düşdü.

*Krım - Yalta, 1938*

**OĞUL**

Mən səni
yeni ayaq açanda,
yeni dil açanda,
top kimi yumalanıb
qaçanda görmwşəm.
İlkin ata deyəndə
öpmüşəm dodaqlarından.
Çəkdiyin qəribə, gübnəli şəkilləri
Bugünəcən saxlamışam.

İlk dəfə məktəbdən gələndə
bağrıma basmışam səni,
qucaqlamışam,
İllər keçib bir-birinin ardınca,
sən böyümüsən hər gün.
Qalxmısan ömrün neçə pilləsini;
zaman təqvimin varaqlarım qopardıqca.
İndi yekə kişi olmusan, maşallah!
Gündə üzünü qırxırsan.
İndi qadınlar sənə
Həsədlə, məhəbbətlə baxır.
Uşaqlardan sənə dayı deyənlər var.
Ancaq sən,
mənim gözümdə hələ də
yeni ayaq açan,
yeni dil açan,
top kimi düməlınib qaçan
körpəsən.

*27 yanvar 1962*

**QIZIMA VƏ YAŞIDLARIMA**

Könlünə
nigaran bir işıq düşsə;
dadını ilk dəfə duyduğun,
bir sevinc,

acısını ilk dəfə duyduğun
bir təşviş gətirən
işıq.
Aldanma onun göz qamaşdıran
şəfəqlərinə.
Kölgəsi yandırar səni.
İnanma istisinə!
Dondurar səni.
Deyirsən:
yanmasa, donmasa insan
yaşaya bilərmi?
Bu həqiqət də var.
Lakin, səadəti
təsadüfi tapıntı bilənə.
Çətindir yolu,
ağırdır bahası.
Fəlakətdən qorxma!
Ağciyərlərçin qorxuludur o.
Unutma!
İnsan ağrıyan yerini
can evi bilir.
Ağrı varsa, dözüm də var.
Əllərin yorulsa da,
yorulmasın ümidin, arzun, inamın.
İnsan özü bir sonsuzluqdur.
Hər dərdin əlacı
onun özündə var.

*1964*

## ŞONİYƏ

*Təranə qızıma*

Mənim şənim, şonbalam.
Balaca dovşan balam.
İndi kuklan neçədir?
Ceyranların necədir?
Yaxşı yeyib iç, qızım.
Gözləri sevinc qızım.
Gəzməyə get hər səhər.

Yolun boyu çiçəklər
rəng alsın yanağından,
rəng alsın dodağından.
Mənim qaragöz qızım.
Ağzı dolu söz qızım.
Öpürəm səni bərk-bərk,
nazlı, sevimli çiçək.
Zəng elə, de bu axşam
hamıya məndən salam.

*1962*

## BARMAQLARIN DİL AÇIR

Ayaqların döşəmədən bir qarış yuxarı.
Qolların yeni pöhrə kimi
nazik, kövrək.
Çal qızım, çal görək.
Gah qara, gah ağ dilə dəyir barmaqların.
Çaşırsan.
Eh... deyib yenə başlayırsan.
Saçların tökülüb üzünə.
Bilirəm, belə xoşlayırsan.
Səslər gah ahəngə düzülür,
Gah bir-birindən üzülür.
Bəzən dolaşır;
bir zaman ayaqlarının dardarı kimi.
Bəzən sıralanır
bir boyda muncuqların qatarı kimi.

Gah bir dilə vurursan,
ikisi səslənir.
Səslər qoşalaşır.
Dillər qulaq asmır sənə
barmağının altından qaçır.
Darıxma, qızım, darıxma!
Barmaqların dil açır.

*1959*

**PİLLƏLƏR, İLLƏR**

- Ata, neçə pillədir
yerdən bizim mənzilə?
- Saymamışam, oğlum, -
dedim, gülə-gülə.
- Vaxt olub,
arada iki pillə qoymuşam,
vaxt olub üçünü.
Nə mərtəbə saymışam,
nə yoxlamışam ayağımın gücünü.
Yorulmusan?
Qucağıma gəl, qalxaq!
Bu bir!
Bu üç!
Bu da beş.
Nə tez çıxdıq, bax.
- Ata, neçə pillədir
yerdən bizim mənzilə?
- Düz otuz beş pillədir,
nazlı qızım, gəl qalxaq.
Bir...İki... Üç...
Pis olmaz, yarıda dayansaq bir ayaq.
- Ata, neçə pillədir
yerdən bizim mənzilə?
- Ay bala, çox, lap çox.
Yüzdür, bəlkə iki yüz.

Üç pillə qalxmaq olmur
dayanmadan, tövşüksüz.
Balaca yüyürdü.
Qalxdı pilloləri.
- Heç də yox, - deyə-deyə
qalxdı üçüncü mərtəbəyə.
Dedi: - Saydım, üç dəfə on,
bir də beş.
Mən dayanmadım, tövşümədim heç.
Cavab verdim ona:
- Doğrudur, bala!
Pillələr elə əvvəlki qədərdir.
Nə artır, nə əskilir. O soruşdu:
- Ata, bəs sən niyə yüz deyirsən?
İstədim deyəm:
- Ayağımın gücü...
Ürəyimin taqəti...
Ancaq demədim.
Yorğun-yorğun cavab verdim:
otuz beşdir, bala, düz deyirsən.

*1959*

**BİR NƏSİL QOCALSAM DA**

Babayam!
Nə uzun ağ saqqalım var,
nə belim bükülüb.
Qucağımda nəvəm - buz baltası!
Yanımda atamın nəvəsi - nəvəmin atası.
Gedirəm.
Günəş həsədlə mənə baxır;
Özü baba deyil, axı!
Ayaqlarıma döşənib dəniz;
Övladsız, nəvəsiz.
Sığallayır saçımı külək;
dünyaya yalqız gəlib, yalqız gedərək
Küçələrə nəğmə, gülüş yayılıb;
Dəstə-dəstə, çiçək-çiçək!

Yollara sünbül-sünbül
işıq çıldırı tökülüb.
Babayam!
Nə gözlərim nurdan düşüb,
nə yaddaşım sökülüb.
Gedirəm Bakı boyu;
neçə-neçə təbəssümdən, salamdan,
xoş baxışdan, qibtədən keçə-keçə.
Dostlarım çoxdur;
xırda-xuruş istəməyənlərim də
yox deyil;
çoxunun adını bilməsəm də.
Bu gün hamıya səadət, xoş gün,
İnsana layiq həyat arzum var;
köksüm içində asılmış,
ürək adlı, dörd gözlü kisəmdə.
İstəyirəm yer üzünü dolaşam
sohər şəfəqlərilə.
Təbrik edəm dünyadakı babaları, nənələri.
İstəyirəm alam qollarıma,
dəstə-dəstə çiçək kimi,
bütün nəvələri.

*1965*

**NƏVƏMƏ MƏKTUB**

Turalım!
Yəqin ki, sən
bir zaman
kitablarımı varaqlayıb
bəzi sətirlərə güləcəksən.
Deyəcəksən:
necə olub ki, babam
yepyekə adam,
şikayətlənib

ağcaqanaddan,
xərçəngdən, şəkərdən,
dilənçilərdən,
paxıllardan.
Oxuyacaqsan kitablarımı.
Duyduğun, bildiyin
nə yalnız giley olacaq,
nə nöqsan.
Yox.
Sətirlərimdən
bu günün havasını da duyacaqsan.
Necə olsa yenə,
ordakı sözlərdən
bəziləri qəribə gələcək sənə.
Başa düşməyəcəksən,
yəqin ki,
gələcəyin adamı - son
başa düşmədim deyib
izmlərlə damğalamayacaqsan
onları.
Lüğət varaqlarını,
tarix yarpaqlarını,
elm soraqlarını
gəzəcək gözlərin
aşağı, yuxarı.
Görəcəksən ki, bir zaman
bu sözlər var imiş:
riya,
pozğunluq,
yaltaq,
yalan.
Söz olsa dərd yandır.
Kosmosun qapısını açan
insanı
balaca bir ağcaqanad
yuxudan tez-tez oyadarmış.
Nə qədər adam
xərçəngdən ölüb,

şəkərdən ölüb,
ölüb ürək partlamasından,
aparıb özüylə
neçə yeni ixtiranın sirrini.
Təmizləyə bilməmişik sonacan
nadanlığın,
özümlüyün kirini.
Nə qədər adam
rahat nəfəs ala bilməyib
qeybətdən, dedi-qodudan.
Bəlkə mən,
zamanın,
akkordeon köynəyi kimi açılmış
müxtəlif illərini
yığıram üst-üstə,
tez olsun deyə.
Bəlkə bu arzuların aləmi
hələ neçə-neçə ilin ardındadır;
sənin gələcəyin kimi,
sənin ata olacağın kimi.
Lakin mən inanıram
o günə.
Ya tez,
ya bir az ləng olacaq.
Gələcək o gün,
insan arzusuyla
imkan
həmahəng olacaq.
Yoxalacaq özümlük,
bayağılıq.
İnsanlar daha ünsiyyətli olacaq,
daha xoşqılıq.
Nə pisə yaxşı deyəcəklər,
nə yaxşıya pis.
Aydın, açıq, mərd olacaq
ürəklər,
əməllər təmiz.
Unutma, Turalım, ancaq

unutma ki, bu gün biz
çox çəkmiş,
çox dözmüşük ki,
xoşbəxt olasınız siz.

*1968*

**AYSEL**

*Nəvəmə*

Gel oturaq,
baba, nəvə.
Sən de bildiklərini,
qulaq asım.
Mən də sənə söyləyim
dünyanın işlərindən;
gizli bir şey qalmasın.
Yol varmı baxaq, görək,
mənim qoca dunyamdan
sənin körpə dünyana
Yollar var ki, qısadır,
sanki kirpikdən qaşa.
Yollar var ki, uzundur,
əvvəlindən sonuna,
bir uzun ömür yaşa.
Sənin yolun qısadır hələlik –
beşikdən dörd payıza.
Mənim yolum uzundur –
içi dolu intizar,
mübarizə, qayğılar.
Altmış ildən çoxdur ki,
yol gəlirəm həyatda;
sənin körpə dünyandan
mənim dünyama qədər.
Sən yuxular içində,
nağıllar dünyasında.
Mən bu əsrin təzadlı
sevincində, yasında.

Ömrümüzün yolları ancaq
bircə yönədir.
Geriyə nə cığır var,
nə ləpir var,
nə eniş,
Bu, həvəsdən dözümə
uzanan bir yoxuşdur.
Bu yolu
ilk pillədən
zirvəyə qədər əgər gedər olsan,
bir işdir,
onda görərsən özün,
Həqiqəti acıdır bu sözün.
Ümidsiz olma, bala!
hər cəfaya, inciyə,
hər çətinliyə dəyər,
ömrü bir insan kimi
doğru yaşasan əgər.

*1973-1974*

## UZAQ YOL, DƏVƏLƏR VƏ MÜDRİK BİR QOCA HAQQINDA

Yük ağır, yol uzaq.
Nə alaf var doyunca,
nə su.
Sarban dedi:
- Nə qorxusu?
Dözümlüdür dəvələr!
Qoca dedi:
- Vaxt var ikən gedək!
Mənzil uzaq, ömür gödək.
Demə - dözümlüdür dəvələr, -
Bəlkə belə düşünmədi nəvələr.

*1955*

# *Çinaraltı*

## BURBA BİR İNSAN ÖLÜB

*Nazim Hikmətin əziz xatirəsinə*

Bir dostumuz öldü;
adamların yaxşılarından idi.
Sözü, işi, arzularıyla İnsan idi.
Bu ölümə yerin torpağı yandı,
ağacın yarpağı yandı.
Göynədi qəlbim
duz basılmış yara kimi.
Dedim:
- Heç olmasa yaşayaydı
gələn bahara kimi.
Gələn baharda ölsəydi, yəqin deyərdim:
- Kaş yayı görəydi.
Yayda ölsəydi, yəqin payıza,
payızda ölsəydi, qışa
möhlət istərdim.
Neyləyim, çox ağırdır -
yaxşı İnsanı
əbədi itirmək dərdi.
Bir insan ki,
ömrünün hər günü
insanlığın ömrü-günüydü.
Bir insan öldü:
dünyada böyük qəlbinin istisi qaldı.
İşıqlı fikri,
mehriban hissi qaldı.
Yaşadı, döyüşdü.
Qəlbində insanların
Kədərini, sevincini daşıdı.

Ünvanı, pasportdan məlum,
nə bir şəhər, bir küçə, bir tindədir.
Ünvanı
milyonlarla insan qəlbindədir.

*Moskva, 5 iyun 1963*

## GÜLXANƏ PARKINDA BİR CEVİZ AĞACI VAR

Sən bir ceviz ağacıydm
Gölxanə parkında.
Minarələr qarşında,
minarələr arxanda.
Baharlarda boylanıb
baxardın Boğaziçinə.
hərdən polis kölgəsi düşərdi
Gülxanə parkının
divar kərpicinə.
Yarpaqların - əllərin
parlayırdı
işım-işım.
Budaqların - barmaqların
çılpaq qalardı
suvar payızı,
faraş qışı.
Axtardım ceviz ağacını
Gülxanə parkında.
Quruyub dedilər.
Quruyub o gündən ki
Nazimi
yer üstündən
yer altına köçürdülər.
Onun qəlbindəydi
ceviz ağacının pöhrəli baharı.
Ceviz ağacındaydı canı
mavi gözlü divin.

İstəsən ağla,
ağla gözün dolusu!
Boş qoydu getdi
bir böyük şair tutumu yerini
bu dünya-evin.
İstəsən "insanlı dünyanın
dərdlərindən qurtardı" - deyə
qəmli-qəmli sevin!
Neçə ceviz ağacı var
Gülxanə parkında;
pöhrələri yaşıl-yaşıl.
Gün düşəndə yarpaqlara
göz qamaşır.
Bir ceviz ağacı yoxdur artıq.
Olmayacaq.
Yaralı sətirlər,
yarımçıq səhifələr
dolmayacaq.
Hanı ceviz ağacı?
Qurudu dedilər.
Bir nadir ceviz ağacsız qaldı
Nazim yurdu dedilər.
Sənə əl çatmaz,
ün yetməz, şəkərim!
Keçdiyin dünyadan
həsrətin getməz,
getməz, şəkərim.

*1970*

**ULU ŞAİR**

Uludağlı Bursada öldü?
Bursada dedilər!
Uludağ dağlar dağıdır.

Bir şimşəklə
qatar-qatar buludları dağıdır.
Bir də həbsxanası var
Bursanın.
Özü bədqılıq,
pəncərələrində dəmir barmaqlıq.
Kərpicləri nəmli.
Gündüzlər günəşə,
Gecələr ulduzlara baxır
qəmli-qəmli.
Uludağın bulaqları
sərindən sərin.
Bursa zindanının zülməti
dərindən dərin.
Zindan havasında
səsi yaralı olur nəğmələrin.
Nə uludağdan əsən külək,
nə yamacları örtən çiçək qoxusu
duyulur burda.
Bursada bir Uludağ var
başı buludlu.
Bursa zindanında
bir ulu şair
qəlbi üsyan dolu,
şeir dolu.
İllər keçib ağır-ağır;
piyada yolçular kimi
yorğun.
Polisin ayaq səsləri gəlib
quyu kimi dar həyətdən,
yağlı-yağlı,
yoğun-yoğun.
Bəlkə sağdır deyirəm şair?
Təki sağ olaydı.
Zindan evində
dustaq olaydı.
Qaldıraydı yenidən səsini dünya
şairə azadlıq, deyə.

Yuxusunda görəydi şair yenə
əlləri qabarlı Anadolu kəndlisini.
Sinəsində vərəmini bəsləyən
tütün fabriki fəhləsini.
Eşidəydi Pirayənin səsini.
Düşünə-düşünə
amansız mübarizənin
yeni yollarını,
sınayaydı dostların etibarını.
Uludağ durur
başı dumanlı,
Bursa zindanı var
yolları qanlı.
Şair yoxdur artıq,
olmayacaq.
Ulu şair ölümünü
sinəsində apardı
Bursadan.
İnfarkt miokardo onu
uzaqlarda vursa da.

*1970*

**ÇİNARALTI**

Qoca çinar
Kölgəsiylə qucaqlayıb
meydanı.
Xəbər aldım:
çinar baba!
Hanı Fikrət?
Hanı Namiq?
Əhməd Haşım,
Yəhya Kamal?
Rza Tofiq hanı?
Necə gördün,
bu dövranı?
Hanı şeir məclislərin?

Həzin söhbətlər, o qalmaqal?
Bir göy gözlü gənc də vardı.
Tez-tez gəlib bura
susub durar,
bir kənarda dayanardı.
O zaman da varındımı
belə iri, meydan kölgən.
Gəl-gəl deyən körpə yaşıl
salatalıq -
gülü başında yerpənək,
on gün yaşında yerpənək,
bir tərəfdə Qara dəniz,
küləklərdə xoş nəfəsi
uzaqlardan gələn,
uzaqlara gedən
vapor səsi.
Vaporlar uzaq getsə də,
yaxın getsə də,
qayıdırlar Boğaziçinə
(qərq olmasalar tufanda),
Neyləmişdi sənə
o mavi gözlü çocuq,
Bursa zindanında
illəri illərə calayanda,
ulu çinar.
Hələ nə qədər qurbanlığın
insan var.

*1970*

**QANLICA**

Adına bənzəmir heç
bu Qanlıca
(bəzi adamlar kimi;
arama tərsinə)
Nə dava-dalaşı var,
nə qalmaqalı.

Havası sərin,
qoynu ılıqdır
bu bahar günü.
Boğaziçi
xırda-xırda ləpələrlə
ürək kimi döyünür.
Qanlıca bir dağ ətəyindədir.
Sakit okeandan bəri uzanan
Asiyanın qurtaran yerində.
Elə bil ki, qocaman bir qitə
uzadıb boynunu
su içir Bosfordan.
Gecələr yanır Boğaziçi
sahil işıqlarından,
sudan qalxan tüstülərdən.
Bəlkə bu bir adicə
qafiyə xətasıdır...
Ancaq sular necə
sakit olsa da,
Qanlıca
nə gündüz, nə gecə yatasıdır.
Bəlkə əsrlərin o tayında
bura
köçəri çobanlara
bır sığınaq,
bir yurd olub.
Qanlıcada
bizim adicə qatıq
ata-baba adını dəyişib
yoğurt olub.
Havalar istiləşəndə,
canı yorğun olana
bir məlhəm ocağıdır
Qanlıca - yoğurtxana.
Mən də içdim
yoğurtunu Qanlıcanın
doktor Kamal Arran,
şair Nigar da.

İtişmişdik,
Harda tapışdıq,
Harda!
Oturmuşduq Qanlıca kafesində
yoğurtxana
biz üçümüz
və başqaları neçə yüz.
Dörd yanımda tanımadığım
insanlar.
Necə maraq dolu gözləri
necə bizimcə dilləri var.
Oturmuşam
özüm Asiyada,
gözüm Avropada.
Axı Boğaziçinin
bir sahil Asiyadadır,
biri Avropada.
Mən də asiyalıyam,
mən də şərqliyəm.
Ancaq
şərqli var ki,
ondan yerdən göyə
fərqliyəm.
Mən də avropalıyam,
ancaq
nə ölçüsüz - açıq-saçıq,
nə gülünc qapalıyam.
İçirəm qatran qoxusunu
yamac boyu
sıra-sıra yaşıl çamın.
Baxıram qalmasın
bir damcı qatıq da
dibində saxsı camın.
Qanlıca da asiyalıdır,
mən də.
Nə düşündüm
Qanlıcanı görəndə.
Asiya içdikcə

Bosforun duzlu suyunu,
dedim gətir, qarson, gətir
Qanlıcanın yoğununu,
serinini, duzlusunu.
İçdim, içdim,
elə bil
Göyçaylı Qulunun
inək qatığıdır.
Həm dadı var,
Həm adı.
İstədim deyəm, Qanlıca,
necə sığır
bir fincan yoğurtuna
iki ayrı-ayrı
dünyanın dadı.

*28 fevral 1970*

## DİDƏRGİNLƏR

(Saleh Gəncər və başqaları)

*Qərib yer cənnət olsa,*
*Ölməyə vətən yaxşı.*

***Xalq yaradıcılığından***

İstanbulda bir gün
Saleh Gəncər adlı biri
qonaq çağırdı evinə bizi.
Dedi: "Razı olsanız,
çağırım bu gecəyə
bir neçə didərgini.
Azərbaycanlını".
- Ev sizin,
ixtiyar sizin! - dedik.
Razılaşdıq, getdik.
Dörd otaqlı mənzili var
Saleh Gəncərin;
İstanbulun orta göbəyində.
Saleh Gəncəlidir,

arvadı türk qızı türk.
Qonaq gedirik deyə
biz də az-çox
hədiyyə götürmüşdük.
Saleh özü gedib vətəndən
beyninin qaynar çağı.
Macəralar romantikası
məst eləyib
14-15 yaşlı uşağı.
Saleh özü gedib vətəndən
qürbət elə.
İndi yana-yana qalıb.
Var-dövləti,
məktəbdə kimya müəllimliyi,
ürəyində, beynində yuvalanmış
amansız qürbət ilə.
Peşmanam demir.
Güzəranım yaxşı,
dost-aşnam.
Ancaq Boğaziçinə baxanda
hər axşam,
yadıma Xəzər düşür.
Xatirələrimlə bacara bilmirəm.
Fikrimi, xəyalımı
göynəklərdən qaçıra bilmirəm.
Peşmanam demir Gəncər.
Ancaq qırx ildən sonra
yenə yerli türklər
göyərtiyə "səbzə" deyir.
Saleh – pencər.
Peşman sözü cılız gəlir Salehə,
yaralıyam deyir.
Burda evim-eşiyim,
orda ana beşiyim,
bilmirəm haralıyam deyir.
Dərs deyir,
maaşı da, şükür, az deyil.

Ancaq haqlı deyir ki,
ürək qarın deyil,
boğaz deyil;
yeyib-içdin,
dinc qoysun səni.
Ürək Göygölü istəyir,
burda füsunkar Bosfor,
Van gölü varsa da.
Ürək xəzri istəyir.
Mərmərə küləkləri, hər yaz başı
qanadında məni
adaların yuxu-güllüklərinə aparsa da,
Ürək dinc qoymur məni.
Kəpəzi istəyir,
Sarı yalı,
Xəzəri istəyir.
Bir söz:
vətəni istəyir,
doğma elləri istəyir.
Hamar olmayıb
ömür yolum,
yıxılmışam,
durmuşam da.
İndi dincimi alıram
müəllimlik peşəmdə...
Baxıram sağ yanımda biri
başını alıb əlləri arasına.
Xəstədir bəlkə?
Yan-yana düzülür
ağ süfrədə
göz yaşından neçə ləkə.
O biri arxa tərəfdə,
özü bu məclisdədir,
fikri yox.
Xəyalıyla gəzir yəqin
Ömrünün yolunu
döngə-döngə,
oyuq-oyuq.

Əvvəlcə söhbətimiz
"Hə!"
"Yox!"olur.
Sükut olur,
baxış olur.
Get-gedə əriyir buz,
sanki məclisə
ünsiyyət dolur,
yaxşı dolur.
Danışırıq
Azərbaycandan,
Qədim Gəncənin bu günündən.
Qarabağdan, Naxçıvandan.
Arazbasardan, Kür qırağından,
Bakının aləmə car olmuş
şöhrətindən, sorağından.
Məclisimizdə əlliyə qədər adam -
deyərdim xəyaldır,
qulağıma inanmasam,
gözlərimə inanmasam.
Bir anlıq sükutdan
təşvişə düşən müsün bir kişi
dilə gəlir;
"Bax, üzümə
diqqətlə bax, deyir, qardaş,
gözünə qurban olum.
Danış, qardaş, deyir, danış,
hər kəlmənə,
sözünə qurban olum".
Bu, nə sentimentdir,
nə xoşa gəlmək arzusu...
O, susuzdur,
hər kəlməmiz -
bir qaşıq su.

Biri əczaçıdır
həmməclisimizin,
gəlsəm, deyir, necə olar?

Mən bu davada əsir düşmüşəm,
yaralı deyildim,
nə yalan deyim,
ancaq,
yaşamaq istəyirdim, yaşamaq,
Taleyim belə gəldi,
nə vətəndən incimiş,
nə xalqımdan küsmüşəm.
Ancaq...
xain
deyirlər
bizə xain,
gəlsəm necə olar?
Ürəyim deyil arxayın...
Baxıram sarı bənizli,
açıq alınlı,
qəmgin üzlü
əczaçı-didərginə,
Gülümsəmək istəyir
kərkinə-kərkinə.
Bəlkə də peşmandır dediyinə.
Məhkəmənin hökmünü gözlər kimi
gözləyir cavabımı.
Bilmək istəyir fikrimi.
Gəlin, deyirəm,
vicdanınız ləkəsizdirsə,
istəyiniz düzdürsə;
nankorluq olmayıbsa
fikrinizdə, işinizdə.
Nankorluq olmasın həm də
bu gedişinizdə.
Üzbəüz oturmuş qoca
dərin bir ah çəkir,
yanıqlı bir ah.
Yan otaqda yandım deyir
"Yetim segah"
Gözlərdə yaş,
dodaqlarda acı bir sual.

Qürbət əgər içindədirsə
nə fərqi var,
ya get, ya qal!
Dəqiqələr əriyir, gedir.
Nə istidir otağın havası,
nə yanıqlıdır
Bülbülün zəngulləsi,
nə qəmlidir Zeynəbin nəvası.
Sanki bu evin ən qiymətli varı
vətən mahnıları
bir kədər yolundan keçib
gəliblər bura;
hər sözü yandıra-yandıra,
hər xalı qovura-qovura.
Bir gənc də var burda -
cənublu.
Qəlbimizin cənubundan.
Dindirsən qan ağlayan
həzin cənubumuzdan.
Sinəsi həsrət dolu,
gözləri yaş dolu.
"Göz yaşımla sularam
Tehran yolunu,
Qaragilə!
Tehran yolunu!"
Yetməzmi bu göz yaşı, qardaş!
Yetməzmi ahın
yandırdı dağı-daşı, qardaş!

Nəğmə çırpınır otaqda -
yaralı quş!
Məclisdəkilər dinməz-söyləməz oturmuş.
Ömür yolunu göz yaşı ilə sulayanlar.
"Bura da mənim vətənimdir
mənə yuva verib,
duz-çörək verib.
Ağır günümdə yaşamağa ümid,
dözməyə ürək verib.

Nə həsrətim var,
nə qüssəm...
" Baxıram gözləri çuxurda,
baxışları nigaran,
dodaqları cansız
qarabuğdayı adama.
"Nə həsrət, nə qüssə...
" O da didərgindir,
Lakin yol tapa bilməz
Vətənə
bütün yolları
yan-yana düzsən.
Dörd gözlü mənzili var
Saleh Gəncərin
İstanbulun orta göbəyində.
Bir də gecə-gündüz oyaq
Həsrəti var
Saleh Gəncərin
urəyində.

...Bu dəfə İstanbulda
qara çərçivədə şəklini verdilər mənə
Saleh Gəncərin.
Bir dəstə dostlarıyla
hələlik gəzməyə gələcəkmiş vətənə.
Bir səhər yuxudan oyanmayıb
Nazim kimi.
"Can qurtarandan" çağırıblar həkimi
qurtarmalı can çoxdan gedibmiş.
Doktor yazıb: infarkt miokardo:
Doktor hardan bilsin, hardan,
Saleh Gəncərin
ürayinin elə bir yarası varmış
ki, onun nə təbibi,
nə çarası varmış.

*1961*

## DÜNYANIN DƏRDİ

Bu gecə yenə yatmamışam.
Nə başım ağrıyır,
nə xəstəyəm.
Yatağım rahat.
Döşəmədən tavana qədər
sükut var otağımda.
Olsun ki, belə bir sükut içində,
bir gün,
bizimlə vidalaşmadan,
gedəcək ürək.
Ancaq, bu deyil məni nigaran qoyan.
Bu gün var olan
bir gün yox olacaq axırısı.
Məni yatmağa qoymur
dünyanın dərdi,
torpağın ağrısı.

*mart, 1962*

## YAZIQ DÜNYA

Dünya böyük.
İnsan bir zərrə
Yaşayırıq
eşidə-eşidə
duya-duya,
görə-görə;
yaxşını da,
pisi də.
Düşündürür bizi

hər günün gəlimi də
hər anın itkisi də.
Yaşayırıq, yaşayacağıq hələ
sevə-sevə,
yarada-yarada,
kədərlənə-kədərlənə,
gülə-gülə.
Yaşayacağıq
arzularımız uğrunda
vuruşa-vuruşa;
biliyimizin lövhəsindən
ağ ləkələri silə-silə.
Yaşayırıq yaşayacağıq
gerçəklikdəki zərrələrin biri kimi.
Varlığın sona qədər açılmamış
sirri kimi.
Yaşayacağıq bundan belə
neçə il,
neçə ay
bəlkə də neçə gün, ya...
Gedəndə nə isə aparacağıq.
Yazıq sənə, yazıq
Dünya!

*1936*

**NİGARANLIĞIM**

Deyirlər ki, dünyanın
dərdi sənə qalıbmı;
niyə daim fikirli,
niyə daim qayğılı,
niyə qaşqabaqlısan?
Deyirəm: Dünya mənim
sığnağımdır,
yuvamdır.

Dünya insan evidir.
Necə yaşamaq olar
dünyanın dərdlərilə
üzülüb dərdlənməsən,
acısına yanmasan,
dünyanın sevinciylə
sevinib şadlanmasan.

**ÜÇ GİRDİN ARÇAN ODUNU,
DİVAR SOBASI VƏ YUXU**

Qalan bir az kül,
bir də hərarəti 5 dərəcə qalxmış
termometrin civəsi.
Bir də,
göz yaddaşımda
qırmızı zolaqlar.
Bir də,
qulaq yaddaşımda
ocağın cırtıltısı.
Bir də,
burun yaddaşımda
yapışqan qoxusu.
Bir də,
dil yaddaşımda
tüstü acısı.
Bir də,
barmaqucu yaddaşımda
soyuğun yumşaq ölümü.
Odunu odunçu gətirmişdi.
Kibrit keçən həftədən qalmışdı.
Çəkdim,
qəzetin dördüncü səhifəsi
alışdı.

Qara Konqo
qaraldı, qaraldı.
Vaşinqton
qıpqırmızı zehli göründü.

Bir qafiyə qaçdı
sətrin ortasına.
Qara çərçivoli elan
əyilib-bükülüb
tüstüdən keçib,
qalxdı başa
Qaraldı, bozardı,
partladı rezin şar kimi
"Yüzüncü tamaşa".
Əcaib kölgələr yüyürüşüb
doluşdu otağın küncünə.
Gözün əcaib naxışları
hopdu kərpiclərə.
Divarlar çəkilmişdi geri
yenə irəli gəldilər,
Qalan bir az kül oldu.
Ağ çarpayı da,
ağ yastıq da,
ağ köynəkli yorğan da
yox oldu.
Divar qara!
Döşəmə qara!
Tavan qara!
Qara boya axdı kitablara.
Soyunub girdim yuxuma.
Axtardım, axtardım
yuxumun yuvasını.
Mən, ayaqlarım, iki gozüm!
Yuxuma bələdçilik edirdim özüm.
Gəzirdik dünyanı.
Yuxuda yuxum gəlirdi,
yata bilmirdim.

Göz yaddaşımda səslər:
zolaq-zolaq!
Qulaq yaddaşımda mənzərələr:
ağappaq!
Dil yaddaşımda
hərarətin sakit ölümü!
Barmaqucu yaddaşımda
yapışqanlı havanın dadı?
Burun yaddaşımda
qaranlığın səsi!
Yuxuda ayıldım yuxudan.
Beynimdə dünyanın nigaranlığı!
Milyon işıq ilinin
bir anlıq pərişanlığı!

*1965*

**TÖVBƏYƏ TÖVBƏ**

Görəsən
uçmağı sevməyən varmı
mən qədər?
Sevsəm də
göylərin təkrarsız mənzərəsini,
ulduzları dərbədər,
uçmağı sevmirəm.
Ancaq
azı üç yüz min kilometr uçmuşam.
Bir ucu İndoneziya,
Hindistandan, Birmadan keçib, -
arada Sinqapurun xurmalıqları.
Bu yanda Varşava-Lehstan.
Tirana, Qahirə,
Beyrut üstündən Bağdad, Bəsrə.
Bu yandan Moskva-Praqa.
Neçə kərə.

Bəzən bir qanadlıq yol -
yeddi saat sükut.
Bəzən tez-tez olub
göy karvanımızın
qalxmağı, enməyi.
Azı yüz dəfə Bakı-Moskva.
Hər dəfə çalxalandıqca təyyarəmiz
nəhəng nehrə kimi,
ürəyim əsib,
yel qabağında pöhrə kimi.
Demişəm tövbə!
Uçmaram bir də.
Gah gündoğanda,
gah günbatanda
üfüqlərə sallandıqca
qanqırmızı köbə,
demişəm bu son uçuşdur.
Salamat yerə ensəm,
tövbə, tövbə!
Ən şərəfli bayrama getsəm belə,
bir də oturmaram
göydən asılmış kimi
hərəkətsiz görünən,
bu pərvanəli zənbilə.
Nə "saxla!" demək olur,
ürəyin bulansa.
Nə "yavaş!" demək olur
döşəmə, tavan başına dolansa.
Heyif deyil
at, araba!
Ancaq neyləyəsən ki,
belə böyükdür,
ucsuz-bucaqsızdır
yer xaraba.
A, ha...
Yoxsa dönək oğul qayıtdı yola!
Atıb yeniliyin daşını
saatda 2000 sürətli uçanlar ola-ola,

sığallamaq istəyir
tavar kəlin,
səmənd atın başını.
Yox!
Sevinməyin!
Sözüm qurtarmayıb hələ.
Ürəyim at-araba arzulayır dedim.
Ancaq insan
tək bir ürəklə insan deyil.
Baş var, beyin var.
Şüur düzəldir
qəlbin, hissin yalan-yanlışını.
Bu ani bir giriz idi vurdum.
Gün başa çatmadan
"İL-18"-oturdum.
Beynimdə andlar, tövbələr
dolaşa-dolaşa,
uzaq səfər yoluna çıxdım
birbaşa.
Əgər qorxu, təşviş çəkirsə bizi
köhnəliyə,
alqış təhlükəli yeniliyə!
Alqış, yolu çətin biliyə!

*1964*

**HƏSRƏT**

Yenicə enmişəm
"İL-18"-dən.
gözümü ayıra bilmirəm
mavi qapaq kimi
üfüqdən-üfüqə
Moskvanın üstünə çevrilmiş
dənizdən.
Bu dənizin nə dalğası var,
nə köpüyü.

Elə belə -
sadəcə göy örtüyü.
Nə bir qucaq pambıq bulud,
nə bir çəngə yumşaq duman.
Günəş - qaynar kürədən çıxmış
dəmir parçası;
yandırır yaman.
Hər yan
teleskop işlədikcə, yaşıl, yaşıl.
Göy açıq!
Bu dəniz kimi mavi, geniş
göyün altında,
bu yaşıl dəryanın ortasında
dayanmışıq.
İndicə gətirəcəklər
şeylərimizi.
Beş kəlmə verməmiş,
beş kəlmə almamış
gur-gur guruldadı göy.
Tökdü yağış,
nə tökdü...
Ucundan tut göyə çıx!
Əcəb sakit hava!
Əcəb goy açıq!
Hardan gəldi belə tez
buludlar, ağlı-qaralı?
Söykəndi dağ dağa.
Göy oldu dama-dama.
Elə bil Allah hazırlaşır
mələklərlə şahmat oynamağa.
Mənə şah deyən yoxdur,
ancaq mat qalmışam.
Düşünürəm:
nə olar belə,
səsi gumgur,
suyu bombol,
dupduru
yağışımız olaydı, Abşeronum!

Yaz kimi yazımız,
qış kimi qışımız olaydı,
Abşeronum!
Bir beş-on il aman versəydi
davalar,
dəyişərdi iqlimlər, havalar.
Hamı adamlar insan olsaydı
xoşbəxt yaşamağa nə var.
İşıq zülməti,
səhhət mərəzi,
bolluq ehtiyacı,
məhəbbət nifrəti
boğar.
Yaxşıların yumruğu
pislərin başında
qara daş olsa,
yer üzündə insanlar qardaş olsa
ağaclar mahnı deyər,
ceyranlar əkiz doğar.
Göylərə təbəssümlə baxan
körpələrin nəğməsinə,
ağ göyərçinlərin qanad səsinə
səs verər insan qəlbi.
İnsan əlində namümkünsüz nə var!
İnsanlıq namına dost olsalar.
Ürəklərdən keçən dostluq
əbədi səadətə yol salar.

*Bakı, 1960*

**QÜRBƏTDƏ**

Ağ qumlarda yaş ləpirlərim;
dabanlarım suya sarı!
Hind okeanı da duzludur.
Amma!..
Xəzərin şirinliyi yoxdur bu duzda.

Eh...
Burnumun ucu göynəyir
Bakı üçün
onsuz da!

*Bali*

**AÇILMADI**

Bir gün tutqun oldu hava,
səhərdən axşama kimi ürəyim açılmadı.
Üfüqlər boz:
elə bil ki,
bir bulanıq gölə düşüb günəş.
Hey gözlədim,
göyün qaşqabağı açılmadı.
Sazaqlı bir külək əsdi.
Nərgizlər düymədə qaldı,
bənövşələr açılmadı.
Yağış döydü küçələri.
Hamar asfaltların
qara rəngi açılmadı.
Duman gəldi alçaq yerdən,
işlək yollar açılmadı.

*İndoneziya, Baqor*

* * *

Üstü qoca əli kimi,
damar-damar qapılara
açar saldı neçə insan
biri belə açılmadı,
Söz söylədim,
söz eşitdim,
yenə pünhan - pünhan qaldı,
yenə sirlər açılmadı.

*Hindistan, Qucarat*

* * *

Bir elə gün olaydı ki, deyəydilər:
dünya səssiz, dünya sakit,

planetin heç yerində
bir güllə də açılmadı.
Bir gün ilə, əsrə dönüb uzanaydı...
Bir gün ola,
dünya dolu nemət ola.
Deməyələr
bircə yoxsul süfrəsi də açılmadı.
Bu gün ilə, əsrə dönə
Hamı belə günlərlə öyünə.

*Yollarda*

* * *

Harda isə söndü işıq.
Dost məclisi açılmadı.
Kələflər pırtlaşıq qaldı.
Düyünlər də açılmadı.
Sevgililər görüşmədi,
bir qız bəxti açılmadı.
Birma, Mandalay

* * *

Xəyalımda gəzdim bütün bu dünyanı
gəzdim dərdli Hindistanı;
İndoneziya və Birmanı;
İki sətir yazmaq üçün
Bir an başım açılmadı.

*1961-1965*

**AĞLAMA, ŞƏRQ, AĞLAMA**

Ağlama, Şərq, ağlama!
Yanğıları göz yaşı söndürməz.
Yaralan ovutmaz göz yaşı.
Doğra yanıqlı nəğmələrini;
bir cərrah kimi doğra:
Çıxart onlardan
kədəri, qəmi, ümidsizliyi;
göz yaşını çıxart!
Mütilik, laqeydlik qalmasın
bir damcı da,
Çıxart, yerinə duz bas!
İnsanlıq duzu!
Bərabərlik duzu!
İnam, qürur duzu!
Arzu, ümid duzu!
Göynəsin nəğmələrin;
qəzəblə, üsyanla göynəsin, -
döz ağrısına, Şərqim!
Ağlama ancaq!
Ovcunda sıx qəlbini,
eşidən olmasın iniltisini.
Dişlərini qıca.
Get şimşəkli bahara kimi!
Görsünlər ki, məhəbbətin
Qəzəbinin alovunda isinir.

*1965*

**AĞ FİL**

Ranqunda ilk dəfə gördüm onu,
zooparkda.
Ala-bəzək, mil-mil dəmir qəfəs içində.
Tək bir ağ fil, dəmir qəfəs içində.
Gözləri qara, dırnaqları qara

özü dümağ.
Adama elə baxır ki,
Deyirsən indi
dil açıb danışacaq.
Fillər içində ağı nadir olur.
Fil dustağı nadir olur.
Meşədən ayırıblar onu bildir.
Qəlbinin qəfəs ağrısına dözə bilmir.
Tez-tez
xortumunu qaldırıb bağırır.
Gözündən yaş axır gildir-gildir.
Qəfəssiz qardaşlarını
haraya çağırır.
Deyirlər fillər uzun yaşayır.
Ağ fil, ağ fil!
Neyləyirsən uzun ömrü,
yerin qəfəs olacaqsa yüz il,
Ağ fil, ağ fil!

*Ranqun, 1961*

**BALACA**

Səhər-axşam çıxıram göyərtəyə,
səni görürəm.
Gah dordan dora çəkilmiş
tel üstündə cəh-cəh vurursan,
gah oyuncağı sınmış körpə kimi
məlul-məhzun durursan.
Səhər, günorta, axşamçağı
görürəm səni, Balaca.
İllər keçib getsə də,
o nazik ayaqların,
o xırdaca dimdiyin
hərdən-hərdən çırpınıb
şəfəqlərdə çimdiyin

yadımda qalacaq.
Bilirəm, unutmayacağam,
unuda bilməyəcəyəm səni, Balaca.
Gəmimiz gedir
buludlarda üzən qaya kimi.
Sən bizə qoşulmusan,
ayrılmırsan gəmidən
Baltikdən Biskaya kimi.
Sən gəmiyə pənah gətirmisən.
Gedirsən bu uzaq yolları, Balaca!
Mən sənə isinmişəm,
bir qoca eynəyinə,
bir cavan qız saçına,
bir gənc sevdiyi gözlərə isinişən kimi.
Arayır gözlərim səni
dan söküləndə;
arayır axşamlar
yanğın düşmüş kövşən kimi.
Bir saat görməsəm səni,
nigaran qalır
könlüm, gözüm.
Köpüklərin qatarı
dalğaların boynunda
düzüləndə düzüm-düzüm
səni düşünürəm.
Nigaranlıq dolur sinəmə.
Yuvasından ayrı düşmüş Balaca.
Kim bilir bu dalğaların qoynunda
nələr olmuş,
nələr, nələr olacaq.

Kimsəyə ümid olma!
Gəmiyə arxalanma!
Qanadlarını bərkit!
İndi bu göy nəhəng
yatır quzu kimi sakit

Kim bilir, bəlkə də
bir az sonra coşacaqdır.
Bəlkə beli köpüklü dalğalar
başı qarlı dağlar kimi
qalxıb toqquşacaqdır.
Dayanıb göyərtədə
düşünürəm haçaqdır.
Fırtınalar ulayanda,
bu okean adlı qocanın püskürüyü
buludlar sulayanda,
səni kim qoruyacaqdır?
Qanadlarında qüvvət varmı, de,
səni fəlakətlərdən qoruyarmı, de!
Yoxdursa...

Bəlkə düşünürsən,
Cılız budaqlı güllərin kölgəsində keçincə
qısa ömrün günləri,
daha xoş, mənalıdır
fırtınalarda qarşılamaq səhəri!
Elədirsə,
onda oxu!
Fırtına da bağırsın!
Mən bu gurultular içində
sənin səsini eşidirəm...

Səsin mənə doğmadır.
Səsin mənə əzizdir.
Bəlkə fırtınalardan keçib getmək
bizim taleyimizdir!

Qoy qasırğalarda çalxansın cahan:
gəmimizin ətrafı kimi.
Mən səni dinləyirəm
bir ümid səsi,
bir səadət nəğməsi,

bir məhəbbət etirafı kimi.
oxu, Balaca!
Qoy fırtına bağırsın, nə qəm!
Oxu, Balaca!
Mən səni dinləyirəm.
Mən səni dinləyirəm.

*Atlantika-Bakı, 1959-1960*

**ROTTERDAMDA HEYKƏL**

Rotterdamda, meydanda
tunc bir heykəl var.
İnsan heykəli.

Qıvrım-qıvrım qıvrılıb insan.
İki ağızlı yara
deşib sinəsini ortasından.
Bu yaranın qanlı ağzından
dartıb çıxarıblar insan ürəyini.
Arxasına baxsan, görərsən
baca kimi açılmış kürəyini.
Üzündə
dəmirdən fəryad qoparan
bir iztirab var.
Ağrını tuncdan yoğurub sənətkar.
Sözüm yox.
Ancaq düşünürəm:
bütün dünyanın tuncu çatarmı
bir insan iztirabının heykəlinə?
Yüz belə heykəl əvəz olarmı
bir körpənin
qana boyanmış telinə?

*1956-1961*

**LUVR**

Luvr! Luvr!
Luvr deyəndə
elə əcaib bir şey deyil.
Doğrudur, Luvr
xaraba Kolizey deyil.
Ancaq əslinə baxsan
Luvr nədir ki, bəyəm?
Mən Luvru gördüm.
İndi maraqdan asudəyəm.
Daşdan tikilmiş binadır;
Neçə yüz pəncərəsi,
neçə qapısı var;
hər adi bina kimi;
döşəmə, tavan, divar.
Döşəməsində adamlar gəzir.
Üstü dəmirli ban,
qoruyur onu
qardan, yağışdan.
Luvrun çölü adicədir;
bir az da kədərverici.
Çölü, deyək belədir,
bəs içi?
Qapılar açılır, örtülür
Gündə neçə min kərə.
Qara saçlı bir qız
bilet və təbəssüm satır
içəri girənlərə.
Qapının tunc dəstəsindən yapış
çək özünə sarı!
Açılacaq,
bu günlərdən uzaqda qalmış
əfsanəli bir əyyam kimi.

*Paris-Bakı, 1957-1959*

**MİLOSLU QIZ**

Luvrda bir qız var
Gözəllər gözəli!
Amma hayıf ki, daşdır.
Nə həmsöhbət,
nə həmsevgi, nə işdaşdır.
Baxırsan heyrətdə qoyur səni,
çılpaq qadın vücudunun
kamil cizgiləri.
Mərmərdən yonulmuş Venera.
Həm də sadə Venera deyil,
Miloslu qızdır.
Deyirlər, gözəllikdə yalnızdır.
Baxıram, yadıma Vaqif düşür:
"...bel nazik...
...tel nazik...
...Ağ əllərin..."
Paho...
Bunun əlləri yoxdur.
Hanı bəs əlləri?
Arayıb axtarsan illəri;
nə bilim, neçə min,
neçə yüz il əvvəl
qolları da varmış,
əlləri də.
Yəqin ki,
qulac-qulac telləri də.
Gözəldir, söz yox.
Adam baxdıqca baxır,
Bəzən də adama elə gəlir
sinəsi enir, qalxır.
Elə bil ki, dodaqları
həsrət qalıb öpüşə.
Aşıq demiş;
"Məmələr tər yerpənək.
Al ağzına, yel

Qoyma bir tumu yerə düşə!"
- Əl ver ayrılaq, xanım!
Bağışla, unutdum.
Əllərin yoxdur.
Bəlkə də belə yaxşıdır.
Heç olmazsa əl açıb
Paris küçəsində dilənməzsən.
Vücudun daşdandır.
Bəlkə də belə yaxşıdır.
Nə desələr dinləməzsən.
Gözəlsən, Milos qızı!
Sözüm yox.
Nadir gözəlsən!
Ancaq qapıda bilet satan
o qara saçlı qız
həm gülə bilir,
həm danışa bilir.
Yana-yana baxa bilir.
Adama yanaşa bilir.
Könüldə arzular oyandıra bilir.
Güləndə üzü bir olur,
gülməyəndə başqa.
Məni o qız daha artıq düşündürür.
Sən, daşsan, elə daş qal!

*Paris-Bakı, 1957-1959*

**EYFEL QÜLLƏSİ**

Kim bilir harda çürüyüb sümükləri
Eyfelin.
Ancaq qülləsi qalıb.
Qüllə uzundur deyim, ya hündür?
Nədən uzun?
Nədən hündür?
Mən Eyfeli gördüyüm
üç gündür.

Dayanıb yaşıl bir düzəndə,
adam Eyfel yox, -
Eyfel - qüllə.
Başında bulud-papaq,
ayağında başmağı güllər,
Yerdən baxanda, başı görünmür,
yuxarıdan baxanda ayağı.
Bəlkə allahın xahişiylə düzəldiblər
bu dəmir dayağı
ki, ildırım çaxanda, göy uçmasın.
Ya da parislilər
göz yaşlarından islanmış başlıqları
qurutmaq üçün
bu qüllədən assın...
Hər nə isə...
heyran qoyur hər kəsi
bu uzundraz,
qüllələr zirvəsi.
Aylı gecələr, kölgəsi uzanır
Senaya.
Bəlkə canında
susuzluğu var Afrikanın?
Əyilir su içməyə.
Bəlkə də əyilir
parlaman qeybətlərini,
küçə söhbətlərini,
ürək şikayəflərini
eşitməyə...
Bəlkə başını qaldırıb yuxarı
ağlayır xısın-xısın.
Başım qaldırır yuxarı
ki, parkda gəzənlər duymasın.
Bəlkə dili olsa bağırardı:
"Gəlin, qurtarın məni bu tənhalıqdan!
Üşüyürəm bu dumanlıqdan,
buludlar içində,
göylərin qapısında.

Bir neylon köynək gətirin
Qrand-operanın qabağındakı mağazadan!
Ayağımda zəncir yoxsa,
düşünməyin ki, azadam.
Dustaqları yoxlasan
zəncir dustağıdır az adam:
dil dustağı,
göz dustağı
fikir dustağı olanlar
saya gəlmir...
Dərdlilər çoxdur, -
hamısı Sənaya gəlmir.
Versala gedə bilmərəm,
başım keçməz darvazadan.
Elə bilməyin ki, azadam!
Ayağım torpaqda,
başım göydə, -
Parisin emblemasıyam...
Ancaq məyus olmayın.
Kim deyir ki, mən,
beləyəm, belə də qalasıyam?
Nə qəm ki, burda indi
tənhayam, təkəm
Mən Parisin səhərini
hamıdan qabaq görəcəyəm!"

*Paris-Bakı, 1956-1960*

## ÜÇ İQLİMDƏN GƏLƏN SƏYYAHLAR VƏ SAFONUN DODAQLARI

Biri baxdı, dedi;
- Tərifli nəyi var!
Kimə xoş gələr bu xırda,
bu incə-mincə dodaqlar?
O biri baxdi, dedi:
- Qalındır dodaqları,
Həm də qabarıq.

Biz belə dodaqlardan
zovq almarıq.
Üçüncü baxdı Safonun heykəlinə.
Dodaqlarından ayıra bilmədi gözlərini.
Ayrılıb getmək istədi;
taqəti yoxdu,
gedə bilmədi.
Diz çöküb səcdə etmək istədi;
heyranlığından edə bilmədi.
Sanki, qapadı gözlərini
bütün dünyanın yoxuna-varına,
Baxa-baxa qaldı
Safonun,
şeirlərindən məşhur
dodaqlarına.
Afinada, muzeydə
biri "Hava nə soyuqdur", - deyirdi.
O biri "İstidən aman yoxdur", - deyirdi.
Üçüncü
baxışlarıyla sanki,
heykəl Safonun,
dodaqlarını yeyirdi.
Və pıçıldayırdı:
- Dodaqlar,
sizi kim unudar!
Dodaqlar, dodaqlar!

*1960*

**CƏBƏLLÜTTARİQ**

Cəbəl - dag,
Tariq - sərkərdə.
Bəs nə işim vardı mənim
bu sərxoş ləpələrdə?!
Dalğa var - naqqa balıq,
dalğa var-kit kimi,

Atlantikin ayıq vaxtı yoxdur
Vahid kimi.
Fərqi budur ki, Vahid şairdir,
Atlantik - okean.
Fikrim uçdu getdi yenə Bakıya.
Əzizim, gözüm Bakı!
Özün ürəyimdəsən,
dilimdə sözün, Bakı!
Çox şey bilsəm də tarixdən,
Yenə heyran uşaq kimi keçirəm
Cəbəllüttariqdən.
Baxıram sərnişinlərə,
çoxunun qaçıb bət-bənizi.
Keçirəm Tariq boğazını
kürəyimdə Atlantik,
qucağımda Aralıq dənizi.
Baxıram qəlbim qanaya-qanaya,
Sağ yanım dərdli Əlcəzair,
sol yanım qolu bağlı İspaniya.
Nə ayağım göyərtədə bənd alır,
Nə çiynimdə başım.
Yanağımda duzlu damlalar,
dəniz üzünü qoyub üzümə ağlayır,
yoxsa dənizə tökülür
göz yaşım?!
Okean bir göy nəhəngdirsə,
bura onun boğazıdır.
Açılıb sol sahildə Cəbəllüttariqin
Qranit pəncərəsi;
deyirsən kim keçsə burdan
tutub boğasıdır.
Qayalar hamar,
hər qayada neçə ölüm yuvası.
Görünməsə də top lülələri,
bilirəm, qul kimi əmrə hazırdır
onların gəmicil kölələri.
Ancaq qorxulası bir şey yoxdur.

Bir zamanlar bu Tariq boğazı
meydan oxuyurdu cahana.
İndi bənzəri var daha çox
üst-başı yar-yaraqlı
yalançı pəhləvana.
Gündə yüz yol
belədən-belə ötür
reaktivlərin kölgəsi.
Cəbəllüttariqin, sanasan, nitqi batıb,
çıxmır səsi.
Quma düşmüş əfi kimi mürgüləyir;
Britaniyanın qanlı törəməsi;
beton köynəkli sahil.
Ömrü uzun əsrlik deyil indi.
Yaşayar olsa-olsa
beş-on qısa il.
Tariq vardı, getdi,
adı qalıb.
Əsrlərlə Britaniya hökm etdi
yüz milyonluq koloniyalara.
İndi, ağzında şirin günlərin
acı dadı qalıb.
Cəbəllüttariq!
İnsanların əsəridir tarix.
Enişi var, yoxuşu var.
Azadlıq yollarında hələ onun
çox işi var.

*1961*

# *Afrika nəğmələrindən*

## ƏLCƏZAİR MEYDANINDA

Əlcəzairdə,
geniş meydanda
öldürdülər onu.
Öldürdülər günün günorta çağı,
minarədə azan başlayanda.
Arxası üstə yıxılıb
qanlı döşəməyə.
Elə bil uzanıb qırmızı bayraq üstündə.
Bığ yeri yenicə tərləyib.
Əlləri iri, qabarlı;
günəş yanığı ilə örtülü.
Gözləri açıq,
iki dərin qan gölü.
Yanında bir parça qanlı çörək -
bu günün
artıq gərək olmayacaq ruzisi.
Döşəmədə
çilik-çilik kuzədən tökülüb,
qırmızı ilan kimi,
burula-burula süzülüb gedən
qarıqarışıq suyun izi.
Əlcəzair meydanında,
günün günorta çağı,
öldürdü onu "ultralar".
Öldürən avropalı – gəlmə,
"mədəniyyət" silah
"qüdrət" səngərli.
Ölən afrikalı,
o torpağın balası, yerli.
Öldürən - gizlində oturub,
aşkarda işini görən

general - Salan.
Ölən – tərsanə fəhləsi
Əbu Zahid Salman!
Milləti ərəb,
dini rnüsəlman.
Mən çoxdandır nə dinə qailəm,
nə təriqətə.
İnanıram
duyduğum, anladığım həqiqətə,
Lakin durmuş olsaydı
Əlcəzair meydanında
mənimlə üz-üzə
yüz əli silahlı -
Ultra - gürzə,
uzaq Əlcəzair oğlu -
qardaş Salman!
Mən də sənin kimi
tərəddüdsüz
deyərdim:
- Müsəlmanam, müsəlman!
Müqəddəs kitabların,
ata-babadan bəri,
başa düşə bilmədiyim
sözlərini təkrarlamaqla. Yox!
İtaət,
Səbr,
Qorxu,
Şükran dini deyil,
dinim mənim.
Düşmənə - düşmənəm!
Qənimə - qənim!
Mən də sənin dinindəyəm:
Qalib gələnə qədər mübarizə,
azadlıq uğrunda, lazım gələrsə,
təəssüfsüz ölmək;
Vətən deyilən ana torpağ:
Qəlbimin duyğusu,
gözumün çimiri, yuxusu,

ömrün az, ya çox qalan
günləri bahasına
qorumaq dinində.
Mənim dinimdir sənin
qəzəbin də, kinin də.
Eşitsin Yer kürəsi -
Böyük Anam!
Mən müsəlmanam!
Cənazəni sükutla
İzdihamlı küçələrdən keçirib aparan,
min-min ürəkdən
qəzəb qığılcımı qoparan,
İnsanlar sırasındayam!
Mən, röyalarında gördüyün dünyanın
vətəndaşıyam!
Mən, əliqabarlı,
könlü qubarlı,
sinəsində
işıqlı günlərin həsrəti,
ömrünün vərəqlərində
neçə əsrin dərdi,
hər yəhudinin,
xaçpərəstin,
bütpərəstin,
müsəlmanın
qardaşıyam,
Azadlıq uğrunda
Mübarizə döyüşçüsünün cəbhədaşıyam!

*1966*

**XEOPS**

Daşı daş üstə yığıblar;
elə bil ki,
Vereşşaginin tablosudur,
başı baş üstə yığıblar.
Fərqi budur ki,
bu daşlar adi daşdır.

Fərqi budur ki,
o başlar kəsilmiş başdır.
Birinin adı "Apofeoz"dur,
birininki "Xeops".
Baxıram diqqətlə, maraqla.
Bah... of...
Qulaqlarım müxtəlif səslər eşidir.
Belə böyük olmasaydı Xeops
deyərdim, uşaq işidir,
Xeopsun yaşı çoxdur,
daşı qədər.
Apofeozun sayı çoxdur dünyada,
kəsilmiş insan başı qədər.
Əslinə baxsan,
hər ikisini yaradıb insan.
Biri qatar-qatar illər boyu
qalxıb ağır-ağır,
qulların kürəyində.
Biri qanlı bir günün balasıdır.
Hər ikisi insan oğlunun
zülm abidəsi,
fəlakət qalasıdır.
Bir məna görmürəm
boyunda, əzəmətində.
Bir məna görmürəm,
onu yaradanların hərəkətində.
Bəlkə maraqlandınız
ehramlar hardadır?
Deyim: - Ehramlar
Qahirədən bir az kənardadır.
Gördüyüm ilk dəfədir.
Dayanıb diqqətlə baxıram.
Düzülüb yan-yana
neçə ehram.
Ən böyüyü Xeopsdur.
O yanda Əbülhövl - Sfinks
arxasını çevirib Xeopsa,
çevrilib dalına baxan deyil,

dünya qopsa.
Xeopsun nə pəncərəsi,
nə qapısı var.
Bir dəhlizi var,
neçə yüz pilləsi.
Fironun sümükləri
xaşxaş kimi dağılar,
pillələrin başından
üzüaşağı gilləsən.
Mənə nə,
nə tikdirənə qohumam,
nə tikənlərlə tanışam;
Fironlara ağzıma gələni deyəm,
qullarla dost kimi danışam.
Əsrlərin qalın divarı
ayırır məndən onları.
Düzü, könlümdə yoxdur
tarixlərin sarı varaqlarını
çevirmək həvəsi.
İndi düşündürür məni
Hər gün dönə-dönə
Xeopsun ətrafını dolanan,
qoca ərəb,
bir də onun yorğun dəvəsi.
Bəzəkli dəvələr üstündə
Xeopsun ətrafını dolanan:
bircə quruş artıq versə,
hayıfsılanan,
centlmenlər, ledilər
bilsəydilər ki,
alaf necə bahadır,
çörək necə bahadır.
Yeddi baş külfətin ümidi
hər gün sabahadır!
Hər gün sabahadır!

*Qahirə, 1960-1961*

**ƏBÜLHÖVL**

Hövl!
Lüğətə baxdım,
"qorxu" deməkdir.
Əbülhövl - abidə,
həm də dünyada təkdir.
Bu boyda gözləri olan,
bu boyda qaşı olan
bir insan
yoxdur böyük dünyada.

Deyirlər, Napoleon
burnunu sındırıb
bu Əbülhövlün.
Nə ağlayıb daş insan
canının ağrısından,
nə qan axıb
burnunun yarasından
(bəlkə də axan qanlara
qanı qarışmasın deyə,
dişlərini qıcayıb,
dözüb bu işgəncəyə).
Ancaq canlı bir ərəb oğlu
daş atıb Napoleona.
Napoleon da bir balaca,
lap kiçik, noxud boyda
güllə vurub ona.
Napoleon sağ qalıb,
Ölkələr fəth etmək üçün.
Ərəb ölüb,
sümüklərilə torpağı bərkitmək üçün.
Napoleon haqlı çıxıb,
ərəb müqəssir gorülüb...
O zamandan Əbülhövl
dayanıb dinməz-söyləməz.
İstəsən başına çıx,
istəsən sinəsində gəz...

Baxıram Əbülhövlə.
Qorxmalı bir şey yoxdur.
Ancaq qoca bir ərəb
Mənə dedi ki:
- Daş olduğuna baxma!
Gecələr adam olur,
kəsir yolları,
sual verir keçənlərə.
Kim cavab tapmadı,
bir mıx kimi çalır yerə,
torpağın təkinə.

Əsrlər keçib,
Sualı nədir –
bilən yoxdur.
Vaqif olan yoxdur
onun istəyinə.
Bəli, gecələr adam olur;
gedir Nildən su içir.
Su içir bir dərya.
Sonra üzünü qoyur
"Yandım, yandım!" deyən səhraya.
İçdiyi sular göz yaşı olub
axır qumlara.
Əbülhövl qayıdır geri,
sinəsində qaynar qumlardan aldığı yara.
Gəzir, gəzir, yorulur.
Bəzən Nil kimi sakit,
Nil kimi qəmgin olur.
Bəzən gecələrin tənhalığında
qəhqəhə ilə gülür.
Sualı cavabsız qalanda, ağlayır.
Çoxdur dərdi.
Ancaq nəyə isə ümid bağlayır.
Bəlkə də bir gün qəhqəhələri
səhraya SDS salacaq.
Bəlkə bir gün, əsrlərlə verdiyi suala
gözlədiyi cavabı alacaq!

**BULUDLAR**

Sevirdim göy üzündə
buludlar çaxnaşanda,
Göz qamaşır
alov qamçıların işığından,
şimşəklər- odlu qılınclar
sıyrılanda
qara bulud - qınından.
Sevirdim...
dəli-dolu gur yağışları,
tarixi dünya qədər qədim,
İnsansız partlayışları.
Sevirdim...
Yenə şaqqıldayır göylər,
şimşəklər ətrafa işıq tökür.
Ancaq...
Nigaranlıqda susub sevincim.
Mənə elə gəlir ki,
hər yerə tökülür bu yağış,
fələstinü qaçqınların
güllələrdən dəlik-deşik,
çadırlı düşərgələrinə.
Hindistanın, Banqladeşin,
Venesuelanın
məcrasından çıxmış çaylarına.
Neçə yerdə
taxıl dəryasına ütü çəkir,
yerə qapadır
sütül dənli sünbülləri.
Ley vurmuş quş tükü kimi,
dağıdır Yaponiyada
gilənar çiçəklərini.
Əli qoynunda qoyur
Afrikada piqmeyləri -
səhra, meşə adamını.
Bu nə rəhmət yağışıdır,

tökülür dünyanın
torpağına, daşına.
Nə məhsul yağışıdır
təsəlli ola
neçə yerdə insanların
göz yaşına.
Hardasa tir-tir titrəyir
əyni çılpaq,
ayaqyalın uşaqlar.
Hardasa məktəbə gedə bilməyən
dərs həvəsli uşaq var.
İtirmişəm
bir zaman könlümü oxşayan
həvəsi, marağı.
Elə bil ki, indi
bu yağış qəlbimə yağır,
Fikrimi qovur
pərən-pərən.
Deyirəm:
- Nə yağışdan, şimşəkdən
insanlarda qorxu qalsın.
Nə arzular qırılsın,
nə ümid azalsın.
Dünyanın hər yerində
təbiət də, səadət də olsun
insan əmrində.

*1974*

**AFRİKA NƏĞMƏLƏRİNDƏN**

*Qaranlıqdan səs*

- Sonu varmı,
sonu varmı;
yolumuzdan çəkilməyən,
dan ocağı sökülməyən,
üzümüzə bir gülməyən,
gecələrin, gecələrin?

Göydə bulud - qara gəmi!
Qara günün qara qəmi!

Ömrün işıqsız aləmi!
Gecələrin, gecələrin sonu varmı?
Bu qaranlıq qurtararmı?

*Əks-səda*
- Keçməlisən bu qəm dolu
ağır yolu, çətin yolu.
Vuruşlarda qazanacaq
Azadlığı insan oğlu.

*Səs*
- Gözümün kökü sarı.
İllər keçir qəm qatarı!
Kim qırar bu intizarı?!
Nə vaxt, nə vaxt yıxılacaq
gecələrin qəm hasarı?

*Əks-səda*
- Prometey gələr, deyə,
verər sənə od-hədiyyə.
Yox, gözləmə!
Diri-diri
qır qolundan at zənciri.
Prometey əfsanədir.
Olsa belə, nadir olur.
Azadlığı sevən insan
qələbəyə qadir olur.

*1970*

**KONQOLU QARDAŞ**

Dedilər: - Dərin qara, günün də qara olsun.
Zəncirdən ayaqların, qolların yara olsun.
Verdikcə kürül-kürül almazmı konqolu
Əldə qabarı qaldı, beldə yağır donqarı.

Vergilər az gələndə kəsdilər sol qolunu,
Tək biləkli qoydular minlərlə konqolunu
Sönsün deyə alovu üsyanlar tonqalının
gününü göy əsgiyə düydülər konqolunun.
Günləri qara qardaş, dərisi qara qardaş!
Sonsuz müsibətini mən yazım hara, qardaş?
Afrikanın sinəsi göz-göz faciələrdir.
Ancaq zülmət gecələr parçalanır, səhərdir.
Bəlkə də üfüqləri qızardan qırmızı qan
Süzülür Lumumbanın qan verən yarasından.
Dönüb qızıl bayrağa indi çağırır səni:
- Gəl, xilas eylə, - deyir, - dərdli ana vətəni.
O, vətən sabahını sənə tapşırdı, getdi.
Həyat ixtiyarını sənə vəsiyyət etdi.
Qurtuluşu yaxındır müztərib Afrikanın.
Adı ölümsüz olur zülm evini yıxanın!
Sən layiqsən bu ada, dərisi qara qardaş!
Uğur olsun yoluna, üzü bahara, qardaş!

*1961*

**SƏHƏRİ GOZLƏYƏNLƏRƏ**

*(Afrika siklindən)*

Elə bil ki, qaranlıq
mağara içindəyik.
Qaranlıq qatran kimi
alıb içinə bizi.
Qaranlıq içində
qaranlığı görürük,
qapqara,
dümdüz,
timtikanlı.
Qaranlığı eşidirik,
qara sükut içində.
Barmaqlarımızın ucunda

duyuruq qaranlığı.
Qaranlıq göynədir gözlərimizi.
Qaranlıq qapqara şəlalədir,
Axır heçlikdən heçliyə.
Axır səssiz,
Axır
qara günlərimizə qarışıq.
Elə bil, eybəcər vahimədir,
gözlərini dirəyib,
bizə baxır.
Qaranlıq bəndləyib,
Qollarımızın qüdrətini,
Qaranlıq hər bir hüceyrəmizdədir.
Sızım-sızım sızlayır,
göyüm-göyüm göynəyir,
beynimizdə bu qaranlıq.
Bir səs:
- Əllərinizə diqqətlə baxın.
İşıq yolu əllərinizdədir.
Üfüqlərdə çırpınır
sarı qanadlı kəpənək.
Səhərlə əl-ələ verib,
Qaranlığı boğasınız gərək.
Şəfəqlər tökülsün yurdunuza
qucaq-qucaq,
çiçək-çiçək.

*Bakı-Göyçay, 1977*

## İTKİSİ ƏHƏMİYYƏTSİZDİR

Qızdırdılar metalı;
qızdırdılar əriyib mavi alova dönənə qədər.
Çilədilər canlıların üstünə,
çilədilər hər yana.
İnsanların, ağacların, quşların üstünə,
çiçəklərin, kəpənəklərin üstünə.

...Bir gün.
Hava sakit,
Göy gurultusuz.
Nə gecənin qara güzgüsündə
qırmızı güllələrin pırtlaşıq kələfi,
nə ulduzları pərdələyən tüstü.
Uladı bir bomba,
cırıb göyün gecə paltarını,
düşdü harasa.
Sonra cansız makinaların qurğuşun barmaqlarıyla
yazıldı:
"...İtkisi əhəmiyyətsizdir!"
Bu əhəmiyyətsizlərdən biri insan idi;
dönmüşdü kömürə.
Biri meyvə ağacı idi;
gövdəsindən bölünmüşdü yarı.
Biri cücəli toyuq idi;
qalmışdı torpaq altında
özü, balaları.
Biri qərənfil idi;
kökündən qopub yapışmışdı daşa.
Biri kəpənək idi;
bir çimdik tüstüyə dönmüşdü.
Bu kömür olmuş insan -
bir ananın oğlu idi.
Bir qızın əri olacaqdı,
bəlkə bir neçə övlad atası.
Bu kömür insan -
arzularının yüzdə birinə qovuşmamışdı.

Onun əlləri vardı;
iş görə bilən,
ev tikə bilən,
yer sürə bilən,
ulduzlara yol aça bilən,
şeir yaza bilən,
suda batan bir adamın əlindən tuta bilən,
bir uşaq başını sığallaya bilən.

Onun gözləri vardı;
mavi göylərə,
qarlı dağlara,
səhərin yuxulu yoluna baxıb
fərəhlə, sevinclə, ümidlə dola bilən.
Onun qəlbi vardı;
kədərdən ağrıyan,
həyəcandan şiddətlə döyünən,
məhəbbətə açıq.
O, insan idi;
duyğusu, düşüncəsi vardı.
Nə qədər bənzəri olsa da,
yer üzündəki insanlardan heç birinin
eyni deyildi.
Barlı ağac -
üstünə dünyanın dərdi çökmiş kimi,
əyildi, əyildi,
qırıldı ortasından.
O hələ yarım əsr
bar verəcəkdi,
Yaz qabağı puçur-puçur,
yaz başı çiçək-çiçək,
yaz axın düzüm-düzüm
meyvəli budaqlarını
uzadacaq,
yüksələcəkdi,
İçdiyi - yer altının sərin suyu,
günəşin ilıq şəfəqləri.
Yediyi - qıyımlı torpağın duzu...

Yanı balalı kürt toyuq –
gündüzlərin deyingən qarısı, -
gecələrin yuxusuzu,
gəzdirəcəkdi cücələri,
yemi, suyu onlara nişan verib.

Qoruyacaqdı onları
qaraquşdan, leydən.
Pərvazlanacaqdı balalar.
Hərəsi bir ana, bir ata olacaqdı
Yeni balalar, yeni cücələr...
Qərənfil -
buğum-buğum sallanacaqdı.
Gecələr
dinləyəcəkdi sükutun nəğməsini.
Bəlkə ilk məhəbbətin lal rəmzi kimi,
asılacaqdı bir qızın yaxasından.
Bəlkə ölümsüz bir lövhə yaratmağa
səbəb olacaqdı...
Kəpənəyin qanadları -
Çıldır-çıldır rəng damcıları;
gövdəsi zolaq-zolaqdı.
Nə sancağı vardı onun,
nə zəhərli dişi.
Uçub qonurdu çiçəkdən-çiçəyə.
İnsan kömür oldu!
Sındı ortasından barlı ağac!
Cücəli toyuq qaldı torpaq altında!
Daş üstünə yapışdı qərənfil!
Bir çimdik tüstüyə döndü kəpənək!
İlan vuran yatdi, mən yata bilmədim.
Məhv oldu bir insan,
bir kəpənək,
yer üzünün
bir bitkisi.
Nə sonsuzdur, nə böyükdür
dünyanın itkisi!

*Bakı, oktyabr, 1965*

**GƏLƏCƏYƏ SƏYAHƏT**

Pəncərəmi açdım sabaha,
gördüm insanlar keçib gedir;
illər üstündən,
aylar üstündən.
Sərhəd dirəklərindən körpülər salınıb,
dənizlər üstündən,
çaylar üstündən.
Zindan daşlarından yollar çəkilib,
kəndlər arasında,
şəhərlər arasında.
Bu yollardan keçib gedir insanlar;
ağı da,
sarısı da,
qarası da.
Mən də onların içindəydim,
siz də,
bu gün inamlı,
sabah ümidli qəlbimiz də,
Çağırdım: - Ey qardaşlar!
- Qardaş, - deyə səsləndi min bir ağız.
Danışdıq, danışdıq, danışdıq
tərcümansız, dilmancsız.
İnan bu sabaha,
oğlum, qızım,
bacım, qardaşım-İnsan!
Atam, anam - İnsan!
Yaşamaq olarmı
inanmasan!..

*Yuqoslaviya, Ohrid şəhəri, avqust, 1961*

**MÜNDƏRİCAT**

*Əsrin novator poeziyası*……………………………………………………………4

MƏN TORPAĞAM

Çinar……………………………………………………………………………27
Mən torpağam………………………………………………………………...28
Torpaq ………………………………………………………………………….29
Soruş…………………………………………………………………………….30
Darısqallıq………………………………………………….............................31
Dinmədik……………………………………………………………………….33
Bir apreldən sonar…………………………………………............................35
İnsan şəkli……………………………………………………………………….36
Məndə ixtiyar olsa……………………………………….............................37

ÇAĞIMDIR MƏNİM

Dünyanın işləri………………………………………………………………….39
İnsanlar…………………………………………………………………………40
Olmuşlar, olacaqlar…………………………………………………………...40
Yana-yana………………………………………………………………………40
Nigaranlıq……………………………………………………………………….41
Gücümüz, gücsüzlüyümüz……………………………..........................42
Dindirin məni…………………………………………………………….........................43
Mənim arzum…………………………………………...............................44
Azadlıq…………………………………………………………………………47
Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub……………………………........................47

VƏTƏN

Arzu……………………………………………………………………………..52
Vətən…………………………………………………….............................52
Vətən dedim…………………………………………….............................54
Bakım…………………………………………………………………………...56
Mənim küçəm…………………………………………….............................56
Yeni mənzildə………………………………………………............................61
Kür-Araz………………………………………………………………………...63
Təbrizin yolları oyum-oyumdur………………………………………………...63
Təbrizim mənim……………………………………………………………...64
Nigaran suallar………………………………………………………………….65

Yaralı Təbriz……………………………………………………………………66
Ərk qalası………………………………………………………………………..69
"Varalı Kərkükün bu günlü xoyrat və maniləri……………………………………70
Aşıç "Yanıqlı"nın bayatılarından…..……………………………………………..74
Şuşa……………………………………………………………………………...77
Şamaxı………………………………………………………………….......................78
Göyçayım…………………………………………………………………………79

ANAMIN KİTABI

Ananım kitabı…………………………………………………………………...82
Qədim əlyazması…………………………………………………………………..83
Söz ver mənə……………………………………………………………………...83
İti yazan qızlar……………………………………………………………………..84
Anamın laylası……………………………………………………………………..85
Adi sual……………………………………………………………………………87
Poeziya, ağ nöyüt və sairə………………………………………………………...88
Bolşevik yazı……………………………………………………………………….89
Nigaranlıq…………………………………………………………………………95
Yağış……………………………………………………………………………….96
Ulduz yolu və dolu………………………………………………………………...96
"Olum ya ölüm"……………………………………………………………………99
Quzu………………………………………………………………………………99
Sarı dana və balaca qız…………………………………………………………...100
Çörək satan qızlar………………………………………………………………...102

YADDAŞ

Ana………………………………………………………………………………105
Ana, nağıl dünyasına apar məni………………………………………………….105
Cırtdan nağılı……………………………………………………………………..111

UŞAQ OYUNLARI

Kimin əli?...........................................................................................................113
Laylalar…………………………………………………………………………...116
"abam kimi və bugünlü adam kimi………………………………………………116
Din, Ümid, inam…………………………………………………………………..119
Din haqqında……………………………………………………………….......122
Elə deyil, babalar…………………………………………………………………122
Qanadlar…………………………………………………………………………..125

O günlər - bu günlər…………………………………………………………...133
Bacı……………………………………………………………………………136
Gər ağacı………………………………………………………………………137
Yaddaş…………………………………………………………………………140
Ömür keçdi, gün keçdi………………………………...................................141
Ötən günlər……………………………………………………………………144
Sabahları düşünərkən………………………………………………………..145
Ömür yolu……………………………………………………………………...147
Maraq…………………………………………………………………………..148
Yoxluqla tanışlığım……………………………………………………………149

İŞ GÜNÜ

Adsız şeir……………………………………………………………………150
İki Məryəm oğlu……………………………………………………………151
Özünü öyməzlik……………………………………………………………......152
Həsəd……………………………………………………….........................152
İş günü……………………………………………………….........................154
Şeir yazmağım gəlir…………………………………….............................155
Bilirəm, bilmirəm……………………………………….............................155
Məhəmməd Hadi……………………………………….............................156
Qələm……………………………………………………………………………156
Yazı masam……………………………………………….............................157
Cib dəftəri………………………………………………….........................158
Bir anlıq səadət…………………………………………….........................159
Yalan……………………………………………………………………………...160
Ani duyum……………………………………………….............................161
Tək qalmaq……………………………………………………………………161
Deyirlər axşamlar kədər gətirir…………………………..............................162

İLQAR

İlk səfər………………………………………………….........................163
Qürur nəğməsi…………………………………………….........................165
Sənə……………………………………………………….............................168
Sorğu……………………………………………………………………………...170
İlqar.................................................................................................................171
Bir axşam…………………………………………….................................172
Yaxanda bir bənövşə………………………………….................................172
Qara gözlüm…………………………………………….............................172
Qəzəl……….....................................................................................................173

ETİRAF

O gecə......174
Sən dedin......174
Səbirsiz......176
Deyirlər......176
Deyirəm......177
İsrar......177
Deyim, dinlə......178
Sən varsan......179
İnan......180
Görmədim......180
Oxşarlıq......181
Hasiyə......182
İnam......182
Hicran......183
Vəfa......184
Sevgilim......186
Ayrılıq......187
Ayrılmayaq......188
İndi......188
Ülfət və məsafə......189
Əbəs yerə......190
İnanki......191
Uç gecənin birində......192
Uğursuz duyum......193
Təbəssüm......194
Ürəyini qoru......195
Sənsiz......196
Bəlkə......197
Bəxtiyarlıq......198

AND

Azərbaycanlı döyüşçülərə......199
Bəxtiyar......200
And......201
Dörd yüz on altı......202
Pilot qardaş......204
İntiqam......204
Metal qırıntıları toplayın......206

Babanım səhvi....207
Şam....208
Krım....210
Səni ad günün....211
İşıqlar yandı....211

İTKİLƏR

İki dəfə öldürülmüş Hamlet....213
Səhifələrin yaddaşından....213
Beləydi dostluğumuz....215
Bəlkə də....217
İtkilər....218
Rekviyem....218
İndi idin, keçmiş oldun....224
Gecikmiş qiymət....226
Susmuş telefon....227
Epitafiya əvəzinə....228

BİR NƏSİL QOCALSAM DA

Yadıma düşdü....232
Oğul....233
Qızıma və yaşıdlarına....234
Şoniyə....235
Barmaqların dil açır....235
Pillələr, illər....236
Bir nəsil qocalsam da....237
Nəvəmə məktub....238
Aysel....241
Uzaq yol, dəvələr və müdrik bir qoca haqqında....242

ÇİNARALTI

Burda bir insan ölüb....243
Gülxanə parkında bir ceviz ağacı var....244
Ulu şair....245
Çinaraltı....247
Qanlıca....248
Didərginlər....251

## DÜNYANIN DƏRDİ

Dunyanın dərdi....258
Yazıq dünya....258
Nigaranlığım....259
Üç girdin arçan odunu, divar sobası və yuxu....260
Tövbəyə tövbə....262
Həsrət....264
Qürbətdə....266
Açılmadı....267
Ağlama, Şərq, ağlama....269
Ağ fil....269
Balaca....270
Rotterdamda heykəl....273
Lıvr....274
Miloslu qız....275
Eyfel qülləsi....276
Üç qüffidən gələn səyyahlar və Safonun dodaqlarlı....278
Cəbəllüttariq....279

## AFRİKA NƏĞMƏLƏRİNDƏN

Əfcəzaiv meydanında....282
Xeops....284
Əbülhöv....287
Buludlar....289
Afrika nəğmələrindən....290
Konqolu qardaş....291
Səhəri gözləyənlər....292
İtkisi əhəmiyyətsizdir....293
Gələcəyə səyahət....297

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 11.12.2004. Çapa imzalanmışdır 24.06.2005.
Formatı 60x90 $^{1}/_{16.}$ Fiziki çap vərəqi 19. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 169.
Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.